BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ

# MÜDRİK SİYASƏT VƏ QARABAĞ ZƏFƏRİ

Kitab Bakı Şəhər İcra Hakimiyyətinin sifarişi ilə çap olunur

**Redaktor: Elmin İmanov**
Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının
İctimai-siyasi, humanitar məsələlər və
dini qurumlarla iş şöbəsinin müdiri

**Dizayner və tərtibatçı: Tünzalə Tağıyeva**

**Müdrik Siyasət və Qarabağ Zəfəri.**
**Bakı, "Hədəf Nəşrləri"- 2021, 224 səh.**

**"Müdrik siyasət və Qarabağ Zəfəri" kitabı Vətən müharibəsində qazanılmış "Böyük Zəfərin" əldə edilməsində Silahlı Qüvvələrin Ali Baş Komandanı, möhtərəm cənab Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi, siyasi, diplomatik və hərbi fəaliyyətlərinin uğurlu nəticəsinə həsr olunub.**

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
İnv. № -26384-
PREZİDENT KİTABXANASI

# ÖN SÖZ

Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin düşmən əsarətindən xilas edilməsinin ilkin təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi müstəqil dövlətin milli ordu quruculuğunun əsaslarını yaratmış və silahlı qüvvələrimizin peşəkar kadrlarla, yeni nəsil mütəxəssislərlə, müasir silah və texnika ilə təchiz edilməsi istiqamətində əhəmiyyətli addımlar atmışdır. Ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək və zəruri hazırlıq işlərini aparmaq baxımından vaxt və imkan qazanmaq üçün atəşkəs sazişinə nail olması da Ulu Öndərin tarixi xidmətlərindəndir.

Azərbaycanın ərazi bütövlüyünün pozulmasına və Ermənistanın işğalçı siyasətinə, təxribatlarına qarşı mübarizə aparan dövlətimiz sentyabrın 27-dən başlayan və 44 gün davam edən müharibədə düşmən üzərində zəfər qazanaraq tarixi nailiyyətə imza atdı. Nəhayət, Ermənistanın işğalına son qoyuldu. Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağ kimi çox çətin problemi həll edərək Ermənistanı, ümumdünya erməni diasporunu və onların havadarlarını diz çökdürdü və reallığı qəbul etməyə məcbur etdi. İllər ərzində ermənilərin müxtəlif azğınlıqları ilə qarşılaşan xalqımız və dövlətimiz nəhayət ki, parlaq qələbəyə imza ataraq tarixi ədaləti bərpa etməyə müvəffəq oldu. Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatla işğalçı Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Prezident İlham Əliyevin Ermənistan üzərində parlaq qələbə əldə edilməsində və onun hakimiyyətə gəlişindən sonra apardığı praqmatik, sistemli siyasi kurs, uzaqgörən xarici diplomatiyanın misilsiz rolu olmuşdur.

Bu gün Azərbaycanın şanlı ordusu dövlətin əsas atributlarından biri, müstəqilliyimizin və təhlükəsizliyimizin polad sipəri, xalqımızın yenilməz dayağıdır. Dağlıq Qarabağda və ətraf rayonlarda qazanılmış böyük Zəfər məhz Azərbaycan naminə, Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. Ona görə də bu müharibə haqlı olaraq xarakteri etibarilə Vətən müharibəsi adlandırılır. Şanlı Azərbaycan Ordusunun əldə etdiyi bugünkü uğurun səbəbi müdafiə qüdrətinin

və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatın yaxşılaşdırması yolunda atılan davamlı və sistemli addımlardır. Bu siyasətin baş memarı isə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdir.

Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 2021-ci il yanvarın 26-dan martın 30-u tarixinədək paytaxt rayonlarının orta məktəb şagirdləri arasında Azərbaycan torpaqlarının düşmən işğalından azad edilməsi uğrunda başlatdığı Vətən müharibəsinə həsr olunmuş "Müdrik siyasət və Qarabağ Zəfəri" mövzusunda referat yazı müsabiqəsi keçirilmişdir.

Milli-mənəvi dəyərlərimizin öyrənilməsində, qorunub saxlanılmasında və inkişaf etdirilməsində ümumtəhsil məktəblərində şagirdlərə aşılanan vətənpərvərlik tərbiyəsi mühüm rol oynayır. Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar – müstəqil vətənimizin gələcək keşikçiləri məktəblərimizdə tərbiyə alır və formalaşırlar. Məhz buna görə əsas məqsədi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı şanlı qələbəsinin təbliği, eləcə də böyüməkdə olan gənc nəsildə doğma vətənə sevgi və məhəbbət hislərinin aşılanması, onlar arasında vətənpərvərlik ruhunun təbliği istiqamətində görülən işlərin daha da genişləndirilməsi, şagirdlərin istedad və yaradıcılıq potensialının, tədqiqat aparma qabiliyyətlərinin inkişaf etdirilməsi olan bu müsabiqə mövcud karantin rejimi tələblərinə uyğun olaraq 2 mərhələdən ibarət olmuşdur.

Paytaxt rayonlarında keçirilən birinci mərhələdə 12 rayon üzrə 316 orta təhsil müəssisəsindən 1879 şagird iştirak edərək 18 mövzu üzrə referatlarını təqdim ediblər. Ilkin müsabiqələrdə 125 şagird birinci mərhələnin qalibi adına layiq görülüblər. Müsabiqə komissiyası tərəfindən rayon qalibləri arasından xüsusi fərqlənən 34 nəfər yekun olaraq Bakı şəhər mərhələsində iştirak üçün vəsiqə qazanıblar. Qalib şagirdlərin referatları bu kitabda toplanmışdır.

Bu gün böyükdən kiçiyə qədər hər kəs, hər bir azərbaycanlı, vəzifəsindən, əqidəsindən, sosial statusundan asılı olmayaraq özünü daha vüqarlı, daha mətin hiss edir. Çünki artıq biz qalib xalqın nümayəndələri olmağımızla,torpaqlarımızı hünər meydanında azad etməyimizlə fəxr edirik, qürurlanırıq.

**Təşkilat komissiyası**





**NƏZRİN HÜSEYNOVA**
*Yasamal rayonu*
*Bakı Avropa Liseyinin*
*VIII sinif şagirdi*
**Elmi rəhbər: Tünzalə İbadova**



***"Qurub-yaratmaq eşqi, qələbə əzmi ilə yaşayan və döyüşən insanların sarsılmaz inamı qarşısında heç bir qüvvə dura bilməz".***
**Heydər Əliyev**

***"Bir adamın dövlət xadimi olması üçün hər şeydən əvvəl idarə edəcəyi cəmiyyətlə dost olması, dostluq qurması lazımdır".***
**Mustafa Kamal Atatürk**

## UĞURLU SİYASƏTİN DAVAMI – İLHAM ƏLİYEVİN HAKİMİYYƏTƏ GƏLMƏSİ

Azərbaycan xalqı, dövləti və cəmiyyəti XX əsr dünya tarixinin yetirdiyi ən parlaq və heyrətamiz zəka sahiblərindən biri, Müstəqil Azərbaycan Respublikasının memarı, milli ideologiyamızın banisi Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi mütərəqqi dövlətçilik ideyaları, müdrik siyasəti müasir dövdə də uğurla inkişaf edir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin praqmatik və sistematik şəkildə həyata keçirilməsi nəticəsində çiçəklənən bir diyara çevrilən Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında özünün dinamik və hərtərəfli mövqeyi ilə seçilir.

Ulu Öndərin xalqımıza bəxş etdiyi ən qiymətli töhfə onun milli maraq və mənafeyə hədəflənmiş böyük ideyalarını uğurla həyata ke-



çirən, ümummilli inkişaf konsepsiyasını müvəffəqiyyətlə realizə edən, intensiv sürət və geniş vüsətlə gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Müasir dövrün yeni lideri olan İlham Əliyevin dövlətimizə rəhbərlik illərində ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələrdə imza atdığı çoxsaylı uğurlar, Azərbaycanın regionda nüfuz, güc sahibinə çevrilməsi, modernləşməsi Ulu Öndər Heydər Əliyevin uzaqgörənlik nümunəsi olmasının canlı təsdiqidir.

Bu gün Azərbaycana Heydər Əliyev yolunun layiqli davamçısı İlham Əliyev başçılıq edir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın yeni prezidenti, həm də dünya azərbaycanlılarının yeni lideridir.

Azərbaycan Prezidenti İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. O, doğma Azərbaycanda, eləcə də beynəlxalq aləmdə böyük hörmətə və nüfuza malikdir.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və həyata keçirilməsində əvəzsiz rol oynadı. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, ölkəmizin dünyaya inteqrasiyasında xidmətləri misilsizdir.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələr fəth edilir, bütün sahələrdə əldə edilən nailiyyətlər gələcəyə nikbin baxmağa imkan verir. Bu gün istər daxili, istərsə də xarici arenada qazanılmış nailiyyətlər Ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanan və Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin nəticələridir. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan, dövlətlər, xalqlar arasında dostluq, əməkdaşlıq körpüsü kimi xarakterizə olunur.





Məhz ölkəmizin gerçəkləşdirdiyi layihələr, ev sahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlər bu körpünü möhkəmləndirməklə yanaşı, əhəmiyyətini daha da artırır. Bu gün Azərbaycana baxış olduqca müsbət və nikbindir. Çünki dünya ölkələri Azərbaycanın timsalında etibarlı tərəfdaş, multikultural dəyərlər və ənənələrə sadiq, tolerantlıq nümunəsi olan bir ölkə görürlər, Azərbaycanın regionda barışdırıcı, sabitləşdirici rolunu, beynəlxalq müstəvidə isə yerini olduqca yüksək qiymətləndirirlər.



Cənab İlham Əliyev hələ Milli Məclisin deputatı olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim xalqın içərisində olur, onun problemlərini öyrənir, seçicilərinə qayğı göstərirdi.

Möhtərəm prezident İlham Əliyev uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Onun təşəbbüsü ilə təkcə paytaxt Bakıda deyil, eyni zamanda regionlarda da müasir idman mərkəzlərinin yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik siyasətin parlaq təzahürləridir.

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda, idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm bey-

nəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu, İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

İlham Əliyev peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan nümayəndə heyətinin başçısı kimi bir çox beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir. Buna misal olaraq Münhen və Valday konfranslarını xüsusilə qeyd edə bilərik. Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə Ermənistanın baş nazirinin məntiqsiz, cəfəngiyat və böhtanla dolu iddialarına Prezident İlham Əliyevin iti zəkası və hazırcavablığı, siyasi məntiqi sayəsində tutarlı faktlarla cavabı işğalçı ölkənin baş nazirini çətin vəziyyətdə qoydu.



Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmişdir.

İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir.

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində,







***Münhen konfransı***

o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsəqyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.




İlham Əliyevin Vətən müharibəsi dövründə Ali Baş Komandan kimi göstərdiyi fəaliyyət də xüsusilə təqdirə layiqdir. O, Ali Baş Komandan olaraq Azərbaycan Ordusunun fəaliyyətini düzgün istiqamətləndirdi, xalqın iradəsinin və maraqlarının müdafiəçisinə çevrildi. Özünün dəqiq və çevik qərarları ilə, səlis və təsirli çıxışları ilə Azərbaycan xalqının sonsuz sevgisini və rəğbətini qazandı. Beynəlxalq media üçün verdiyi müsahibələrində isə İlham Əliyev özünün yüksək intellektini, dərin savadını, diplomat və siyasətçi kimi ustalığını nümayiş etdirdi. Bütün bunlar da döyüşən ordunu, Prezidentinin arxasında dağ kimi duran Azərbaycan xalqını qələbəyə hər gün bir addım daha da yaxınlaşdırdı. Nəhayət, Ali Baş Komandanın və Müzəffər Azərbaycan Ordusunun qətiyyəti, dönməz mübarizəsi xalqımıza Zəfər sevincini, qürurunu yaşatdı!

Bütün bu deyilənlərdən sonra biz əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni-yeni zirvələr fəth edəcək! Azərbaycanın bu uğuru bizə dost, qardaş olan dövlətləri sevindirəcək!

**Səs ver, uca millətim, haqqın təntənəsinə,**
**Səsini qat sən onun uca, məğrur səsinə.**
**Dünya ayağa qalxsın, qoy onun gur səsinə.**
**“Azərbaycan”,-deyəndə, “Qarabağ”,- söyləyəndə!**
**İnamla irəliyə!**
**İlhamla irəliyə!**





**NURLAN CƏBRAYILZADƏ**
*Sabunçu rayonu*
*80 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Rasimə Abbasova**



## VƏTƏN MÜHARİBƏSİ – QARABAĞIN AZAD OLUNMASI

Nəhayət, düz 30 il həsrətində olduğumuz, bizi Böyük Qələbəyə qovuşduracaq müqəddəs gün gəlib çatdı. Vətənimizin daşını, torpağını, suyunu, havasını bütövləşdirmək, uzun illər ayrılıq naləsi çəkən, “Azərbaycan” deyib fəryad qoparan Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Ağdamı, Kəlbəcəri və Şuşanı “Yaralı qartal”ın özünə qaytarmaq üçün ayağa qalxdıq.

Ermənistanın sentyabrın 27-də növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş naziri tərəfindən imzalanan birgə bəyanatla Silahlı Qüvvələrimizin hərbi cəbhədəki möhtəşəm qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Beləliklə, xalqımızın 30 il çəkən torpaq həsrətinə son qoyuldu, ədalət bərpa edildi. Eyni zamanda Prezident, Ali Baş Komandan İlham Əliyev qalib sərkərdə, Azərbaycan Silahlı Qüvvələri güclü ordu, xalqımız isə böyük, məğrur, yenilməz olduğunu bir daha təsdiqlədi.




Belə ki, Azərbaycan döyüşlərdə hərb tarixinə yenilik kimi düşən strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadəyə xüsusi önəm verdi. Nəticədə həm sürətlə irəlilədi, işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, həm də düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi.

Hərbi əməliyyatlar zamanı Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxararaq onun faktiki olaraq iflic vəziyyətinə gətirilməsi barədə məlumatları ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğururdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını gücləndirirdi.

Müasir texnologiyalı silahlar Silahlı Qüvvələrimizin güc alətlərindən yalnız biri idi. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Bununla da Silahlı Qüvvələrimiz "Ermənistan ordusunun məğlubedilməzliyi" mifini darmadağın etdi. Beləliklə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək Böyük Zəfərə imza atdı.





İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsində dövlətimizin başçısının da dəfələrlə vurğuladığı kimi, hərbi qüdrətimizlə bərabər, bizim birlikdə güclü olmağımız önəmli rol oynadı. Başqa sözlə, Xalq-Prezident-Ordu vəhdəti ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində əhəmiyyət daşıdı.

Şübhəsiz ki, dövlət başçımızın ölkəmizə rəhbərlik etdiyi 17 il ərzində cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan bu qələbəyə, necə deyərlər, addım-addım yaxınlaşırdı. Münaqişənin davam etdiyi illərdə cənab Prezident çox böyük uzaqgörənlik və təmkinlə həm diplomatik, həm də ordu quruculuğunda təxirəsalınmaz tədbirlər reallaşdırırdı. İştirakçısı olduğu ən yüksək beynəlxalq tədbirlərin tribunalarından Qarabağ həqiqətlərini dünyaya bəyan edir, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin ölkəmizin əzəli torpağı olduğunu və işğaldan azad edilməsinin vacibliyini çatdırırdı.

Yeri gəlmişkən, müharibənin davam etdiyi günlərdə dövlət başçısı xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə də respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı. Həmçinin, Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun, öz torpaqlarında müharibə apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayo-



nunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin, Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi.

Azərbaycan xalqı Böyük Qələbənin qazanıldığını noyabrın 8-də Qarabağın ürəyi, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi gün "Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" – deyə, sevincini bildirən cənab Ali Baş Komandanın dilindən eşitdi.

Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya aktını imzalamaqdan başqa yolu qalmadı. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın öz Prezidentini necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi. "Ali Baş Komandanın bircə əmrinə müntəzirik" – deyən Azərbaycan əsgər və zabitləri öz sözlərinin sahibi olduqlarını döyüşdə sübuta yetirdilər.





Prezident İlham Əliyev xalqa müraciətlərinin birində deyib: "Düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur... Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistan əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

Ona görə də döyüş əməliyyatlarında erməni əsgəri mövqeləri qoyub qaçır, Azərbaycan əsgəri isə öz torpağı uğrunda baş qoyur, canından keçirdi.

Azərbaycan cəbhədə əldə etdiyi bu qələbələrin əsasını son 17 il ərzində qoyub. Ordumuzun güc-qüdrətinə mühüm önəm verilib, ən müasir döyüş texnikasının alınması gerçəkləşdirilib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılıb. Azərbaycan Prezidenti çıxışlarının birində bu barədə danışarkən, deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Beləliklə, döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan Baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının

Azərbaycan Resp... İşlər İdarəsi
İnv. № - 26384-
PREZİDENT KİTABXANASI

ifadəsi idi. Müharibədə ağır itkilər verərək məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu.

Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı işğaldan azadetmə əməliyyatı dünya üzrə müharibələrin aparılması doktrinasında ciddi dəyişikliklərə səbəb olacaq. Yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın ermənilərdən təmizlənməsi əməliyyatı da, şübhəsiz ki, Azərbaycanın hərb tarixinə şərəfli, parlaq səhifə kimi yazılacaq və dəmir yumruğumuzu daddırdığımız düşmənin xatirindən əbədi olaraq silinməyəcək.



Son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahlarla düşmənin ağır texnikasını və canlı qüvvəsini darmadağın edən pilotsuz uçuş aparatları ilə ordumuzun tamamilə modernləşdirilməsi Azərbaycanda ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlərin kiçik bir hissəsidir. Məhz elə buna görə də Azərbaycan Silahlı Qüvvələrinin hazırda dünyanın ən güclü 50 ordusundan biri olması bunun bariz nümunəsidir.

Şübhəsiz ki, bütün bu uğurlar dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub. Əgər belə olmasaydı, hazırda Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra, hərb meydanında düşmənə qalib gələ, cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi.

Azərbaycan Ordusunun yüksək peşəkarlığı, döyüş əzmi





haqqında qardaş Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu dövlətimizin başçısını qələbə münasibətilə təbrik edərkən, deyib: "Sizin qələbəniz, bizim qələbəmizdir, bu böyük zəfər münasibətilə Sizi təbrik edirik. Ali Baş Komandan olaraq Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda türkün gücünü də göstərdi. Bu prosesdə Sizin rəhbərliyinizlə qardaş Azərbaycan həm döyüş meydanında, həm də masada mövcudluğunu da göstərdi. Döyüş meydanında qələbələrinizə baxmayaraq sülh yolu ilə, atəşkəs yolu ilə də bu münaqişənin həlli üçün böyük bir liderlik göstərdiniz".

Hərbi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkonun "Pravda.ru" nəşrinə ordumuzun qüdrəti ilə bağlı açıqlaması da diqqət çəkir. İ.Korotçenko Birinci Qarabağ müharibəsindən danışaraq xatırladıb ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda ordu quruculuğu diqqət mərkəzində saxlanıldı, bununla bağlı mühüm tədbirlər həyata keçirildi. Prezident İlham Əliyev 17 illik hakimiyyəti dövründə isə iri infrastruktur neft-qaz layihələrini həyata keçirdi və bundan əldə edilən böyük həcmli valyuta hesabına bütün Azərbaycan, eləcə də ordu sürətlə inkişaf etdi və regionun ən güclü silahlı qüvvəsinə çevrildi.

Burada maraqlı bir məqamı da qeyd etməliyəm. Ermənistanın Müdafiə naziri David Tonoyan ölkəsinin imzaladığı bəyanatı xəyanət kimi qiymətləndirənlərə cavab verərək deyib: "Biz çox böyük bir qüvvəyə – supersilahlı Azərbaycan Ordusuna qarşı vuruşduq. Məndən "Bəs siz niyə silahlanmadınız?" – deyə soruşa bilərsiniz. Biz də silahlı idik, ancaq kəmiyyət və resurslar baxımından imkanlar qeyri-mütənasib idi".

Bəli, necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur. Düşmən ölkənin Müdafiə nazirinin dediyi kimi, Azərbaycan Ordusunun kəmiyyət və resurslar baxımından gücü, əsgər və zabitlərimizin isə yüksək peşəkarlığı, mübarizə əzmi işğalçının geri çəkilməsinə, döyüşdə təslim olmasına gətirib çıxardı.



NƏZRİN HƏMİDLİ
*Binəqədi rayonu*
*301 nömrəli tam orta məktəbin*
*XI sinif şagirdi*
**Elmi rəhbər: Pərvanə Quliyeva**

# QARABAĞ ZƏFƏRİ VƏ ONUN TARİXİ ƏHƏMİYYƏTİ

Azərbaycan çoxsaylı qəhrəman oğullarının qanı, canı bahasına yeni bir tarix yazdı – ZƏFƏR tarixi. 2020-ci il, 44 günlük Vətən müharibəsində qazanılan QARABAĞ ZƏFƏRİ ilə tarixə düşdü. Çünki...

***Dünya duymamışdı belə hünəri,***
***Dünya tanımırdı, belə düzlüyü.***
***Heyrətə salmışdı bütün bəşəri,***
***Bu böyük millətin ölümsüzlüyü.***

Qarabağ – xalqımızın neçə illərdir sağalmayan yarası, səngiməyən həsrəti, yağmalanmış yurd yerlərinin nisgili, Xocalı soyqırımı, Şuşa göynəyi, Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı itkisi idi. Valideynlərimiz hər dəfə o yerlərdən söhbət düşəndə necə yanğıyla danışardılar. Amma onlar heç vaxt ümidlərini itirməmişdilər, itirmirdilər də... Nə vaxtsa yurd yerlərinə qayıdacaqlarına inanırdılar. Bu inam idi onları yaşadan.





***Elə başımızda köhnə nağıllar,***
***Zaman gözləmişdik, keçib nələrdən.***
***Elə bil Şuşanı alan oğullar,***
***Çıxıb gəlmişdilər, əfsanələrdən.***



Qarabağ zəfərinə isə Azərbaycan 2016-cı ilin Aprel döyüşlərindən, 2020-ci ilin Tovuz sınağından keçərək Raquf Orucov, Polad Həşimov və silahdaşlarının şəhadətilə yol almışdı. Xalq-Ordu-Dövlət birliyinin təməli qoyuldu bu illərdə. “El bir olsa, zərbi kərən sındırar” deyən ulularımız birliyin, həmrəyliyin böyük qüvvə olduğunu çox sınamışdılar. Əvvəlki uğursuzluqlarımızın başlıca səbəblərindən biri də el birliyinə nail ola bilməməyimiz idi. Hədəf VƏTƏN – işğal altındakı QARABAĞ olanda isə MİLLƏT bir oldu, DƏMİR YUMRUĞA döndü.

Bu dəmir yumruq isə müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi düşmənin başını birdəfəlik əzdi.

44 gün ərzində bu millətin ürəyi **QARABAĞLA** döyündü, bu gün də döyünür. Gecə-gündüz qibləmiz Vətən oldu. Ali Baş Komandan, qələbənin memarı İlham Əliyevin bu günlər ərzində gərgin, çoxşaxəli və səmərəli fəaliyyəti, ordumuzun qətiyyəti,



yenilməzliyi, arxa cəbhənin vəhdəti xalqımızı Zəfərə apardı. Azərbaycan əsgəri hərb tarixində yeni igidlik salnaməsi yazdı. Şuşanın alınması dünya müharibə tarixinin ən parlaq səhifəsidir. Alınmaz qala sayılan bu şəhəri əsgərlərimiz əlbəyaxa döyüşlə, yüngül silahlarla azad etdi.

***Bu millət bir qeyrət sınağı keçdi,***
***Yazdı bu tarixə təzə adını.***
***Bu qana susamış, bu keşməkeşli, –***
***Dünyanın, sındırdı qol-qanadını.***

8 noyabr Qələbə günü kimi tarixə yazıldı. Qalibiyyətin qürurunu, Zəfərin fəxarətini yaşadı xalqımız. Dünya da Azərbaycanı qalib xalq kimi tanıdı. Hamımız böyük qürur hissi ilə zəfər paradımızı izlədik. Əzəmətli Ərdoğanın dünyaya mesajlarını da, ötkəmliyini də, Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsini və sarsılmaz qətiyyətini də gördük və duyduq. Qardaş kimi çiyin-çiyinə dayanıb yüksəklikdən boylanan qoşa türk bayraqlarının sevgisini o meydandakı ər igidlərin sevgisi ilə yoğurub ürəyimizə çəkdik. Qarşıda isə ciddi və önəmli işlər var. Görünəcək bütün həmlələrin qarşısında duracaq yeganə güc isə bizim birliyimizdir.

Qarabağ zəfərinin çox böyük və mühüm tarixi əhəmiyyəti





var. İlk olaraq ölkəmiz ərazi bütövlüyünü bərpa etdi. Düşmənlə dövlət sərhədlərimizin toxunulmazlığını Azərbaycan əsgəri qoruyur. Ali Baş Komandanın vurğuladığı kimi, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Füzuli bizimdir. Qubadlı bizimdir, Şuşa bizimdir, Qarabağ AZƏRBAYCANDIR!

Qarabağ Zəfəri həm də işğaldan azad olunan yurd yerlərimizin dirçəliş mərhələsidir. Düşmənin tarimar etdiyi şəhər və kəndlərimiz bizim necə barbar və vəhşi vandallarla mübarizə apardığımızı göstərdi. Bu zəfər eyni zamanda bölgəni erməni faşizmindən xilas etdiyimiz üçün mühüm tarixi əhəmiyyətə malikdir. Erməni ideologiyasının bəşəriyyət üçün təhlükəliliyi, mənəviyyatınınçürüklüyü , insanlıq adına ləkə olduqları təsdiqini tapdı. Dünya belə bir təhlükəli, "timsah göz yaşları" axıdan varlıqların nə kimi bəlalar törədə biləcəyini bir də gördü.




Möhtərəm Prezident İlham Əliyev Şuşanı Azərbaycanın Mədəniyyət paytaxtı elan edib. Bu qələbənin həm də tarix, mədəniyyət, turizm baxımından da mühüm önəmi var. Biz necə bir maddi-mədəni sərvət itirdiyimizi daha dərindən anladıq. İndi bu sərvəti göz bəbəyi kimi qorumaq hər birimizin borcudur. Qəhrəman əsgərlərimizin ifasında səslənən mahnılarımız da, necə bir sərvətin sahibi olduğumuzu bir daha təsdiqlədi. Bu musiqilərə baxış bucağı da dəyişdi. "Xudayar təsnifi" indi hər birim-

izin sevgi və kədərlə dinlədiyi bir mahnı olub. Vətən nəğmələşdikcə nəğmələr də vətənləşdi. Azıx mağarası, qalalarımız, digər maddi-mədəni sərvətlərimiz də əsl sahibinə çatıb. Cıdır düzü qalib əsgərin seyrangahına çevrilib. Vaqifin mavzoleyi, Üzeyirin, Natavanın, Bülbülün ev-muzeyləri erməni barbarları tərəfindən dağıdılsa da, əsl sahibləri onları bərpa edərək xalqımızın istiqfadəsinə verəcəkdir. Şuşa festivallar, poeziya, incəsənət, musiqi, heykəllər, muzeylər şəhərinə çeviriləcəkdir.

Azərbaycan beynəlxalq diplomatiyanın 30 ilə yaxın görə bilmədiyi bir işi həll etdi. BMT-nin qətnamələri neçə illər idi ki, kağız üzərində qalmışdı. ATƏT-in Minsk qrupu turistik bir qrupa çevrilmişdi – saysız-hesabsız, nəticəsiz səfərlər belə deməyə əsas verir. Fransanın Ermənistana verdiyi dəstək isə qrupun tərəfsizliyini sual altına aldı, fəaliyyətinin gərəksizliyini üzə çıxardı. Beynəlxalq qurumların Azərbaycanın haqlı davasına seyrçi münasibətini də hər birimiz gördük, şahidi olduq. Bu Zəfər həm də diplomatik bir zəfər idi. Daha doğrusu, Xeyrin Şər üzərində qələbəsi kimi əhəmiyyətli idi.

Digər vacib məsələ Qarabağ Zəfərinin dünya hərbinə yeni yanaşma gətirməsidir. Çünki bu müharibədə düşmənlərimiz savaş qanunlarına görə istifadəsinə icazə verilməyən silahlardan belə istifadə etdilər. Azərbaycan ordusu isə düşmənin yalnız hərbi məntəqələrini, silahlarını və müdafiə sistemlərini məhv etdi. Burada Ermənistanla yanaşı, həmin silahları istehsal edən ölkələr də iflasa uğradı. Yəni dünya bazarında həmin silahlara, döyüş maşınlarına və müdafiə sistemlərinə olan etibarlılıq itdi. Bu da dünya silah bazarında yeni yanaşmaların, müasir tələb və təkliflərin meydana çıxması deməkdir.

Ölkə iqtisadiyyatına Qarabağ Zəfərinin gətirdiyi üstünlüklər isə yetərincədir. Tikinti quruculuq işləri aparıldıqca Qarabağın şəhər və kəndləri simasını dəyişəcək, əhali öz yaşamı ilə bu yerləri daha da gözəl edəcəkdir.

Qayıdışla burada həyat da canlanacaqdır. Aqrar sektorun inkişafı üçün bölgədə geniş imkanlar mövcuddur. Mən Qələbəni təşnə, cadar-cadar çöllərin suyu canına çəkdikcə yaşıllaşmasına,





boz səhralardan çəmənzara çevrilməsinə bənzədərdim. Bu Zəfər sayəsində Qarabağ da dirçələcək, Şuşa əvvəlkindən də ehtişamlı olacaqdır. Bu yerlərə qalib xalq qayıdacaqdır. Bu yerlərin turizm potensialı da böyükdür. İndi hər birimiz "Cənnət Qarabağ"ı görmək arzusundayıq. Bizim kimi bu istəkdə olan o qədər xarici ölkə vətəndaşları var ki... Qarabağ zəfəri həm də iqtisadi bir qələbədir.

Azərbaycanın haqq savaşının dünyaya çatdırılması baxımından bu qələbənin informasiya yükü daha böyükdür. Məğlub ölkənin qalibə çevrilməsi prosesini izləyənlər gördülər ki, haqq nazilsə də, üzülmədi. Dünyanı haqlı davamıza inandırmaq çətin olsa da, Qələbə sayəsində bacardıq. Gəncədə, Bərdədə, digər bölgələrdə dinc əhalinin qadağan olunmuş silahlardan atəşə tutulmasına dünya birliyinin vaxtında reaksiya verməməsi də bizi ruhdan salmadı. Yazdıq, müsahibələr verdik, çəkdik, göstərdik ki, bəlkə ayılalar. Ancaq QARABAĞ ZƏFƏRİ onlara gözlənilməz cavab oldu.

Qarabağ zəfərini qazandıran hər bir şəhidin adı bu gün xalqın sevgi ünvanıdır... Unutmayaq ki, şəhid və qazilərin haqqının qorunması da bu xalqın boynunun borcudur...

***Səni yad əllərə verəmmərik ta,***<br>
***Əriyib, gözündən yağ gedib, Vətən.***<br>
***Artıb sinəndəki dağın sırası,***<br>
***Üç min həndəvəri dağ gedib, Vətən.***

Qələbənin ən böyük qazancı və qazananı VƏTƏNDİR, çünki QARABAĞ AZƏRBAYCANDIR!!!



**AYSUN ƏHMƏDOVA**
*Xəzər rayonu*
*230 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Gülmirə Əhmədova**

## İLHAM ƏLİYEV – UĞURLU DİPLOMATİYA

Müasir, müstəqil Azərbaycanın memarı və qurucusu olan ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi strategiya bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm Prezident İlham Əliyevin uğurlu diplomatik fəaliyyəti nəticəsində Azərbaycanın dünya səviyyəsində nüfuzu daha da artdı. Hazırda müstəqil dövlətimizin beynəlxalq aləmdəki mövqeləri xeyli möhkəmlənmiş, əlaqələri genişlənmişdir.

Dövlət başçımızın dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət Azərbaycanı inkişaf etmiş demokratik ölkələr sırasına çıxarıb. İndi Azərbaycan demokratik, müstəqil, azad və ərazi bütövlüyü təmin olunmuş bir ölkə kimi tanınır.

Cənab Prezident İlham Əliyev uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycanı dinamik inkişaf yoluna çıxarmış, ölkəmizin beynəlxalq miqyasda mövqelərini daha da möhkəmləndirmişdir.

Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində







son 17 ildə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir. Azərbaycan Prezidenti mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşı olan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət həyata keçirir. Digər dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmamaq Azərbaycanın başqa ölkələrlə əlaqələrində başlıca prinsipdir. Azərbaycan dilomatiyasının uğurları BMT, ATƏT, Avropa Şurası, GUAM, Avropa İttifaqı, NATO, İslam Konfransı Təşkilatı və digər nüfuzlu təşkilatlarla sıx əlaqə yaratmasına və əməkdaşlıq etməsinə imkan yaratmışdır.

Cənab prezident İlham Əliyevin mükəmməl xarici siyasət strategiyası Azərbaycanı bütün regional məsələlərdə söz sahibi olan müstəqil dövlətə çevirdi. O vaxtdan başlayaraq regiondakı hər bir strateji əhəmiyyətli layihələrin keçirilməsində Azərbaycanın rəyi mühüm rol oynayır. Möhtərəm Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə əldə edilmiş diplomatik uğurlar nəticəsində ölkəmizlə əməkdaşlıq edən demokratik dövlətlərin sayı xeyli çoxalıb. Bu gün Azərbaycanın 160 ölkə ilə




*Dünya İqtisadi Forumu*

diplomatik əlaqələri vardır. Ölkəmizdə 57 səfirlik, konsulluq və beynəlxalq təşkilatların nümayəndəlikləri fəaliyyət göstərir. Bu qədər səfirliyin 30-u 2004-2008-ci illərdə cənab İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə açılmışdır. Dövlət başçımızın təşəbbüsü və tapşırığı ilə Azərbaycan Diplomatiya Akademiyası yaradılmış və fəaliyyətə başlamışdır. Bu da müstəqil dövlətimizin xarici siyasətinin uğurla reallaşmasında böyük əhəmiyyət kəsb edir.

Azərbaycan müsəlman aləmində çox böyük hörmət, nüfuz qazanıb. İslam həmrəyliyi ilə bağlı atılan addımlar İslam Əməkdaşlıq Təşkilatı və bir çox müsəlman ölkələri tərəfindən yüksək qiymətləndirilib. Azərbaycanın həm ölkə daxilində, həm də xaricdə bu istiqamətdə həyata keçirdiyi tədbirlər İslam aləmində həmrəyliyi, əməkdaşlığı və İslam birliyini daha da möhkəmləndirir. Bununla yanaşı, ölkəmizin ev sahibliyi etdiyi, dövlət başçımızın təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər – VI Bakı Beynəlxalq Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının İclası və





s. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəldib. 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəddə bir çox məsələlər öz əksini tapmaqla yanaşı, Azərbaycanın suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Həmçinin, 2018-ci il iyulun 11-12-də Brüsseldə NATO zirvə görüşünün yekun bəyannaməsində də Alyans üzvlərinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək və hörməti öz əksini tapmışdır. Onlar regiondakı mövcud münaqişələrin məhz bu prinsip əsasında həll olunmasının zəruriliyini bildiriblər.




*İlham Əliyevin Avropa Parlament Assambleyasında çıxışı*

Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınmış, onun beynəlxalq nüfuzu getdikcə yüksəlmişdir. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərakatına üzv qəbul edilmişdir.

2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür.

2015-ci ildə Azərbaycan ilk dəfə Avropa oyunlarına ev sahibliyi etmişdir. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında isə Azərbaycan komanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən isə Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən cox olan "Formula-1" yarışları təşkil edilir. Əslində, Azərbaycana gələn hər bir şəxs mötəbər beynəlxalq təşkilatların hesabat və reytinqləri ilə tanış olmasa




*İlham Əliyevin NATO görüşü*

belə, təkcə paytaxt Bakı şəhərinə nəzər salmaqla son 17 ildə böyük bir sıçrayışın baş verdiyinə əmin olar.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycan diplomatiyasının ən zəruri vəzifələrindən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərimizin toxunulmazlığı əsasında öz həllini tapması olmuşdur. Möhtərəm Prezidentimizin siyasi iradə nümayiş etdirməsi və məntiqli xarici siyasəti nəticəsində ölkəmizin mövqeyi nüfuzlu beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən daha çox qəbul edilir.








*Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammiti*

İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqe ifadə etmişdir: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar". 2003-2020-ci illərdə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuşdur. Ermənistanın işğalçılıq siyasətinin, Dağlıq Qarabağ münaqişəsinin dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin xalqa müraciətlərinin, müsahibələrinin, nitq və çıxışlarının xüsusi əhəmiyyəti vardır. Məhz uzaqgörən dövlət xadimimizin, müdrik diplomatımızın uğurlu siyasətinin nəticəsidir ki, 27 sentyabr-10 noyabr 2020-ci il tarixlərində baş verən 44 günlük müharibədə xalqımız qələbə qazandı, itirilmiş torpaqlarımız geri qaytarıldı,

erməni terrorçuları tərəfindən qəsb edilən Qarabağımızın azad edilməsilə Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu qələbə Ali Baş Komandanımızın, müzəffər Azərbaycan ordusunun və həmişə dövlətimizin düzgün siyasətini dəstəkləyən Azərbaycan xalqının qələbəsi idi. Prezident İlham Əliyev müharibənin gedişatında dəfələrlə xarici media nümayəndələri ilə görüşlər keçirdi. Bu çıxışlar ölkə başçısının beynəlxalq arenada, diplomatik görüşlərdə səsləndirdiyi fikirlərin məntiqi davamı, dəyişməz mövqeyinin təsdiqidir. Dövlət başçısı "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında, həmçinin, "Əl-Cəzirə", "Əl-Ərəbiyyə", Türkiyənin "TRT Haber", "CNN-Türk" televiziya kanallarında yayımlanan müsahibələrində Azərbaycanın konstruktiv mövqeyini bir daha ifadə edərək torpaqların işğal faktı ilə heç zaman barışmayacağımızı, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın beynəlxalq ictimaiyyəti tərəfindən tanınan ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll oluna biləcəyini xüsusi qeyd etmişdir.

Dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 17 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafında qazanılan nailiyyətdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və daha böyük qələbələrə aparacaq.





**LEYLA NƏSİBOVA**
*Xətai rayonu*
*263 nömrəli tam orta məktəbin*
*IX sinif şagirdi*
**Elmi rəhbər: Çiçək Əliyeva**



## VƏTƏN MÜHARİBƏSİ – QARABAĞIN AZAD OLUNMASI

Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasında baş vermiş II Qarabağ müharibəsi atəşkəsdən sonra müşahidə olunan ən gərgin və uzunmüddətli müharibədir.

Birinci Qarabağ müharibəsi nəticəsində öz torpaqlarının 20 faizini itirən Azərbaycan Respublikası, əsasən, 1994-cü ildə imzalanmış Bişkek protokolundan sonra Ermənistan ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qərarlarının icra olunması üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar apardı. Beynəxalq təşkilatların sülh platformaları ilə yanaşı, Azərbaycan region ölkələrinin də münaqişənin həlli istiqamətindəki təşəbbüslərində yaxından iştirak edirdi. Lakin Ermənistan mütəmadi olaraq, düşünülmüş şəkildə bütün danışıqları pozur, münaqişənin sülh yolu ilə həllinə mane olurdu.

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zo-



nada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilir. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilmişdir. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir.

Başlanğıcda bir sıra kəndləri və strateji məntəqələri, körpüləri işğaldan azad etdikdən sonra Azərbaycan Silahlı Qüvvələri oktyabrın 22-də Qarabağın İranla cənub sərhədini tamamilə azad etdi və 23 oktyabrda Laçın dəhlizinə doğru irəliləməyə başladı. Laçın dəhlizi Qarabağdakı qondarma qurumla Ermənistanı birləşdirən yeganə böyük (digərləri ilə müqayisədə) magistral





yol idi. Ən yaxın coğrafi yeniləmələr göstərirdi ki, həmin gün Azərbaycan qüvvələri Laçın magistral yolunu kəsmək üçün yalnız 10 km məsafədə idi. Magistral yola nəzarət Ermənistandan yanacaq, döyüş sursatı və hərbi möhkəmlətmə ehtiyatlarının qarşısını alacaqdı. Azərbaycan ənənəvi olaraq gün ərzində hərbi birləşmələrin qarşısını almaq üçün artilleriya, minaatan və hətta birbaşa atəş və ya idarə olunan raketlərlə Ermənistan ordusuna zərbələr endirirdi.





Hər bir kəndin, şəhər və qəsəbəmizin işğaldan azad edilməsi xəbərini Ali Baş Komandanın dilindən eşidirdik. Hər gün bu xəbərləri səbirsizliklə gözləyirdik. Açıqlanan şad xəbərlərin arxasında hansı əziyyətlərin, necə böyük zəhmət və mübarizənin durduğu, bu qalibiyyətin nələrin hesabına başa gəlməsinin hər kəs fərqində idi. Düşmənin uzun illər işğal altında saxladığı, müqəddəs ruhlarımızın uyuduğu torpaq uğrunda aparılan, sonu qələbə ilə bitən bu mübarizə hər bir azərbaycanlını hədsiz dərəcədə sevindirib. Rəşadətli Ordumuzun apardığı hərbi əməliyyatlar zamanı düşmənə məxsus olan texnikaların və canlı qüvvənin məhv edilməsi ilə bağlı Müdafiə Nazirliyinin yaydığı rəsmi kadrlar hər bir vətəndaşımız tərəfindən böyük qürur hissi ilə izlənilib.

Müharibənin ilk günlərindən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqe, beynəlxalq mediaya verilən sərrast və dürüst açıqlamalar, Ordumuzun göstərdiyi şücaət, üstün döyüş qabiliyyəti artıq erməni xalqının iradəsini sındırmışdı.

Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən noyabrın 10-u Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermə-



nistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən nəqliyyat kommunikasiyalarının açılmasını nəzərdə tutan bəyannamə imzalandı.

Danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan razılaşma variantlarının Azərbaycan üçün ən sərfəli variantı







belə, hazırda ölkəmizin əldə etdiyi üstünlüklə müqayisə edilə bilməz. 30 illik sülh danışıqları prosesində hər vəchlə Ermənistanın maraqlarının təmin edilməsinə cəhdlər olunurdu, Azərbaycan Silahlı Qüvvələri keçmiş DQMV-yə, o cümlədən Şuşa şəhərinə, ümumiyyətlə, yaxın buraxılmırdı. Azərbaycan Prezidenti yeni reallıq yaratdı, hazırda Şuşa şəhəri daxil olmaqla, Dağlıq Qarabağ Azərbaycan Ordusunun nəzarətindədir.

Ermənistanın bu müharibədə itkiləri yalnız çoxsaylı döyüş texnikasının və canlı qüvvəsinin məhv edilməsindən ibarət olmayıb. Azərbaycanın Dövlət-Ordu-Xalq Birliyinin gücü, savaş meydanında qəhrəmanlıq dastanı yazan oğul və qızlarının şücaəti düşmənin dünyada 30 ildə yaratmağa cəhd etdiyi mifi 44 gündə alt-üst elədi. Danışıqlar prosesində istədikləri şərtlərin hər birini sıfırladı... Biz artıq Qalib Azərbaycanın vətəndaşlarıyıq! Müharibədə güc göstərən Qalib Ordunun sahibləriyik! Bununla nə qədər fəxr etsək, azdır. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!



**ELVİN MƏLİKOV**
*Nərimanov rayonu*
*177 nömrəli tam orta məktəbin*
*IX sinif şagirdi*
**Elmi rəhbər: Vətanə Zeynalova**

## BÖYÜK ZƏFƏRİN QAZANILMASINDA ALİ BAŞ KOMANDANIN HƏYATA KEÇİRDİYİ HƏRBİ STRATEGİYA

Ölkəmizin Dağlıq Qarabağ və ətraf ərazilərində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisəsidir.

Qazanılmış bu böyük Zəfər Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. Ona görə də bu müharibə haqlı olaraq xarakteri etibarilə Vətən müharibəsi adlandırılır. Qarabağ Zəfərinin qalibləri cənab Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, müzəffər Azərbaycan Ordusu və ümumən Azərbaycan xalqıdır.

Prezident İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət Dağlıq Qarabağda böyük Qələbəyə aparan yolun ən mühüm nəticələrindəndir. Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar: şəxsi





heyət arasında hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, ordumuzun ən müasir hərbi texnika ilə silahlandırılması, yüksək ixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması Azərbaycana regionda ən güclü orduya sahib olmaq imkanı qazandırmışdır. Dövlət başçımızın fərmanı ilə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin yaradılması Böyük Zəfərin qazanılması yolunda atılmış əhəmiyyətli addımlardan biridir.



Hələ on il bundan qabaq Azərbaycan Respublikasının dövlət büdcəsində ordu quruculuğuna, hərbi xərclərə ayrılan vəsaitin Ermənistan Respublikasının ümumi büdcəsindən çox olması sülh və danışıqlar yolu ilə yanaşı, zərurət yarandığı təqdirdə müharibə versiyasının işə salınmasına dövlət səviyyəsində aparılan hazırlıqların mühüm göstəricilərindən biri idi. Buna görə də hələ neçə illər bundan qabaq ən nüfuzlu beynəlxalq hərbi ekspertlər Azərbaycan Ordusunu bütün əsas göstəricilərinə görə dünyanın ən güclü əlli ordusundan biri hesab etmişdilər.

Ali Baş Komandan cənab İlham Əliyev bundan əvvəl 2016-cı ildə Lələtəpədə və 2018-ci ildə Naxçıvanda uğurlu döyüş əməliyyatlarına rəhbərlik edərək torpaqlarımızın bir hissəsini düşməndən azad etməyə nail olmaqla sonralar başlayacağı Vətən müharibəsinin hazırlıqlarını keçdi. Cəbhədəki uğurlu Lələtəpə və Naxçıvan əməliyyatları və Çocuq Mərcanlı qəsəbəsinin bərpası, vaxtilə Ulu öndər Heydər Əliyevin Horadizi düşməndən xilas edərək təmas xəttində normal həyatın bərqərar olunmasını təmin etməsi qədər mühüm əhəmiyyətə malik hadisə idi.



Bu qələbə ölkəmizin gələcəyi üçün böyük və mühüm hadisə oldu. Ordumuzun bütün istiqamətlərdə apardığı əməliyyatlar digər ölkələrin də diqqətini cəlb etdi. Azərbaycan Ordusu qısa zamanda düşmənin qalib ordu və dövlət mifini qıraraq irəliləməyə nail oldu. Cənab Prezident hərbi əməliyyatlara beynəlxalq səviyyədə ola biləcək müdaxilə və maneələri aradan qaldırmaq üçün siyasi iradə göstərdi, bu riskləri minimuma endirməyə nail oldu. Ordumuzun XXI əsrin tələblərinə uyğun olan yeni müharibə üsulu seçdi.








Müharibə sentyabrın 27-də təmas xətti boyu Murov dağı, ermənilərin nəzarətində olan Talış və Madagiz (Suqovuşan) kəndlərində, həmçinin, Cəbrayıl və Füzuli rayonlarında düşmənin təxribatından sonra başladı. Ali Baş Komandan tərəfindən qurulan hərbi strategiya qoyulan məqsədə tez bir zamanda və minimum itki ilə çatmağa yönəlmişdir. Ali Baş Komandan döyüş əməliyyatlarına bilavasitə özü şəxsən rəhbərlik edir, gündəlik döyüş əməliyyatlarının planını təsdiq edirdi.

Şimalda general-mayor Hikmət Həsənovun komandanlığı, cənubda – general-leytenant Hikmət Mirzəyev və general-mayor Mais Bərxudarovun rəhbərliyi altında iki ordu qrupu döyüşürdü.

Bir neçə gün sonra Hadrut azad edildi – bu, Dağlıq Qarabağ ərazisindəki ilk rayon mərkəzi olmaqla, Azərbaycan bölmələrinin hərəkət istiqamətində yerləşən və gələcək strateji ərazilərin azad edilməsində ən böyük maneə idi.

Hadrutun alınması ilə vəziyyət dəyişdi – Azərbaycan qoşunları daha intensiv irəliləməyə, ermənilər isə geri çəkilməyə başladı.

Azərbaycan qüvvələri əsasən cənubda, Ermənistan-İran sərhədi boyunca irəlilədilər. Cəbrayıl və Hadrutdan sonra Azərbaycan Füzuli, Zəngilan, Qubadlı üzərində də nəzarəti ələ keçirdi. Bu hücumun hədəfləri Şuşa ilə Laçın şəhərləri idi.

Bütün bu uğurlar ən müasir döyüş texnikalarının tətbiq edildiyi, yeni taktiki planların həyata keçirildiyi və unikal komandanlıq qabiliyyətinin ortaya qoyulduğu savaşın nəticəsi idi.

Sentyabrın sonu, oktyabrın əvvəlində, hərbi əməliyyatının ilk mərhələsində Azərbaycanın bu strateji şəhəri azad edə biləcəyini və Ermənistanı faktiki olaraq sülhə məcbur edəcəyini təsəvvür etmək çətin idi.

Şuşa uğrundakı hərbi əməliyyatlar kifayət qədər unikal idi. Şuşaya qədərki döyüşlər Azərbaycanın müasir silahları tətbiq etməklə uğur əldə etdiyi fikrini yaradırdısa, ordumuzun Şuşa uğrunda apardığı savaş heç bir ağır silah və texnika işlətmədən, yalnız yüngül silahlarla ortaya qoyduğu misilsiz şücaət və qəhrəmanlığın bariz nümunəsi oldu. Bu idi qəhrəman ordumuzun vətənpərvərliyi, rəşadəti və dastanlara çevrilən cəsarət əzmi. Məhz ordumuzdakı döyüş hazırlığı, kadrların bilik və bacarıq potensialı bu savaşın qazanılmasında özünü bir daha sübut etdi.

İstər Füzuli, Cəbrayıl, istər Hadrut, istərsə də Şuşa əməliyyatları müasir hərb tarixində tam yeni bir reallıq ortaya qoydu. Müasir dünya hərb sənətinə, aparıcı ölkələrin ordu quruculuğuna yeni yanaşmanın yaranmasına səbəb oldu. Azərbaycan ordusunun ən böyük uğuru və nailiyyəti məhz bu idi.

10 noyabr 2020-ci il tarixli razılaşma sənədi ilə regionda qarşıdurmalara və müharibəyə son qoyuldu, düşmən təcavüzünü, Azərbaycan xalqına qarşı edilmiş böyük ədalətsizliklər aradan qaldırıldı. Razılaşma sənədindəki müddəalara əsasən, müharibənin dayandırılması, qəhrəman Azərbaycan əsgərinin əzmi ilə azad edilmiş ərazilərdən başqa, işğal olunmuş Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüşsüz, şəhid verilmədən geri qaytarılması mühüm diplomatik qələbə və böyük tarixi hadisədir.





**ÜLVİ HÜSEYNZADƏ**
*Səbail rayonu*
*7 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*
**Elmi rəhbər: Elmira İbrahimova**



## ŞUŞA ŞƏHƏRİ – AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI

Mən Rəşid Behbudov adına 2 nömrəli 11 illik musiqi məktəbində tar üzrə təhsil alıram. Bir neçə il öncə məktəb rəhbərliyi Üzeyir bəyin Ev-muzeyində ifa etməli olduğumu söylədi. Çıxışımdan öncə Üzeyir bəy haqqında olan xatirələr kitabını oxumuş, həmçinin, ev-muzeyində də onun haqqında kifayət qədər dərin məlumatlar əldə etmişdim. Ondan sonra "Şuşa" dedikdə ağlıma onun eynəyi gəlirdi. Sanki Şuşaya onun gözü ilə baxırdım. O eynək mənim üçün ziyalılıq, alicənablıq, kübarlıq simvoludur.

Ali Baş Komandanımız cənab İlham Əliyevin "Şuşasız bizim mübarizəmiz yarımçıq olar, çünki bu bizim milli qürur məsələmizdir" deməsi Şuşanı təkcə gənc musiqiçi kimi yox, bir vətəndaş kimi araşdırmağıma səbəb oldu.

Şuşanı Üzeyir bəyin bəstələrində, Natəvanın, Fatma xanım Kəminənin qəzəllərində, Cabbarın, Xanın nəfəsində duydum. Vətən müharibəsi başlayanda, Müzəffər ordumuz ard-arda torpaqlarımızı azad etdikcə bu sehrə hər gün daha çox yaxın olduğumuzun fərqinə varırdım.




*Şuşa qalası (işğaldan öncə)*

Şuşa istər yerləşdiyi coğrafi mövqe, istərsə də tarixi və mədəni imkanlarından dolayı Azərbaycan dövləti üçün olduqca strateji əhəmiyyətə malikdir. Çünki Şuşa sadəcə coğrafi baxımdan, Azərbaycanın Dağlıq Qarabağ üzərində suveren hüququnu nümayiş etdirən əsas yaşayış məntəqəsi kimi strateji əhəmiyyət kəsb edən bir yer deyil. Şuşa həm də Azərbaycan mədəniyyətinin beşiyi, bir çox görkəmli sənətkarların, musiqiçi, memar, rəs-



*Şuşa qalası*





sam və ədiblərin, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərin yetişdiyi bir yerdir.

Əslində, torpaqlarımızı azad etmək uğrunda mübarizəmizi konkret olaraq müharibə adlandırmaq düzgün deyil, bu, sülhə məcbur etmə əməliyyatı idi. Əməliyyatın ən əsas məqsədlərindən biri Şuşaya qovuşmaq idisə, aydındır ki, bu həm də sülhə qovuşmaq istəyi idi. Bir dövlətin, xalqın varlığının mədəniyyətdən başladığını nəzərə alsaq, sülhü təmin etməyin ən aşkar yolu da mədəniyyəti xilas etməkdir. Müzəffər ordumuz Şuşanı işğaldan azad etməklə mədəniyyətimizi və ümumiyyətlə, mədəniyyət anlayışını xilas edib.

"Qafqazın konservatoriyası" adlanan Şuşa çox keçmiş zamanlardan nəinki Azərbaycanın, regionun mədəniyyət beşiyi olub. Şuşa mühiti, şuşalıların həyata baxışı bizə dünya tarixinə nəzər salarkən qürurla adını çəkə biləcəyimiz şəxsiyyətlər və xatırlamağa borclu olduğumuz məqamlar bəxş edib.

İnsanları mədəniyyətin birləşdirməsini, əksər cəmiyyətlər üçün də mədəniyyətin musiqidən başlamasını nəzərə alaraq dünya musiqi tarixinə nəzər salmaq istərdim. Dünya musiqi tarixinin ən mühüm səhifələrində Azərbaycanın qeyri-adi, saf və novator ideyalı musiqi ənənələrinin dayanması Şuşa mühitinin yetirdiyi şəxsiyyətlər sayəsində olub. İlk növbədə, sırf xalq musiqimizin intonasiyaları əsasında Azərbaycan klassik musiqisinin əsasını qoyan Üzeyir Hacıbəylinin bütün yaratdıqlarını heç bir ali musiqi təhsili olmadan ərsəyə gətirdiyinə, boya-başa çatdığı məkandan, bu yerin insanlarından ilham aldığını nəzərə alsaq, Şuşa və bu şəhərin mühitinin nəinki Azərbaycan, dünya miqyasında nə qədər önəmli olması bir daha təs-



*Üzeyir Hacıbəyli*

diqlənir.

Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətini inkişaf etdirməklə, öz həmvətənlərinin ağıllarına, hiss və duyğular aləminə nəcib təsir göstərmişlər. Bu yerlərin təbiətindən keçib gələn, ruhu oxşayan həmin gözəllikdir ki, nadir musiqi mədəniyyətində öz əksini tapmışdır. Qarabağ muğam məktəbinin rəmzinə çevrilən məşhur "Qarabağ şikəstəsi" buna bariz nümunədir.



*Mirzə Sadıq (Sadıqcan)*

Mədəniyyət beşiyi olan bu şəhərin ab-havası məşhur yazıçı Aleksandr Dümanın "Qafqaz səfəri" əsərində də öz əksini tapmışdır. Kitabda bu yerlərin gözəlliyindən, Azərbaycan xalqının qonaqpərvərliyindən, Qarabağ xanlığından, o dövrün tanınmış şairi Natəvandan və s. bəhs edilir.

Şuşanı haqlı olaraq həmişə "Şərqin musiqi konservatoriyası" adlandırıblar. Məşhur müğənniləri dinləmək və ya ifaçılıq dərsi almaq üçün hər yerdən bura musiqi həvəskarları axışıb gəlirdilər. Lakin bu şəhər təkcə musiqiçiləri ilə şöhrət qazanmamışdır. Əsrarəngiz təbiət amili, saf, dupduru bulaqlar bu yerlərin şöhrətini daha da artırırdı. Bu diyarın ən məşhur bulağı olan İsa bulağını isə çoxları Şuşanın rəmzi hesab edirlər.

Dövrünün birinci tarzəni hesab olunan Mirzə Sadıq da Şuşa yetirməsi idi. O, dünya musiqi tarixinə Azərbaycan tarı anlayışını gətirdi, ənənələrimizin digər xalqların ənənələrindən asılı olmasının qarşısını aldı, bu gün Azərbaycanı dünyanın dörd bir yanında təmsil edən tarzənlərimizin tarı səs tembrinə və virtuoz imkanlarına görə analoqu olmayan bir alət kimi təqdim et-







*Bülbülün heykəli Şuşada*

mələrinə şərait yaratdı. Tar ifaçılıq sənəti və onun hazırlanma ustalığı, eyni zamanda Azərbaycan muğamının UNESCO-nun qeyri-maddi mədəni irs siyahısında qorunması onun apardığı təkmilləşdirmə proseslərinin nəticəsidir.

Şuşanın abidələr şəhəri olduğunu söyləyən Ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Əbəs yerə Azərbaycanın mədəniyyət və incəsənət beşiyi sayılan Şuşanı "Qarabağın döyünən qəlbi" adlandırmırlar. Şuşa qalası və bir vaxtlar öz möhtəşəmliyi ilə seçilən Yuxarı Gövhər ağa məscidi burada yerləşir.

Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir.

Şuşa Azərbaycan üçün milli qürurdur, milli mənlikdir, mədəniyyətdir, incəsənətdir, tarixdir. Rəşadətli ordumuzun Şuşaya bayraq sancması və bu xəbərin müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən xalqa çatdırılması 28 ildən sonra



*Aşağı Gövhər ağa məscidi (İşğaldan sonra)*

milli qürurumuzun, mənliyimizin, mədəniyyətimizin, incəsənətimizin, tariximizin də azad edilməsini, hətta yeni yüksəliş mərhələsinə daxil olmasını sübut etdi. Şuşanın azadlığı ordumuzun gücünün, xalqımızın birliyinin, Ali Baş Komandanımızın sərkərdəlik qabiliyyətinin təzahürüdür. Bu zəfər faktiki olaraq müharibənin taleyinin həllində önəmli rol oynadı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq" cümlələri Azərbaycanın son yüz illik tarixinin ən möhtəşəm müjdəsidir. Qələbə xəbərinin elan edilməsindən öncə dövlət başçısının Ümummilli lider Heydər Əliyevin ruhu önündə nümayiş etdirdiyi ehtiram, məhz Ulu öndərin vəsiyyətini yerinə yetirdiyini deməsi Azərbaycanın həm də dövlətçilik prinsiplərinə sahib olduğunu göstərdi. Strateji əhəmiyyətli məsələlərlə bağlı vəsiyyətlərin mövcudluğu və yerinə yetirilməsi yalnız oturuşmuş dövlətçilik ənənəsinə malik olan dövlətlərdə müşahidə edilə bilər.

28 il 6 ay ərzində Şuşada mədəniyyət soyqırımı həyata keçirən düşmən bəşəri cinayət yolunu tutaraq bu mühiti məhv etməyə çalışdı. Lakin, artıq Şuşa azaddır. İlk sakinləri də müharibənin qurbanları – güllələnmiş heykəllər oldu. Üzeyir bəyin, Natəvanın, Bülbülün heykəlləri. Artıq Şuşa mühiti azaddır! Deməli, qarşıdakı illərdə yeni üzeyirləri, natəvanları, mirzə sadıqları və saysız dahi insanları dünyaya təqdim edəcəyik.





**SƏMƏD ŞAMİLOV**
*Qaradağ rayonu*
*110 nömrəli tam orta məktəbin*
*IX sinif şagirdi*
**Elmi rəhbər: Şəfa Seyidova**



# VƏTƏN MÜHARİBƏSİNDƏ BÖYÜK QƏLƏBƏNİN ƏLDƏ EDİLMƏSİNDƏ İQTİSADİ VƏ SİYASİ AMİLİN ROLU

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı və rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinə 44 gün ərzində son qoydu. Ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsi adlandırdığımız ikinci Qarabağ savaşı noyabrın 10-na keçən gecə tarixi Qələbə ilə sona çatdı. Təcavüzkar Ermənistan sarsıdıcı məğlubiyyətə uğradıldı. İşğalçı dövlətin başçısı 10 noyabr bəyanatını imzalamaqla ölkəsinin acı məğlubiyyətini, təslim olduğunu etiraf etmək məcburiyyətində qaldı.

Vətən müharibəsində əldə etdiyimiz qələbənin təməlində iqtisadi cəhətdən güclü Azərbaycan dövləti dayanır. 1993-cü ildə Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan stabil inkişaf və quruculuq mərhələsinə qədəm qoydu. Demək olar ki, bütün sahələrdə tənəzzül aradan qaldırılmağa başlandı və aparılan məqsədyönlü addımlar nəticəsində müsbət nəticələrə nail olundu.




Ən əsası Azərbaycan insanında, Azərbaycan vətəndaşında özünə, sabahına, gələcəyinə, dövlətinə güclü inam hissi yaranmağa, ümidlər közərməyə, alovlanmağa başladı. Təcrübəli dövlət xadimi Heydər Əliyev qəti əmin oldu ki, ağır vəziyyətdə olan respublika iqtisadiyyatını dirçəltmək, ölkənin dünyaya inteqrasiyasında iştirakını canlandırmaq üçün ən sanballı mənbə neft amili ola bilər. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Respublikaya güclü investisiya axını başlandı. Azərbaycan İqtisadiyyatı, ilk növbədə, onun neft sektoru beynəlxalq biznes həyatına qoşuldu. Artıq 1996-cı ildə iqtisadiyyatda tənəzzül meyillərinin qarşısı alındı. Bütün bunlar yaranmış xaosa, ümidsizliyə sarsıdıcı zərbə, dinamik iqtisadi həyata, onun dirçəlməsinə aparan qələbə idi.

Azərbaycan neftinin, qazının dünya bazarlarına çıxarılmasını təmin edən Bakı-Novorossiysk, Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzrum, TANAP neft-qaz boru kəmərləri ölkəmizin dünya neft siyasətində özünəməxsus yer tutmasına imkan yaratdı. Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında yeni saziş imzalandı. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin səhərisi günü, may ayının 29-da Səngəçal Terminalında Azərbaycan dövləti və xalqının tarixində daha bir mühüm hadisə baş verdi. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas aktyorlardan birinə çevrilən ölkəmizdə böyük önəmə malik olan Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu.





Ölkəmizin Qədim İpək Yolu dəhlizində fəal iştirakı, Bakı-Ələt Dəniz Limanının, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Ələtdə xüsusi iqtisadi zonanın yaradılması Azərbaycanın dünyanın mühüm nəqliyyat dəhlizinə çevrilməsi imkanlarını reallaşdırdı. Vətən müharibəsində qələbəmiz, Naxçıvanın nəqliyyat blokadasından azad olunması ölkəmizin nəqliyyat-ticarət əlaqələrinin inkişafında yeni bir mərhələnin başlanğıcından xəbər verir.




***Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən sessiya***

Ümumiyyətlə, son 20 ildə Azərbaycan iqtisadiyyatına 260 milyard dollardan çox vəsait qoyulmuşdur. Azərbaycanda uğurla sənayeləşmə siyasəti həyata keçirilir.

Dövlət başçısı cənab İlham Əliyevin cəmiyyətimiz üçün müstəsna əhəmiyyət kəsb edən aşağıdakı fikirlərini qeyd etmək yerinə düşərdi: "Bizim büdcəmiz və siyasətimiz sosialyönümlüdür. Azərbaycanda həm bazar iqtisadiyyatı prinsipinə sadiqlik özünü göstərir, eyni zamanda, sosial məsələlərin həllinə də böyük diqqət yetirilir. Əhalinin sosial müdafiəsi məsələləri ön planda olmalıdır. Müxtəlif sosial proqramların həyata keçirilməsi, müxtəlif təşəbbüslərin başlanması bu məqsədi daşıyır".






*Azərbaycanın istehsal etdiyi müasir silahlar*

Son illərdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən kompleks sosial-iqtisadi islahatlar, xalq-iqtidar birliyi, beynəlxalq nüfuzumuzun artması, beynəlxalq arenadakı fəaliyyətimiz, ordu quruculuğu sahəsində həyata keçirilən mühüm tədbirlər təbii ki, bu qələbəmizi şərtləndirdi. İqtisadi gücümüz qələbəni əldə etmək potensialımızı təmin etdi. Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. İqtisadi müstəqilliyimiz və gücümüz ordumuzu gücləndirmək üçün imkan yaradıb. Ordu üçün lazım olan zəruri hərbi texnikanı, silahları alsaqda, Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradıldıqdan sonra ordumuzun tələbatının bir hissəsini daxili istehsal hesabına təmin etməyə başladıq.





Ötən il bütün istiqamətlərdə Azərbaycan Respublikası üçün uğurlu olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə başlamış genişmiqyaslı xarakter daşıyan islahatlar respublikada yüksək dayanıqlı iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşkili üçün zəmin yaratdı. İslahatlarla qarşıya qoyulan hər bir vəzifənin, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması isə xalq-iqtidar birliyini daha da möhkəmləndirdi, əhalinin Prezident İlham Əliyev ətrafında daha sıx birləşməsini təmin etdi. Dövlət başçısının rəhbərliyi ilə gerçəkləşdirilən mükəmməl sosial-iqtisadi inkişaf strategiyası nəticəsində islahatların davamlılığı təmin edildi və iqtisadi inkişafın sürətləndirilməsi nəticəsində əhalinin rifahı daha da yaxşılaşdı.

Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən Lider kimi xalqımızın böyük rəğbətini qazanmışdır. Onun dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Prezident İlham Əliyev təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur.

Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət yürüdür. O, ictimaiyyətin nümayəndələri ilə mütəmadi olaraq birbaşa təmaslar yaradır, onları narahat edən, düşündürən məsələlərə böyük həssaslıqla yanaşır. Bütün bunlar xalqla siyasi lider, Ali Baş Komandan İlham Əliyev arasında qırılmaz bağlar yaratmışdır ki, böyük qələbənin qazanılmasında bu, mühüm rol oynamışdır.



**NİCAT KƏRİMOV**
*Pirallahı rayonu*
*243 nömrəli tam orta məktəbin*
*XI sinif şagirdi*
**Elmi rəhbər: Tükəzban Qurbanova**

## AZAD EDİLMİŞ TORPAQLARDA ERMƏNİ VANDALİZMİNİN İZLƏRİ

XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğal edilməsindən və ermənilərin zaman-zaman Şimali Azərbaycan ərazilərinə köçürülməsindən sonra azərbaycanlıların deportasiyası və soyqırımı başlanmışdır. Gəlmə ermənilər azərbaycanlılara məxsus ərazilərdə məskunlaşdıqdan sonra bizə məxsus maddi-mədəniyyət nümunələrini məhv etməklə izlərimizi silməyə çalışmış, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət nümunələrinin "qədim ermənilər"ə aid olmaları barədə saxta tarix yazaraq dünya ictimaiyyətini aldatmağa başlamışlar.

1991-1994-cü illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan və Cəbrayıl) işğal edilmişdir.

Erməni işğalçıları tərəfindən talan edilmiş regionun muzeylərində Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəssamlıq və mədəniyyət əsərləri, dünya şöhrətli xalçalar, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları







*Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa məscidində*

və digər qiymətli materiallar toplanmışdı. İşğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektləri xüsusi qəddarlıqla məhv edilmişdir. Ələ keçirdikləri ərazilərdə 12 muzey, 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray qarət edilmiş və yandırılmışdır. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuşdur. İşğal olunmuş ərazilərdə qalan 152 ibadət yeri, məbəd, o cümlədən 62 məscid erməni təcavüzünün qurbanına çevrilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazma nümunələri məhv edilmişdir.

Ermənistan uzun illər ərzində öz ordusu haqqında miflər yaradırdı. Bu gün dövlət başçısının Ali Baş Komandanlığı altında milli ordumuzun parlaq qələbələri bu mifi alt-üst etdi və düşmən torpaqlarımızdan qovuldu. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə və birmənalı şəkildə bəyan edib: "Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaradılsın". Müzəffər ordumuzun düşməndən təmizlədiyi ərazilərimizdən yeni görüntülər yayıldıqca faşist xislətli ermənilərin 30 ilə yaxın dövr ərzində bu torpaqlarda törətdikləri dağıntıların miqyasını daha aydın təsəvvür etmək olur.

İşğaldan azad olunmuş torpaqlara səfər edən Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu məqamlara xüsusi diqqət yönəltdilər. Azərbaycan Pre-

zidenti düşməndən təmizlənmiş ərazilərdəki müşahidələrini belə ifadə etdi: «Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmi-



***Xarabalığa çevrilmiş Ağdam şəhəri***

şik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın".

Şuşa, Ağdam, Füzuli Cəbrayıl, Zəngilan və Qubadlı şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə viran və talan edilmişdir. Laçın və Kəlbəcər şəhərlərində Ermənistandan və xaricdən köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdır. Ağdam və Füzuli şəhərlərinin bugünkü görünüşləri 1945-ci ildə atom bombası ilə dağıdılan Xirosima və Naqasaki şəhərlərini xatırladır.

Açığını deyək ki, Ermənistanın qeyri-qanuni şəkildə Kəlbəcərdə məskunlaşdırdığı və indi münaqişənin həlli ilə bağlı razılaşmaya uyğun olaraq rayondan çıxmalı olan ermənilərin biabırçı hərəkətlərini görəndən sonra daha belə dağıdıcı əməllərə təəccüblənmək də olmur. Kəlbəcərdə ona məxsus olmayan evin quru divarlarına od vuran, meşələri yandıran, işıq dirəklərini sökən və başqa ağlasığmaz vəhşiliklər edən ermənilər bununla öz çirkin xislətlərini büruzə verirlər. Hərbi əməliyyatlar başlayana qədər sıravi şəxslər öz gündəlik həyatlarını yaşayıblar. Onlar zəhmət adamı cildində təsərrüfatla, heyvandarlıqla, əkinçiliklə, müəllimliklə





məşğul olublar. Bununla belə yenə də xarakteri gizlətmək olmur. An yetişən kimi daxildəki vandallıq, dağıdıcılıq xisləti üzə çıxır.

Məktəbi yandıran müəllim... Bunu təsəvvür etmək belə ağlasığmazdır. Bu ağlasığmaz hərəkətlər yalnız ermənilərə məxsus ola bilər. Bunları tarixdən oxuya-oxuya, eşidə-eşidə, görə-görə gəlmişik. Belə bədnam əməlləri özünə rəva görən xalqın heç bir ciddi gələcəyi ola bilməz. Özünə hörmət edən heç bir müəllim bu cür dağıdıcı bir xalqa mənsubluğundan qürur duymaz. Əlbəttə, biz erməni ziyalılarından baş verənlərlə bağlı ədalətli münasibət gözləmirik. Zatən, məqam çatanda onlarla Kəlbəcərdə məktəbi yandıran məktəb direktoru, evin dam örtüyünü söküb aparan, meşəyə od vuran başqa soydaşları arasında heç bir fərq qalmır. Amma bu xalq, nəhayət ki, tutduğu yola diqqət yetirməlidir. Tarix boyu yol verdiyi yanlışlardan, özünə rəva bildiyi vəhşiliklərdən nəticə çıxarmalıdır.



***Yandırılmış və xarabalığa çevrilmiş məscidlər***

Bu mənfur millət Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədini güdüb. Bu torpaqlarda bütün milli izlərimizi silməyə çalışıblar. «Cəbrayıl şəhərinə gedən yolun ətrafı da eyni vəziyyətdədir. Budur erməni işğalçılarının çirkin üzü. Bu, erməni vandallarının əsl mahiyyətini ortaya qoyur, onların kimliyini göstərir" – deyir dövlət rəhbərimiz.

Müqəddəs məkanlarımızdan, o cümlədən məscidlərdən tövlə kimi istifadə etməklə ermənilər bütün müsəlman, islam dünyasının dini heysiyyətinə toxunaraq bir daha azğınlaşdıqlarını göstərdilər. Bu vandalizm aktlarına indi yalnız Azərbaycan dövləti yox, beynəlxalq təşkilatlar tərəfindən də qiymət verilməlidir. Belə mənfur əməllər lazımınca pislənməli və ciddi hüquqi ölçü götürülməlidir.

Müqəddəs şəhərimiz olan Şuşaya Füzulidən yol çəkilir. Bu yol bizim zəfər yolumuz, gələcəyə doğru inkişaf istiqamətimiz olacaq. O torpaqlarda çəkilən hər yeni yol, ucaldılan hər yeni tikili torpağın köksünə bu yurdun əbədi və əzəli sahibi Azərbaycanın quruculuq əzminin, dünyaya, bəşəriyyətə töhfə vermək amalının möhtəşəm imzası kimi həkk olunacaq!





**LEYLA BAYRAMOVA**
*Suraxanı rayonu*
*279 nömrəli tam orta məktəbin*
*IX sinif şagirdi*
**Elmi rəhbər: Ofeliya Musayeva**



## ŞUŞA ƏMƏLİYYATI – MUSİQİ BEŞİYİNİN AZAD OLUNMASI

***Deyirlər bülbülə çəmən yaxşıdır,***
***İnsançün laləzar, Vətən yaxşıdır.***
***Şair, sorma Vətən nədən yaxşıdır,***
***Adı gəlcək könlüm dastana döndü!***

Mən bu gün sizə zəngin tarixə malik olan Vətənimizin füsunkar bir guşəsindən danışacağam! Qarabağın mədəniyyət beşiyi olan və ruhu musiqi ilə yoğrulmuş Şuşadan.

Şuşa qalasını həm də "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" adlandırırlar. Əvvəllər doğma, zərif, zəngin mədəniyyət şəhəri olan Şuşamızı Parisə bənzətmələri çox xoşuma gəlirdi. Amma indi... Amma indi bu müqayisə mənim üçün öz əvvəlki dəyərini tamam itirib. Saflıq, təbiilik, vüqar, əzəmət dolu Şuşa hara, Paris hara?! Yaxın keçmişə qayıdaq. 8 noyabr 2020-ci il! İşğaldan düz 28 il ötmüşdü.

Ali Baş Komandana raport verildi: "Cənab Ali Baş Komandan! Şuşa şəhəri erməni işğalçılarından azad edilmişdir!"

Torpaqlarımızı quduz düşməndən təmizləmək üçün hər şeyi zərgər dəqiqliyi ilə ölçüb-biçmiş Ali Baş Komandanımız İlham Əliyev anındaca sevincini öz doğma xalqı ilə bölüşdü: "Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərdən biridir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Xəyalımız qartal kimi qanadlandı. Nələr keçmədi gözümüzün önündən?!

Tarix göstərdi ki, bu müddət ərzində Azərbaycan Prezidentinin yeritdiyi müstəqil siyasət ölkəmizi həm regionda, həm də dünyada söz sahibinə çevirib. Ölkəmizin mövqeyinin möhkəmlənməsi münaqişə ərtafında yaranan vəziyyətin məhz bizim xeyrimizə dəyişməsinə rəvac verdi. Hərbi imkanlarını genişləndirməklə yanaşı, Azərbaycan həm də diplomatik cəbhədə diktə edən tərəfə çevrildi. Döyüş meydanında Azərbaycan ordusu düşmənlə təkbaşına mübarizə apararaq ərazi bütövlüyümüzü



qarış-qarış bərpa etdi. Üçrəngli bayrağımızın Qarabağın döyünən ürəyində – Şuşada dalğalanması hər birimizi qürurlandırır. Son günə qədər düşmən Şuşa ilə bağlı yalan informasiyalar








yayaraq həm öz ictimaiyyətini, həm da beynəlxalq ictimaiyyəti aldatmağa cəhd edirdi. Amma şanlı Azərbaycan Ordusu Ali Baş Komandanın tapşırığını qətiyyətlə yerinə yetirdi. VƏTƏN uğrunda düşmənlə ölüm-dirim savaşına girən qəhrəman əsgər və zabitlərimiz Şuşanı azad edərək müasir hərb tarixində möcüzə yaratdı və dünyanı heyrətdə qoydu!

8 noyabr Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Həsrətlə gözlədiyimiz qələbə xəbərlərini, torpaqlarımızın bir-birinin ardınca azad olunmasını Prezidentimizin dilindən eşitdik! 44 günlük müharibənin hər anı xalq və Prezident dəmir yumruq kimi birləşdi!

Ordumuz düşmənin 30 ildə qurduğu bütün maneələri, istehkamları qısa müddətdə məhv etməyi, Şuşanı, Qarabağı azad etməyi bacardı!

İlham Əliyevin Şuşa səfəri isə Qarabağ zəfərinin zirvəsi oldu. Bir gecəni Şuşada keçirən Qarabağ Fatehi bu jesti ilə çox şey dedi bizə, əziz Şuşa!

İlham Əliyev diplomat uzaqgörənliyi, prinsipiallığı, dəmir iradəsi ilə xalqımızı xoşbəxtliyə qovuşdurdu!



Evinə dönən heykəllər də sevinirdi!

Dövlət başçısı oradan düşmənə xəbərdarlıq etdi! "Heç kim dəmir yumruğu unutmasın!"

Əziz Şuşa! Sözün, ünvanın gözəlliyinə bax!

Dahi Üzeyir bəy deyirdi ki, hər millətin bətnindən elə övladlar gəlir ki, onlar sanki özü üçün dünyaya gəlməyib, insaniyyətə, onun inkişafına xeyir gətirmək üçün gəlib. Pənahəli xan, Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyli, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyli, Niyazi, Bülbül, Şəmsi Bədəlbəyli, Kərim bəy Mehmandarov Mehdi Məmmədov, Süleyman Ələsgərov, Xan qızı Natəvan, Mir Möhsün Nəvvab... Qoynunda böyütdüyün bu məşhurların hansı birini deyim, gözəl Şuşam?!

"Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir" – Ali Baş Komandan İlham Əliyevin çıxışı zamanı səsləndirdiyi fikirlər onun rəhbərliyi və müvafiq tapşırıqları ilə artıq işğaldan azad edilmiş torpaqlarımızda yeni həyat və inkişaf strategiyasının qurulmasından xəbər verir. Əminik ki, ölkəmizin dayanıqlı inkişaf tempi, region və dünyada strateji, iqtisadi əhəmiyyəti, beynəlxalq nüfuzu sayəsində işğaldan azad edilmiş torpaqlarımızda ən qısa zamanda bütün sahələrdə, uğurla icra olunacaq inkişaf strategiyası və nailiyyətlər əldə olunacaq. Cənab Ali Baş Komandanın xalqımıza olan hər bir müraciəti bizi uğurlu və İlhamlı sabahlara ümidləndirir, yetişməkdə olan sağlam nəsillərin bu şərəfli tariximizi daima qoruyub saxlayacağı inamını artırır.

Bəs erməni şovinistləri?! Onlar insaniyyətə xidmət etməyə deyil, ona düşmən kəsilmək üçün gəliblər bu dünyaya!

Hamı bilir, Prezident İlham Əliyev deyir və edir!

Bundan sonra sən həsrət çəkməyəcəksən, Şuşam mənim! Səni azad edən Müzəffər Ordumuz, Ali Baş Komandanımız var olsun! Var olsun Qarabağ! Var olsun Azərbaycan! Xar olsun, qarı düşmən! Gözəl Şuşam! Bundan sonra hər il sənin azad edildiyin günü böyük təntənə ilə bayram edəcəyik!



**ƏLİ HÜSEYNOV**
*Nizami rayonu*
*"Zəngi" liseyinin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Cəmilə Yusifova**

## MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN VƏ AZƏRBAYCAN ORDUSU

Gəlin, bu əzmkar Şuşa qalasının fotosuna diqqətlə baxaq. Necə də biz 27 sentyabr 2020-ci il səhərinə qədər bu fotodakı Qarabağın anası Şuşaya düz 30 il idi ki, həsrətlə, ağrı ilə baxırdıq. Biz bu şəkildəki məkana hər gün geri dönəcəyimiz bir arzu kimi baxırdıq. Bəli, Laçınımıza, Xocavəndimizə, Xocalımıza, Ağdamımıza, Qubadlımıza,










Zəngilanımıza, Kəlbəcərimizə həsrətlə, ağrı ilə baxırdıq. Şairin də dediyi kimi: "Qartal, götür məni qanadlarında, məni Kəlbəcərə, Laçına yetir!" - deyirdik.

Yaralı bir qanadımız var idi, bəli. On milyon yaralı var idi, minlərlə şəhidin, qazinin qanı yerdə qalmışdı. Qazilərimiz özləri kimi hələ də yaralı qalan Qarabağa qayıtmaq istəyirdi. Tam 30 il! Bir igidin ömrüdür bu 30 il, bilirsinizmi? Yüzlərlə yeni doğulmuş qarabağlı körpə o anları, o dəhşəti, erməni vəhşiliyini gözləri ilə görmüşdülər. Sizcə, 30 il öncə minlərlə uşaq o iyrənc vəhşilikləri gördükdən sonra içində qisas hissi olmayacaqdımı? Əvvəl-axır geri qayıdıb burada onların öz analarının, öz atalarının qisasını alacağı günün, əlbəttə, yetişəcəyini hər birimiz bilirdik, o mənfur düşmənlər də çox gözəl bilirdi bunları! Dahi türk hökmdarı Çingiz xanın gözəl bir sözü var: "Qisas günü yetişən zaman siz türkün gözündə kin, qolunda güc, beynində nifrətdən başqa heç bir şey görməyəcəksiniz!"

Qucağında körpə olan kiçik bacının fəryadına baxın! Burada körpənin heç bir yaşı tamam olmayıb, bu iki vətən övladı cəlladlar tərəfindən hər iki valideynini itirməyə məcbur olmuşdu. Həm də gözlərinin önündə! İndi düşünün, bu uşaq valideynlərinin qanını yerdə qoyardımı? Məhəmməd Hadinin dediyi kimi: "Türkün tökülən qanları bihudə gedərmi?" Getməz! Əlbəttə, qisas alınacaqdı.

Bu ağrı ilə, acı ilə illərlə yaşadıq, səbir etdik. Dünya bu vəhşətə susdu. Hər zaman özünü sülhsevər, insansevər göstərən o böyük dövlətlər susdular bu vəhşətə, bu dəhşətə. O dəhşətli anlara, o faciəvi kadrlardakı vəhşətə baxıb susdular! Fərqində

idilər hər şeyin, gedən canların, yetim qalan uşaqların çox gözəl fərqində idilər. Tək seçimi "susmaq" oldu dünyanın. Ancaq bilmirdilər, bu qətliama məruz qalan insanlar o türklərdir ki, onların qorxusundan Çin səddi tikilmişdi, həmin o türklər hökmranlıq etmişdi dünyaya!

Artıq hər gün səbrimiz daralır, şəhid xəbərləri, Qarabağla bağlı keçmiş zamanda danışmaq qorxusu bizi dəli edirdi. İçimiz qan ağlayırdı, hiss edə bilmirdik heç nəyi! Cıdır düzündə at çapmaq, o suyu nəfis İsa bulağından su içmək uşaqlıq arzumuz idi biz gənclərin, Ağdamın o məşhur Çay evində çay içmək istəyirdik, Xan Şuşinskinin səsindən "Şuşanın dağları" mahnısına elə Şuşa dağlarında qulaq asmaq istəyirdik. Mən hər gün Qarabağın, Şuşanın, Laçının səsini eşidirdim, Şuşa mənə deyirdi ki: "Axı mən nə zaman azad olacağam, bu yazıları mənim azadlığım şərəfinə yazacaqsan, ayrılığımızdan yox, qovuşmağımızdan yazacaqsan?" Ağdam mənə deyirdi ki: "Nə vaxt Allahverdi Bağırovun ruhunu şad edəcəksiniz? Nə vaxt "Qarabağ" klubu öz oyunlarını doğma stadionda keçirəcək?" Mən onların yanında hər zaman xəcalət çəkirdim, daxilən çox pərt olurdum. Dilim nəsə deməyə varmırdı, ancaq "Əlbət, zəfər bizim olacaq, darıxmayın!" – deyirdim. Çünki bilirdim ki, ordumuz güclüdür və qisas hissini unutmayacaq. O ordu ki, "Fred Asif" adı ilə tanınan Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan tarixində ilk istehkamçı hərbi hissənin qurucusu Asif Məhərrəmov ömrünün son gününə qədər o medalı sinəsindən asmadı ki: "Bizim ana-bacılarımızın, qardaşlarımızın qanı yerdə qalıb. Mən bu medalı taxıb heç vaxt "qəhrəmanam" deyə bilmərəm. Mən o vaxt özümə "qəhrəman" deyərəm ki, Qarabağı mən alım, ya da mənim igid kursantlarım, igid zabitlərim..." – deyən igidləri olub.

Səbir kasamızın daşmağa başladığı ilk gün – 2 aprel 2016-cı il. Lələtəpə strateji yüksəkliyinin azadlığı uğrunda başlayan bu şanlı mübarizədə qəhrəmanlarımız şəhadət zirvəsinə yüksəldi. Onlar bəlkə də, bilmirdilər ki, onlar "Dəmir yumruq" əməliyyatının







*"Fred Asif" adı ilə tanınan Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmov*

ilk qığılcımlarını yaratdılar və orada mənim bugünkü düşüncələrimdə əhəmiyyətli rolu olan şəxs – atam polkovnik-leytenant Hüseynov Elşad Əliağa oğlu da iştirak etdi. Müəllimi olan "Fred Asif"in vəsiyyətini yerinə yetirməyə başladı, səssiz qalan, hər gün ağlayan Qarabağın gözündəki yaşın az da olsa dinməsinə vəsilə olanlardan oldu. O günkü xəbəri eşitdikdə mən o qədər qürurlu idim ki, o qədər sevincli idim ki! Artıq qələbəyə çox az qaldığını bilirdim, hiss edirdim bunu. Şəxsən tanıdığım mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadə, atamın kursant yoldaşı və dostu polkovnik-leytenant Raquf Orucov, polkovnik İlqar Mirzəyev və digər şəhadətə yüksələn o igidlər azadlığın təməl daşları oldular. Mən o gün qərar verdim ki, hərbçi olacağam, hər bir şəhidin qisasını alacağam. Gözümü bir dəqiqə belə olsun qırpmadan o gecə and içdim. And içdim ki, şəhadətdən qorxmayacağam, lazım gəlsə, sevə-sevə bu torpaqlar uğruna canımı fəda edəcəyəm.

Qələbələrimiz ardıcıllıqla gəlməyə başladı, öncə Günnüt əməliyyatı ilə düşmənə ikinci ağır zərbəmizi endirdik. Hər gün "Qarabağlı Azərbaycan"a qayıdış uğrunda ağır mübarizə gedirdi. Kinimiz silahımıza vururdu: "Vur, komandir, vur!" – deyirdik hər gün! Bütün xalq, bütün qeyrətli Azərbaycan oğulları tək bir əmri – Ali Baş Komandan cənab İlham Əliyevin verəcəyi döyüş əmrini gözləyirdi. Günnüt əməliyyatından sonra bir müddət sabitlik olsa da, mübarizə döyüş meydanında yox, dünya arenasında davam edirdi. Azərbaycan Respublikasının Prezidenti, Si-

lahlı Qüvvələrin Ali Baş Komandanı, artıq qürurla Qalib Ali Baş Komandan deyə biləcəyim cənab İlham Əliyevin uğurlu strateji xəttinin nəticəsində Vallday konfransı və Münhen konfransları kimi əhəmiyyətli tədbirlərdə uğur qazanmağımızın nəticəsi artıq göz qabağında idi.

Uğurlu siyasətin nəticəsi isə artıq ötən il özünü göstərməyə başladı. İyul ayından etibarən başlayan döyüş əməliyyatları artıq xalqın səbr kasasının tamamilə daşmasına səbəb oldu. Çünki bu azmüddətli uğurlu əməliyyatlarda şəhid olan şəxs – xalqın böyük oğlu, bugünkü mübarizliyinə böyük təsir göstərən şəxsiyyət – Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimov idi. Bu həmin Polad Həşimov idi ki, çiynindəki ulduzların böyüklüyünü önəmsəmədən öz əsgəri ilə səngərdə yatırdı. İstəsəydi, öz xidmətini rahatlıqla xidməti kabinetində keçirə bilərdi, amma içindəki Qarabağ sevdası buna imkan vermədi. İyul ayından etibarən hamı səfərbər olub döyüşə getmək istəyirdi, böyükdən kiçiyədək. Mən və mənim dostlarımın da – az yaşımız olmasına baxmayaraq – içindəki vətən, torpaq sevgisi bizi də könüllü olaraq orduya getməyə vadar edirdi. Çünki hər bir türkün arzusu idi şəhadət, Qarabağımızın azadlığı!

O möhtəşəm gün – Polad generalın yarım qalmış arzusunun, "Fred Asif"in o Qızıl Ulduzu rahatlıqla daşıya biləcəyi gün gəlib çatdı – 27 sentyabr 2020-ci il. O günü unutmaq qeyri-mümkündür. Atam və atamın dostları, bütün hərbiçi yoldaşları, hamısı həmin gün bizimlə halallaşdı və cəbhəyə yollandı. İgid qardaşlarım, dostlarım olan şəhid leytenant Əliyev Samir, şəhid leytenant Şəbiyev Məhəmməd, şəhid gizir Məmmədov Rəşad, qazi, kiçik leytenant Əhmədzadə Mobillə xudahafizləşdim o gün. Atamın evdən çıxarkən dediyi o sözü unuda bilmirəm: "27 il öncə baş qoyduğum, sırf bu amalla başladığım xidmətimi Qarabağ azad edilməmiş tamamlayamacağam. Mən qələbə ilə qayıdacağam! Ya qazi, ya qalib, ya da şəhid qayıdacağam".

44 gün sanki illərimizin həsrəti idi – hiss edirdim, Qaraba-







*Qalib Ali Baş Komandanın Qalibiyyət çıxışı*

ğımın üzü gülürdü, Qarabağda xarıbülbül artıq bir başqa gözəl idi! Şuşaya artıq rahatlıqla "Şuşa, biz qayıdırıq!" – deyə bilirdim. Şuşa gülümsəyirdi, Cıdır düzü də igidlərimizi gördükcə artıq ağlamırdı. Məğrur idi artıq Şuşa, Laçın, Kəlbəcər. Artıq biz Laçın səmalarında qartal olub uçmağı arzulamırdıq, qartal kimi düşməni əzirdik! Və bu möhtəşəm savaşda 30 il sonra hər şey olacağına vardı. Haqq nahaqq üzərində qələbə çaldı! Zəfər Azərbaycanın oldu! 8 noyabr səhəri atam mənə zəng edərək dedi ki: "Polad Həşimovun və Asif Məhərrəmovun qəbrini ziyarət et, Asif Məhərrəmova de ki: "Kursant Hüseynov artıq qalib polkovnik-leytenantdır", Polad Həşimova de ki: "4 il bir otaqda dərs keçdiyin kursant yoldaşın Hüseynov sənin qisasını aldı!"

Bu qüruru yaşamağı mən təsəvvür edə bilmərəm, sözlər bu qürurun qarşısında aciz qalır. "Dəmir yumruq" əməliyyatı – 10 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyanatı ilə başa çatdı, qalib gəldik biz! Artıq Şuşa-

da, Cıdır düzündə at çapa biləcəkdik, İsa bulağının o nəfis suyunu içəcəkdik, artıq hər yerdə daha da qürurla deyə biləcəkdik ki: "Biz fəxr edirik ki, Azərbaycanlıyıq! Biz qalibik!" Qalib olmaq hissini mən o gün yaşadım. Bundan öncəki yazılarıma baxdım, Qarabağla bağlı yazdıqlarıma. Hər birinin üstündən bir xətt çəkdim. Çünki artıq mən qalib idim. Biz qalib idik!

3000-ə yaxın can bahasına, qazilərimizin bahasına və ən əsası müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi əməliyyatları uğurla idarə etməsi nəticəsində qalib gəldik. Ömrümün 10 ilini birlikdə keçirdiyim yaxın dostum, əziz qardaşım şəhid gizir Məmmədov Rəşadın hesabına, arzusuna çatan dostum şəhid Əliyev Samir hesabına aldıq biz o torpaqları, Şuşaya girmək arzusu olan qardaşımız Orxan Lətifli hesabına, Cəbrayıl Dövlət-



*general-mayor*
*Polad Həşimov*



*leytenant*
*Samir Əliyev*

zadə hesabına aldıq! İtirdiyim şəhid dostlarım üçün qətiyyən heyifsilənmirəm, çünki onlar öz arzularına, Qarabağlarına yetişmişdilər. Samir Suqovuşanın alınmasında böyük rəşadət və qəhrəmanlıq göstərmişdi. O, öz arzusuna çatmışdı deyə, mən üzülə bilməzdim, atam qazilik mərtəbəsinə ucaldı deyə üzülə bilməz-







**gizir Rəşad Məmmədov**



*əsgər Orxan Lətifli*

dim! Əgər bu gün onlar xoşbəxtdirlərsə, şəhidlər cənnətdən bizə baxıb, Qarabağlarına baxıb gülümsəyirlərsə, biz üzülə bilmərik. Ona görə də mən və bütün şəhid ailələri məğrur olmalıyıq, çünki artıq Qarabağımız azaddır!

Son olaraq qeyd edim ki, bu, hələ başlanğıcdır. Dahi şairimiz Əhməd Cavadın vəsiyyətini atam və silahdaşları yerinə yetirdi, türkün şanlı bayrağını, Qarabağdan asdı. Mən də Samirin, Rəşadın, Orxanın 3000-ə yaxın şəhidimizin arzusunu yerinə yetirəcəyəm, Türkün Şanlı Bayrağını əzəli torpaqlarımız olan İrəvandan, Zəngəzurdan, Göyçə mahalından asacağam. Hərbçi sənətinə sahib olduqdan sonra indi qərbi azərbaycanlı soydaşlarımızın qəlb göynərtisinə əlçatmaz görünən, məcburən tərk etdikləri yurdlarına qovuşmaqlarına vəsilə olmaq, bunları yerinə yetirmək mənim borcum olacaq. Teoman Tanhunun dediyi kimi: "Türk heç bir işi yarıda qoymaz". Ya qazi, ya qalib, ya da şəhid olacağam, ancaq yarım qalan şəhid arzularını yerinə yetirəcəyəm!

Başda general-mayor Polad Həşimov olmaqla bütün Şəhidlərimizin ruhu şad, məkanları cənnət olsun! Samir, Rəşad, Orxan, əziz ruhunuza azad Qarabağ səmalarından salam olsun.

Ruhunuz şad, məkanınız cənnət olsun! Unutsaq əgər, bu vətənin suyu, çörəyi bizə haram olsun.



**NƏRMİN DAŞDƏMİROVA**
*Sabunçu rayonu*
*311 nömrəli tam orta məktəbin*
*XI sinif şagirdi*
**Elmi rəhbər: Günel İbrahimova**

## VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANLARI

Hər birimizə məlumdur ki, üzərində yaşadığımız bu torpaq qan bahasınadır, o kəslərin qanı bahasına ki, onlar vətən qəhrəmanlarıdır. Vətən qəhrəmanları həmin şəxslərdir ki, canını, xəyallarını, arzularını, əzizlərini bir an düşünmədən torpağı uğrunda mübarizə aparır. O torpaq ki, 30 ilə yaxındır, düşmən tapdağı altındadır. O torpaq ki, ora neçə insanın göz yaşı, ahı, naləsi, fəryadı qarışıb. O günlərdən bəri burada yaşamağa haqqı olmayan bir millət, bir dırnağarası xalq yaşamışdır. Bunun bir sonu olmalı idi və nəhayət, oldu da.

Bu Vətən müharibəsi idi. 27 sentyabr 2020-ci ildə əks-hücumla başladı -mənəvi, dini kimliyindən, yaşından, cinsindən asılı olmayaraq hər bir fərd bu vətən müharibəsində iştirak etmək istəyirdi. Hamı arzulayırdı ki, vətənimiz bütöv olsun, işğaldan azad olunsun. O torpaqlardan didərgin düşmüş insanların həsrəti bitsin, öz ata-baba yurdlarına qayıtsınlar.

Bu müharibədə iştirak etmiş hər bir əsgər son dərəcə qəhrəmanlıqla öz hünərini hər cəhətdən göstərmişdir – istər döyüş meydanında, istərsə də bir-birilərinə dəstək olaraq. Və onlar "yalnız irəli!" düşüncəsi ilə bir an belə dayanmadan, nə olur-





sa-olsun qabağa getməyə can atıblar. Elə buna görə də qələbə tez bir zamanda bizim oldu! Heç vaxt arxada qalan əsgəri tək qoymamışlar, yaralını tez-təcili çiyinlərində, qucaqlarında tibb məntəqələrinə çatdırmışdılar. Bu qəhrəman oğullarımız düşmən gülləsindən qorxmadan, çəkinmədən öz döyüş yoldaşlarını belə igidliklə qorumuşdular. Döyüş zamanı hərbi heyət bir-birinə zəncir kimi bağlanmışdır. Komandirlər əsgərlərini öz balaları kimi qoruyur, öndə özləri vuruşurdular. Məhz bu bağlılıq bizi irəli apardı.



İgidlərimizin yalnız bir məqsədi vardı: "Son damla qanımıza qədər vuruşacağıq. Onların bu savaşları dillərdə dastan oldu. Hətta düşmən belə qorxularını dilə gətirməkdən utanmadı: "Onlar ayaqlarını, qollarını itirdikdə, güllə yarası aldıqda belə, sürünə-sürünə hücum edirdilər". Bunun adı vətən eşqidir. Bunu düşmən bilə bilməz. Çünki bu vətən onların deyil. Hazırda o torpaqlarda ayaq basmalı olan insanlar, qəhrəmanlar xidmət edir.

Bu qəhrəman oğullarımızın bəziləri tapdaq altında olan bu torpaqlarımızdan körpə yaşlarından məcburi qaçqın düşmüş və

yaddaşlarında o qədər acınacaqlı hadisələr həkk olunmuşdur ki, onlar ancaq o günləri düşünərək irəliləyirdilər. Kiminin atası, kiminin qohumu bu torpaqlarda şəhid olmuş, qanı tökülmüşdür. Uşaqlıqdan bəri eşitdikləri Qubadlı, Zangilan, Laçın üçün vuruşurdular. Yaddaşlardan silinməyəcək o hadisələri, o acınacaqlı günləri, qışqırtıları, fəryadları ancaq qələbə hissi azalda bilərdi.



*Vətən Müharibəsi Qəhrəmanı Hikmət Mirzəyev*

Bizim igidlərimizin bir amalı vardı: "yaralansaq da geri çəkilmək yoxdur". Onlar yaralı halda şəhidlərimizi döyüş bölgələrindən çıxarıb düşmənə göz dağı verirdilər. Yaralı yoldaşını qucağına alıb elə irəliləyirdi Azərbaycan əsgəri. Bu nə demək idi, ancaq qəhrəmanlıq, igidlik demək idi. Şuşa döyüşləri dillər əzbəri olmuş, qəhrəman oğullarımızın sıldırım qayalardan, meşələrdən irəliləyərək düşmənlə əlbəyaxa döyüşməsi düşmənin geri çəkilməsinə, ağ bayraq qaldırmasına səbəb olmuşdur. Düşmənin adi əl bıçağı ilə məhv edilməsi nə demək idi?! Əsl





mərdlik, qoçaqlıq. Şuşa əməliyyatı bir qəhrəmanlıq salnaməsi kimi tarixdə iz qoydu.

Bu 44 günlük Vətən müharibəsində yüzlərlə igid oğlumuz rəşadətlə iştirak etdi. Bu igid oğullarımız şəhidlik zirvəsini özləri üçün arzu kimi qəbul etmiş, bu əlçatmaz zirvəyə gedən yolu şərəf yolu adlandırmışlar. Onların hər birinin göstərdiyi şücaət haqqında dastanlar, hekayələr yazmaq olar. Bunlardan bir neçəsini sizə təqdim etmək istəyirəm.

Belə igidlərdən biri mənim oxuduğum 311 nömrəli tam orta məktəbin məzunu olmuş şəhid Mikayılzadə Rəşaddır. Rəşad 15 sentyabr 1995-ci ildə Bakı şəhərində anadan olmuşdur. Onun bizim məktəbə gəlişi 2007-ci ilə təsadüf edir. Gəldiyi gündən müəllimlərinin, yoldaşlarının rəğbətini qazanmış, maraqlı bir şagird kimi yaddaşlarda iz qoymuşdur. Hərbi xidmətə yollanan zaman anasına dediyi son sözlər – "əsgərliyimi başa vurum, qayıdım, mən işləyərəm, sənsə evdə oturarsan, ana!" – sözləri Rəşadın necə bir övlad olduğunu göstərir. Vətənə məhəbbət anadan başlayır.



*Şəhid Rəşad Mikayılzadə*

Xidmət etdiyi dövrdə nümunəvi əsgər olduğu üçün bir neçə təşəkkürnamə ilə təltif edilmişdir. İkinci Qarabağ müharibəsi başlayan zaman hərbi hissədəki yoldaşları ön cəbhəyə aparılanda ailənin yeganə övladı olduğu üçün komandiri Rəşadın getməyinə etiraz etsə də, o, yoldaşlarından ayrılmayacağını israrla bildirir və hamıyla birgə döyüşə yollanır. Füzuli, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə şücaətlə iştirak edir. Döyüş yoldaşlarının danışdıqlarına görə, hətta

əməliyyatlar zamanı həmişə ayaq üstə vuruşarmış, komandir ona aşağı əyilməyini deyəndə Rəşad belə cavab verib: "Erməni kimdir ki, onun qabağında əyilim aşağı". Döyüş zamanı şəhid olmuş komandirini meydandan çıxarmaq üçün geri qayıdan Rəşad şəhid olur. Komandirinə, şəhidinə olan ehtiram Rəşadı bir snayper gülləsinə tuş edir. İkinci Fəxri xiyabanda uğrunda şəhid olmuş komandiri ilə yan-yana uyuyur Rəşad Mikayılzadə. Ölümündən sonra – "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub məktəbimin qəhrəmanı.



*Şəhid Cəbrayıl Dövlətzadə*

Qəhrəmanlarımızdan digəri Cəbrayıl Dövlətzadədir. "General Polad Həşimovun qisasını alan əsgər" adı ilə Vətən müharibəsinə unudulmaz iz qoyan Cəbrayıl 2001-ci il sentyabrın 11-də Sumqayıtda anadan olmuşdur. 44 günlük Vətən müharibəsinin ən gənc şəhidərindən biri kimi tanınan igidim 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin Cəlilabad rayonu N saylı hərbi hissəsində müddətli həqiqi xidmətdə idi. Vətən müharibəsi başladıqdan sonra Cəbrayıl rayonunun azadlığı uğrunda savaşıb. Əlbəyaxa döyüş zamanı düşmənin bir general, üç polkovnik, iki zabitini boğaraq öldürən Cəbrayıl özü də şəhid olub. İkinci Fəxri Xiyabanda dəfn olunan şəhidimiz ölümündən sonra iki medalla təltif olunub.

Erməniyə qan udduran ata və oğul – Çingiz Qəhrəmanov və Rəşad Qəhrəmanzadə igidlikləri ilə tarixə unudulmaz iz qoydular. Öz doğma yurdları olan Laçının azadlığı uğrunda çiyin-çiyinə döyüşən Qəhrəmanovlardan ata Birinci Vətən müharibəsində də iştirak edib. Müharibə zamanı Həkəri, Güləbird kəndlərinin azad olunmasında qəhrəmanlıqla iştirak edən bu ata-oğul minaya düşən tankdan belə sağ çıxıblar. Onların ata və oğul kimi vuruşması döyüş meydanında hünərlərini daha da artırırdı. Hər minamyot mərmisi gəldikdə Ç.Qəhrəmanovun sadəcə əli ilə oğlunu qoruması, özünü ona sipər etməsi necə çətin şəraitdə qələbənin bizim olduğuna sübutdur. Ata və oğul göstərdikləri şücaətə görə bir neçə medalla təltif olunmuşlar.





Başqa bir qəhrəmanımız isə qazi Həsənov Sənan Kamil oğludur. Qubadlıda anadan olsa da, 1993-cü ildən məcburi köçkün kimi Xırdalan şəhərində yaşamışdır. İxtisasca tarixçi olan bu qəhrəmanı eşitdiyi, oxuduğu hər fikir, hər söz müharibəyə həvəsləndirmiş, bu terrorun intiqamını almağa, o rayonlara qayıtmağa sövq etmişdir. Sübh çağlarından başlayan döyüşlərdə qəhrəmanlıq göstərmiş, bacardığı qədər qabağa getmişdir. Cəbrayılın Rüzgar kəndində gedən döyüşlərdə doqquz güllə yarası alan Sənan on saat döyüş meydanında qalmışdır. Bu vəziyyətdə yenə də huşunu itirməmiş, bir zabit kimi əmrlərini vermişdir. "Vətəni istəyən öz canından keçməli, öz balasından keçməli, anasından, atasından keçməlidir" fikrinin müəllifidir Sənan Həsənov.



*Qazi Asim Quliyev*

Müharibə bizə neçə-neçə cəsur, qorxmaz, vətənpərvər oğullarımızı tanıtdı. Bunlardan biri Asim Quliyevdir. O, Füzuli istiqamətində düşmənin müdafiə xəttinin yarılmasında böyük qəhrəmanlıq göstərmişdir. Düşmən səngərində ağır yaralanır, hər iki ayağı sınır, bir qolu isə zədələnir. İki saat səngərdə tək qalır. Daha sonra səslər eşidir və bunların düşmən olduğunu anlayır. O, sı-

nan iki ayağı üstünə qalxır, özü də buna inana bilmir, gələn iki erməni zabitini başından vuraraq öldürür. Asim 200 metrə yaxın məsafəni yuvarlanaraq qət edir və sadəcə bir qolu ilə sürünərək öz postumuza doğru irəliləyir. Bir damcı su belə olmayan ərazidə Asimin tək ehtiyacı su idi. Düşünürdü ki, səhər açılanda sübh çağında otların üzərindəki şeh damcılarını içsin. Buna başqa nə ad vermək olar?! Vətən eşqi! 4 günə 1,5 km məsafəni sürünərək qət edib öz postuna qayıdır vətənimin igid oğlu. Qayıtdıqdan sonra məlum olur ki, Asimin ailəsinə şəhid xəbəri verilib, hətta məzar yeri də qazılıb... "Hər birimiz torpaqdan əmələ gəlmişik. Ona görə də qanımızın torpaqla qarışmağı belə, bizim içimizdə olan azərbaycanlılığı və döyüşkənliyi bildirir. Hansı ki, o döyüşkənliyi biz Azərbaycan xalqından aldıq" – deyirdi qazi Asim Quliyev.

Bəli. Arxa cəbhədə xalqın vətən sevgisi ruhlandırdı igidlərimizi, qəhrəmanlarımızı. Hər bir kəs, hər bir vətəndaş hətta xaricdəki soydaşlarımız da qələbəyə inandı. Hər gün səngərdəki əsgərlərə dəstək məktubu yazan balacalardan tutmuş, döyüşdə olan nəvəsinə – "sən canavarsan, parçala düşməni, qoy qorxsunlar səndən" – deyən nənə, öz təqaüdünü fonda bəxş edən yamaqlı ayaqqabılı qoca babaya qədər hər kəsin bu qələbədə əməyi var.


*Qarabağ ordenli Mayis Bərxudarov*

Müharibənin qüdrətini, dəhşətini, qisasını yaşayan hərbçi igidlərimizlə bərabər, xalqın diqqətini, sevgisini özünə cəmləyən, verdiyi vədlərə əməl edən, dünya ölkələrini bizimlə hesablaşmağa vadar edən, bütün basqılara baxmayaraq məğrur dayanan ən böyük qəhrəmanımız, Ali Baş Komandanımız var. Dediyi hər bir ifadə dillər əzbəri olan, çıxışları səbirsizliklə gözlə-





nilən, Ulu öndər yadigarı İlham Əliyevimiz var. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" göz yaşları ilə söylənmiş ifadəsi ilə Qarabağ müharibəsinə möhrünü vurdu dünyanın ən çöx rəğbət qazanmış lideri.

"Qarabağ Azərbaycandır!" şüarının müəllifi olan möhtərəm Prezident İlham Əliyev son 200 illik Azərbaycan tarixində vətən torpaqlarını geri qaytaran yeganə sərkərdə kimi iz qoydu.

İlham Əliyevin uğurlu siyasəti, apardığı düzgün islahatlar, ölkəsinin sərhədlərinə sahib çıxması, xalqı ilə vəhdət təşkil edib sona qədər mübarizə aparması Azərbaycan dövlətini dünyanın ən nüfuzlu ölkələrindən biri etdi.

Beləliklə, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində yaradılan və getdikcə güclənməkdə olan Milli Ordumuz Dağlıq Qarabağ ərazisi də daxil olmaqla erməni təcavüzkarları tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqlarını işğalçılardan təmizlədi.



**NİGAR MƏMMƏDZADƏ**
*Yasamal rayonu*
*İncəsənət Gimnaziyasının*
*X sinif şagirdi*
**Elmi rəhbər: Leyla Bünyatova**

## MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN VƏ AZƏRBAYCAN ORDUSU

29 il boyunca həsrətindən burnumuzun ucu göynədiyi cənnət diyarımız... İllər boyunca yaralanmış, sızlamış, öz övladlarından ayrı düşmüş, yardım istəmiş ana yurdum. Qarabağımızın bağrı dəlik-deşik olmuşdu. Üzərini qara buludlar örtmüşdü. Hər zərrəsi müqəddəs olan torpağımızdan məhrum keçirdik bu amansız illəri. Bütün təbii sərvətləri, gözəllikləri, təbiəti Qarabağımıza baha başa gəldi. Hər daşına, hər yarpağına acgözlüklə göz dikildi. Bir övladı anasından ayırmaq olarmı? Olarmı onun simasından, qoxusundan, qoynundan, sevgisindən məhrum qoymaq?

Mənfur düşmən söküb dağıtmağa, məhv etməyə, qətliyam törətməyə yaxşı yiyələnib. Amma nəzərə almadı ki, tökülən hər göz yaşının, tökülən qanın, açılan yaraların, alınan canların hesabının ödənəcəyi gün get-gedə yaxınlaşır. Bu torpaq halal torpaqdır. Tarixi ən qədim əsrlərə əsaslanan torpaqdır. Əzəldən bizlərin beşiyi, ana yurdu olmuşdur. Bu torpağa göz dikmək, onu tapdaq altında saxlamaq özü ən böyük axmaqlıqdır. Yalanın ömrü az olar, ayaq tutsa da, yeriməz. Ən faciəlisi budur ki, düşmən arxalandığı "tarix"ə, uydurma əfsanələrə inanır və inandırmağa çalışır. Yalanları ilə qaralamağa çalışdı pak həqiqətimizi. Tariximizin yaddaş kitabına zərər vurmaq üçün hər vəhşiliyə, vandallığa, cinayətə əl atmaqdan bir an belə olsun çəkinmədi. Tarix kitabı yazmaq adıyla zülmün, ədalətsizliyin, yalanın kitabını yazmağa nail oldular. Amma dünyanın ədalətini və qəti həqiqətini dəyişdirməyə nail ola bilmədilər. Özləri üçün uydurduqları nağılın sonu heç də arzu etdikləri, xəyalını qurduqları kimi olmadı. Həqiqət quşu qaranlıq qəfəsindən məharətlə qurtuldu. Zülmkar olduğu qədər də qədirbilməzdir düşmənlərimiz. İllər boyunca bu sahədə aparılan saysız-hesabsız sülh danışıqlarının qədrini bilmədilər. Onları gözləyənlərdən, yaxın gələcəkdən bixəbər idilər. Amma artıq gec idi. Müzəffər Ali Baş Komandanımızın dediyi kimi, "qatar artıq keçib getmişdi".




Ana ülvidir, safdır. "Ana" dediyimiz Vətən də belədir. Onu nə dəyişmək olar, nə də yenisini tapmaq. Onu yalnız qorumaq, yolunda sipər olmaq, yaralarını sarımaq gərəkdir. Ali Baş Komandanımız başda olmaqla igid Azərbaycan övladları sızlayan




Qarabağ yarasını öz əlləri ilə sarıdılar. Vətənin yaralı bağrına məlhəm ilə əlac qıldılar.

Deyilənə görə, hər bir xalq elə sahib olduğu dövlət başçısına layiqdir. Azərbaycan xalqı və Müzəffər Ali Baş Komandan bu deyimin əyani sübutudur. Azərbaycan bütün uğurlarını sahib olduğu Prezidentə və vətənpərvərlik sevgisi ilə alışıb yanan xalqına borcludur. Prezidentimiz İlham Əliyev öz ali savadı, uğurları, müdrik addımları ilə həm layiqli övlad, həm də əvəzolunmaz dövlət başçısıdır. Onun uzaqgörənliyi, müdrikliyi, dərin düşüncələri bizə güclü iqtisadiyyat, yüksək hərbi savada yiyələnmiş məğlubedilməz ordu, keyfiyyətli texnika, qonşu ölkələrlə dostluq münasibətləri bəxş etdi. Prezidentimizin dil biliyi, yüksək intellektuallığı, ali savadı düşmənlərimizə həm diplomatik, həm hərbi sahədə layiqli cavab verdi. Əzəmətli, vüqarlı, qürurlu duruşu ilə can Azərbaycanımızı fəxrlə təmsil edir. Və biz buna qürurla şahid oluruq. O, sadəcə Azərbaycanın deyil, dünya ölkələrinin tarixi, siyasəti, iqtisadiyyatı haqqında dərin biliyə malikdir. Bütün sahələrdə məlumat sahibi olan məğlubedilməz liderimiz qısa vaxt ərzində özünün çəkdirməyə başladığı Zəfər Yolu ilə daxil oldu Qarabağımıza. Öz müdrik qərarları ilə bizi zəfərə, parlaq gələcəyə qovuşdurdu. Mübaliğəsiz, hər bir kəs əmin idi ki, babəklər, cavanşirlər, koroğlular yetişdirən bu ulu Odlar Diyarı doğma torpağını düşmənə qurban verməz! Onun tapdaq altında qalmasına əsla göz yummaz! Əsrlər boyunca bizə bəxş etdiklərinin qarşılığını verə bilməsək də, ona sahib çıxmağı və ona layiq olmağı daim özümüzə borc bilmişik. Bir əmr bəs idi ki, kiçiyindən tutmuş böyüyünə kimi hər bir kəs bizim olanı bizə qaytarmaq üçün mübarizəyə başlasın. İllərin həsrətinə son qoysun.





Nəhayət, o gün gəlib çatdı. Ali Baş Komandanımızın hücum əmri ilə tariximizin yeni səhifəsi açıldı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin elan etdiyi «Qarabağ Azərbaycandır və nida» şüarı xalqımızın müqəddəs vətən torpağı uğrunda savaşının ideya qayəsi, qələbəyə səsləyən rəhbər çağırışı oldu. 44 gün davam edən müharibədə cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın dövlət başçısının ətrafında sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda yeni və qüdrətli Azərbaycanın bütün dünyada özünütəsdiqi kimi qəbul edildi.

Azərbaycanın müzəffər ordusunun zəfər yürüşü, düşmənin sonadək bütün torpaqlarımızdan qovulması, Qarabağın, xüsusən də xalqımızın ləyaqət və qürur simvolu Şuşanın işğaldan tam azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir. Onun sözlərinə görə, savaş meydanında əldə etdiyimiz tarixi qələbənin ardınca Azərbaycanı daha böyük gələcək, daha firəvan həyat gözləyir.

Axır ki, Ana vətənimizin səsinə səs verə, harayına yetişə bildik. Qanları ilə tarix yazdı Azərbaycan igidləri. Son nəfəslərinə qədər gözlərindəki vətən sevgisi işığı ilə Azərbaycanı parlaq gələcəyə qovuşdurdu. "Bilsin ana torpaq, eşitsin vətən! Müsəlləh əsgərəm mən də bu gündən" – deyərək göz qırpmadan hücuma atıldılar. Onlar müqəddəs Azərbaycanımızın şanlı tarixini yazdılar. Hər birimizə məlumdur ki, azadlıq nemətdir. Azadlıq nə bəxşiş kimi verilir, nə də satılır. Onu müzakirəsiz, hər bir millət öz qanı, canı bahasına əldə edə bilər. Azadlıq uğrunda mübarizə şəhidsiz olmur. Şəhidsiz torpaqsa müstəmləkədir. Nə gözəl demişdir Mikayıl Müşfiq "Vətənçin yaşayan, vətənçin ölən, səmimi bir insan nə bəxtiyardır!" Fəxarət yerimiz Şəhidlər xiyabanı neçə vətən övladını öz ağuşuna aldı. Qəhrəmancasına ölmək əbədi yaşamaq, yaddaşlara sonsuza qədər həkk olmaqdır. Ona görə də

sil göz yaşlarını, ey şəhid anası! Övladının qanı yerdə qalmadı, qisası alındı.

Qarabağım, qovuşduq! Həsrətimizə son qoyduq! Kədər göz yaşlarımız sevinc göz yaşları ilə əvəz olundu. Tariximizin şanlı səhifələrinin yazıldığı bu dövrdə bəlli oldu ki, hər birimiz qarabağlıyıq. Hər birimiz oraya mənsubuq. Bunların hamısı da Ali Baş Komandanımız başda olmaqla, Müzəffər Azərbaycan ordusu və ən yüksək zirvə olan şəhidlik zirvəsinə ucalan şəhidlərimiz sayəsindədir. Minnətdarıq sizə, Azərbaycanın göz bəbəkləri! Bir şagird kimi çox xoşbəxtəm ki, növbəti tədris illərimdə Qarabağa olan həsrətimizdən deyil, qələbəmiz, zəfərimiz, Qarabağımıza qovuşmağımız haqqında oxuyacaq və yazacağıq.



Qarabağ dinlədikcə ürəyimizə su səpən musiqi, oxuduqca oxumaq istədiyimiz əsər kimidir. Qarabağ bir kitabdır, bizim kitabımızdır. Və o kitab biz "bitdi" deməyincə bitməyəcək, bağlanmayacaq. O kitabın son cümlələrini biz özümüz yazacağıq. Son nöqtəsini Qarabağımızda birlikdə qoyacağıq.

Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan mübariz Azərbaycan Qəhrəmanlarına Allahdan rəhmət, Ana yurdumuza isə parlaq, uğur və xoşbəxtlik dolu gələcək diləyirəm!



Müdrik Siyasət və Qarabağ Zəfəri



**POLAD ƏLİYEV**
*Binəqədi rayonu*
*297 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*
**Elmi rəhbər: Könül Şimiyeva**

*"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm"*

**HEYDƏR ƏLİYEV**

# İLHAM ƏLİYEVİN XALQA MÜRACİƏTLƏRİ

Özümü tanıyandan, lap kiçik yaşlarımdan bütün uşaqlar kimi arzu edirdim ki, böyüyüm, tez boy atım, məktəbə gedim. Bəli, böyüdüm, məktəbli oldum, lakin məktəbli olmaq arzumu tezliklə növbəti arzu əvəz etdi. Evdə anamın Şuşa həsrətli zümzüməsi, Şuşasız, yarım qalmış xoşbəxt uşaqlıq illərinin acınacaqlı məcburi köçkünlük həyatı ilə əvəz olmasının, məktəbdə isə müəllimlərimdən torpaqlarımızın 20 %-nin işğal olunmasının səbəbkarı olan mənfur düşmənləri- erməniləri qiyabi də olsa tanıdım. Onların dinc azərbaycanlılara, Xocalı sakinlərinə qarşı törətdikləri soyqırım hadisəsi, daha neçə-neçə vəhşilikləri ilə tanış olduqca qəlbimdə intiqam hissi yaranırdı.





Lakin, televiziya verilişlərində, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun çıxışlarında eşidirdim ki, torpaqlarımızın geri qaytarılmasının hərb yolu yoxdur, dinc yolla torpaqlar alınmalıdır. Prezidentimiz, möhtərəm İlham Əliyev isə deyirdi ki, dinc yolla torpaqlarımız geri qaytarılmasa, onda biz hərb yolu ilə işğal altında olan torpaqlarımızı azad edəcəyik.



Səbirsizliklə 18 yaşına çatmaq istəyirdim. İstəyirdim ki, Azərbaycan Ordusu sıralarında qulluq edim, tezliklə mənfur düşmənlərdən torpaqlarımızın azad edilməsində iştirak edim. Valideynlərim kimi xoşbəxt uşaqlıq illərindən məhrum olmuş həmyaşıdlarımın, onların valideynlərinin, Birinci Qarabağ mü-

haribəsi, o cümlədən atəşkəs dövründə Ermənistanın təxribatı nəticəsində şəhid olan əsgərlərimizin, mülki şəxslərimizin- qocalar, uşaqlar və qadınların qisasını alım.

27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən müharibə nəticəsində bütün Azərbaycan xalqı kimi, mən də xoşbəxtliyə qovuşdum.

Ali Baş Komandanımız, Möhtərəm Prezidentimiz İlham Əliyevin ordumuza əks hücum əmri barədə xalqa müraciəti bütün televiziya kanalları vasitəsilə yayımlandı. Bu müraciət Dağlıq Qarabağ və ətraf ərazilərimizin erməni işğalından azad edilməsi uğrunda ədalətli müharibədə vətənpərvərlik və birlik nümayiş etdirməyə çağırışın ifadəsi oldu.



Ana Vətəndir! Vətən Ana! Mən də müzəffər əsgər olub torpaqlarımızın azadlığı uğrunda döyüşmək istədim. Mən də ilk şəhid generalımız Polad Həşimovun daşıdığım adının haqqını vermək istədim. Bu çoşqunu məndə Ali Baş Komandanın xalqa ilk müraciəti və tviti yaratdı.





44 gün davam edən müharibədə Ali Baş Komandanımızın xalqa müraciətləri bir-birini əvəz edirdi.Mən hər gün səbirsizliklə Ali Baş Komandanın xalqa müraciət etməyini gözləyirdim. Böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinirdim. Hər yeni günü ip ilə çəkirdim ki, müharibə boyunca işğaldan azad edilən yaşayış məntəqələrinin sırasına gün keçdikcə yeniləri əlavə olunsun. Torpaqlarımızın alınan hər qarışını xəritədə qürur hissi ilə işarələyib, azad olunma tarixini qeyd edirdim.

Ali Baş Komandanımız 4 oktyabr Cəbrayıl, 9 oktyabr Hadrut, 17 oktyabr Füzuli, 25 oktyabr Zəngilan, 26 oktyabr Qubadlı, 8 noyabr Şuşa şəhəri kimi strateji əhəmiyyətli torpaqlarımızın alınması müjdəsini xalqa müraciətlərində verirdi. Hətta kapitulyasiya aktının imzalanmasından sonra İlham Əliyev xalqa müraciətində bildirmişdi ki, biz Laçını, Kəlbəcəri və Ağdamı döyüş olmadan, şəhid vermədən, qan tökmədən azad edirik. 20 noyabrda Ağdamın, 25 noyabrda Kəlbəcərin, 1 dekabrda Laçının erməni mənfurlarının tapdağından tamamilə təmizlənməsi xəbəri də Ali Baş Komandanın xalqa müraciətləri sayəsində çatdırıldı.

Ali Baş Komandanın xalqa müraciətlərində“iti qovan kimi qovuruq”!“Erməni əsgəri ölmək istəmirsə, rədd olsun torpaqlarımızdan”, “Bəs nə oldu Paşinyan” kimi sözləri Müzəffər Ordumuzun zəfər coşğulu şüarına çevrilməklə yanaşı, kiçikdən-böyüyə dillər əzbəri oldu. Cənab İlham Əliyev müraciətlərində mənfur düşmənimizə ünvanladığı sözlərin xalqının sınıq qəlblərinə su kimi səpildiyini və dillər əzbəri olan 10 noyabr 2020-ci ildə xalqa müraciətində də təsdiq edir: “Paşinyan. Nə oldu bəs? Bəs nə oldu, Paşinyan? Deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq”.

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin vətəni, eləcə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri 8 noyabr tarixindən etibarən Ermənistan silahlı qüvvələrinin işğalından azaddır.

Prezdentimizin 5 yanvar 2020-ci il xalqa müraciətində "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər" deməsi, Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan etməsi məni bir daha bir dövlət başçısının bu qədər vətənpərvər olmasına heyran qoydu. Torpaqlarımız azaddır!

Çox xoşbəxtəm ki, VIII sinifdə Qarabağ torpaqlarının, ana yurdum-Şuşanın alınmasının şahidi oldum! Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın "Qoy uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin", - diləyinə çatdım! Şuşam azaddır! Artıq rahat şəkildə əzəli və əbədi torpaqlarımıza qayıdacağıq!

Ulu Öndər söyləyirdi ki, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir qaladır, əziz bir abidədir" və onun ölkəmiz, Vətənimiz üçün xüsusi, vacib yeri olduğunu vurğulayaraq bildirmişdi ki, "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur".

Dahi şəxsiyyət Heydər Əliyevin doğma Azərbaycana hədsiz sevgisi onun bütün dəyərli kəlamlarında öz əksini tapmışdır: "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır", "Anam məni Azərbaycan üçün dünyaya gətirib"... Amma bu kəlamların içərisində bir kəlamı xüsusilə fərqlənirdi: "Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram!" Mən bu kəlamın nə olduğunu bu gün daha yaxşı başa düşürəm! Belə ki, Ulu Öndər ömrünün








qalan hissəsini deyil, ömrünün tam hissəsini xalqına bağışlamışdır!

Vətənpərvərlik hissləri aşılayan müdrik kəlamları ilə böyüyüb boya-başa çatmış Azərbaycan övladları, irsini layiqincə davam etdirən Ali Baş Komandan İlham Əliyevin başçılığı altında 27 sentyabr 2020-ci ildə başlamış Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalmış Qarabağ torpaqlarını mənfur düşmən tapdağından azad etdilər. Azərbaycan tarixində yeni səhifə açıldı.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük bacarıq və qətiyyətlə rəhbərlik etdiyi Qarabağ savaşı, Vətən müharibəsi xalqımızın Böyük Qələbəsi ilə başa çatdı. Dövlətimizin başçısı noyabrın 10-da gecə saatlarında Azərbaycan xalqına zəfər müjdəli müraciətində elan etdiyi Böyük Qələbə xəbəri ilə ölkəmizin və xalqımızın başı üzərində parlaq günəş doğdu. Müzəffər Ali Baş Komandanın dönməz iradəsi və ağıllı, düşünülmüş rəhbərliyi ilə Vətən müharibəsi başa çatdırıldı. Azərbaycan torpaqlarının işğalına birdəfəlik son qoyuldu. Bu, Azərbaycan tarixində təkrarolunmaz qələbədir.

Zəfər müjdəli müraciətində İlham Əliyev dedi: "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına!



Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü irada, milli ruh, texniki təchizat
– bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Yaşasın Azərbaycan!

Budur Lider! Budur Ali Baş Komandan! Budur yenilməz ordunun Sərkərdəsi! Budur yeni Azərbaycan tarixinin müəllifi, İlham Əliyev! Xalqına hər müraciətinin hər kəlməsi dəmir yumruq idi. O dəmir yumruq ki, hər çıxışında ermənilərə ən sərt məsajı idi. Xalqa müraciətləri tariximizə qızıl hərflərlə yazıldı. Azərbaycanın ilk qalib prezidenti statusuna fəxarətli çıxışları, siyasi-tarixi savadı sayəsində nail ola bildi. Vətən müharibəsində Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətləri gələcək nəsillərə birlik, vətənpərvərlik və səfərbərlik dərsləridir.

"Zəfər günü" Qarabağ torpaqlarının işğal tarixini Azərbaycan tarixindən sildi. "Zəfər günü" Azərbaycan xalqının əyilmiş qəddini düzəltdi. Ruhunda illərin torpaq ağrı-acısını daşıyan Azərbaycanın mərd, vətənpərvər oğulları bu gün Heydər Əliyevin yolunu davam etdirdi! Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın xarıbülbüllü Şuşa şəhərinin işğaldan azad olunduğu "Zəfər günü"ndə Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin abidəsinin önündə atasının vəsiyyətini yerinə yetirərək hesabat verdi.

İnanıram ki, Ulu Öndərimizin ruhu bizim Zəfər coşqumuzu görür və qalib Azərbaycan xalqı ilə fəxr edir! 12 dekabr 2003-cü ildə aramızdan cismən ayrılmış Ulu Öndərin simasında Qarabağ həsrəti ilə dünyadan nakam köçənlərimizin artıq ruhu şaddır!





Vətən uğrunda ən ali məqama çatan Şəhidlərimizin ruhu şaddır! Bu torpaqlarda artıq Azərbaycanın üçrəngli dövlət bayrağı dalğalanır və dalğalanacaq!

Bəli, mən bir baş böyüdüm. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi və Müzəffər ordumuzun qələbəsi ilə məni, mənim kimi milyonlarla məktəblini və bütün Azərbaycan xalqını sanki bir baş böyütdü. Bu gün əyilmiş başlar çiyinlərimizin üzərində dik və məğrur dayanır.

Yaşasın Azərbaycan!
Yaşasın Ali Baş Komandan!
Qarabağ Azərbaycandır!



**AYSU MƏMMƏDOVA**
*Xətai rayonu*
*64 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Təranə Məmmədova**

## QARABAĞ ZƏFƏRİ VƏ ONUN TARİXİ ƏHƏMİYYƏTİ

8 noyabr 2020-ci il Azərbaycan xalqının, Azərbaycan dövlətinin tarixində əbədi olaraq Zəfər günü kimi qalacaq. Bu zəfər gününün qazanılmasında müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin adı Azərbaycan tarixində işğal altında olan torpaqlarımızı qısa müddətdə azad edən sərkərdə kimi Azərbaycan tarixində əbədi qalacaq.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusu 44 gün ərzində işğal altında olan Azərbaycan torpaqlarını işğaldan azad edərək qəhrəmanlıq salnaməsini yazdı. Ordumuz öz gücü ilə torpaqlarımızı azad edərək öz hünərini bütün dünyaya göstərdi. Eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə qəbul etdiyi məlum qətnamələri yerinə yetirdi. Azərbaycan bu qələbəni qazanmaqla regionda lider dövlət olduğunu, Avrasiya məkanında, eləcə də dünyada söz sahibi olan bir ölkə olduğunu bir daha nümayiş etdirdi.





Bu ilin iyulunda Dağlıq Qarabağla birbaşa əlaqəsi olmayan Tovuz rayonu istiqamətində Ermənistan-Azərbaycan arasında dövlət sərhədində 3 gün çəkən döyüşlərdə Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev daxil olmaqla bir neçə hərbçimiz şəhid oldu.

Tovuzda baş verənlərdən və generalın ölümündən sonra minlərlə gənc səfərbərlik üzrə çağırış şöbələrinə müraciət edərək düşmənə qarşı mübarizədə iştirak etmək istədiklərini bildirirlər. Bu bizim üçün – Azərbaycan xalqı üçün qürurverici bir hiss idi. Bu yerdə Ulu öndər Heydər Əliyevin sözlərini fəxrlə deyə bilərəm: "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!"



Sentyabrın 27-də səhər saatlarında Azərbaycan Respublikası Müdafiə Nazirliyi cəbhədə Ermənistan tərəfindən təxribat törədilməsi nəticəsində ölən və yarananlar olduğu barədə bəyanat yaydı. Bundan sonra Azərbaycan tərəfi əks-hücum əməliyyatlarına başladığını bildirdi.

Cəbhədə döyüşlər başlandıqdan sonra Ermənistan tam, Azərbayacan isə qismən səfərbərlik elan etdi. Cəbhədə şiddətli döyüşlər getdiyi müddətdə Azərbaycan tərəfi oktyabrın 3-də ilk azad olunan əraziləri rəsmi elan etdi.

Prezident İlham Əliyev Tərtər rayonu ərazisindəki Suqovuşan (Madagiz) kəndinin və digər 7 kəndin azad olunduğunu açıqladı.

Oktyabrın 9-da Hadrut qəsəbəsinin və bir neçə kəndin işğaldan azad edildiyini dövlət rəhbərimiz xalqımıza çatdırdı və elə həmin gün Rusiyada 3 ölkənin xarici işlər nazirləri arasında 11 saatlıq davam edən müzakirələrdən sonra atəşkəs elan olundu, ancaq erməni separatçıları bir neçə dəqiqədən sonra atəşkəsi pozdular və cəbhədə döyüşlər səngimədi. Ordumuz düşməni taqətdən salmışdı. Onlar döyüş sursatlarını, tankları, zirehli maşınlarını qoyub qaçırdı. Artıq Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı rayonları işğaldan azad olunmuşdu. Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasında Şuşa şəhərinə nəzarəti ələ keçirmək uğrunda şiddətli döyüşlər gedirdi. 3 gün davam edən bu şiddətli döyüşlərdə Azərbaycan ordusu Şuşa şəhərini azad etdi, Xankəndi-Gorus yolu ələ keçirildi.



*Suqovuşan*

Ordumuzun ayrı-ayrı bölmələrinə Hikmət Mirzəyev, Zaur Məmmədov, Tehran Mənsimov kimi igid qəhrəman oğullarımız komandanlıq edirdilər.







Azərbaycanın Xüsusi Təyinatlı qüvvələri 7 noyabrda şəhərin qayalıqlarını dırmaşaraq yüngül silah-sürsat ilə Şuşaya daxil olmuşdular. Onlar tezliklə erməni qoşunlarını şəhərdən qovdular və 8 noyabrda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşanı işğaldan azad etdiyini bəyan etdi. Ertəsi gün Azərbaycan Müdafiyə Nazirliyi şəhərdən video yayımladı və Şuşanın tamamilə Azərbaycanın nəzarətində olduğunu təsdiqlədi. Azərbaycan ordusu Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi işğaldan təmizləməklə Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Döyüşlərdə bütün dünyaya Azərbaycan xalqının əzmi, Azərbaycan ordusunun doyüş qabilyyəti nümayış etdirildi.

Vətənpərvər xalqımızın bu taleyüklü sınaq dovründə də öz Prezidentini – Ali Baş Komandanını dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi.

"Ali Baş Komandanın bircə əmrinə müntəzirik" – deyən Azərbaycan döyüşcüsünün vədi hərb meydanında sübuta yetirildi.

Biz, bütün Azərbaycan xalqı səbirsizliklə ekran qarşısında oturub hər dəqiqə, hər saniyə yeni bir şad xəbər eşidəcəyimizə inanırdıq.

Şuşanın xilası əməliyyatı Azərbaycanın hərb tarixinə şərəfli, parlaq səhifə kimi yazılacaq. Şuşa qələbəsi Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əsil siyasətçi, diplomat və sərkərdə kimi fəaliyyətinin məntiqi nəticəsi idi. Bu uğur dövlətimizin siyasi, iqtisadi və hərbi qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi.

Tanksız, topsuz, artilleriyasız, dronların müşayəti olmadan 1500-1800 metr yüksəkliklərdə döyüşlər apararaq bu qala şəhərini yağılardan təmizləmək ordu bölmələrimizin heyrətamiz cəsarəti, şücaəti, güc-qüvvəti hesabına gerçəkləşib. Azərbaycan əsgəri Şuşanı duman içində, göz-gözü görməyən çətin hava şəraitində dağlardan keçərək qaytardı.

Bu, "... hər şey dronlarla edildi" deyənlərin nə qədər haqsız, ədalətsiz olduqlarını bir daha təsdiqlədi. Bu, Vətənə qayıdış, tarixə qayıdış idi. Şəhidi çiyinlərində, yaralını qollarında, döyüşə-döyüşə qan-tər içində nəfəsini belə dərmədən qalxırdı üzü yuxarı – Şuşaya doğru Azərbaycan əsgəri.

Azərbaycan Prezidenti müraciətində xalqa Şuşanın azad edilməsi müjdəsini verməsini həyatında olan ən xoşbəxt günlərdən biri olduğunu deyib:



"Mən bu gün eyni zamanda Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim ürəyimdə dedim, "xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim". Şuşanı azad etdik. Bu, böyük qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün. Gözün aydın olsun, Azərbaycan! Gözün aydın olsun, dünya azərbaycanlıları!"







Şuşa müjdəsi təkcə sentyabrın 27-dən bu yana işğal altındakı torpaqlarımızın azad edilməsi ilə bağlı növbəti qələbə xəbəri deyildi, həm də son 17 illik prezidentlik fəaliyyətinin sevinc, fərəh dolu bir günü, atanın –Ümummilli lider Heydər Əliyevin: "Mən ona özüm qədər inanıram" etimadının oğul tərəfindən doğruldulması, ata vəsiyyətinə ləyaqətlə əməl edilməsi və ötən illər ərzində yurd, torpaq uğrunda qanlarından-canlarından keçən şəhidlərimizin ruhları önündə hesabatı idi.

Bu qələbə sevinci həm də Laçın, Kəlbəcər və Ağdamın azad olunduğunu xəbər verirdi.



**QİYMƏT İSMAYILOVA**
*Xəzər rayonu*
*216 nömrəli tam orta məktəbin*
*XI sinif şagirdi*
**Elmi rəhbər: Şəfəq Həsənova**

## VƏTƏN MÜHARİBƏSİ-QARABAĞIN AZAD OLUNMASI

Bildiyimiz kimi, Azərbaycan torpaqlarına yönəlmiş işğalçı fikirlərin əsası uzaq keçmişə dayanır. Xüsusilə, 1988-1993-cü illərdə etnik zəmindəki təxribatlar, əsassız ərazi iddiaları, son olaraq Ermənistanın təcavüzü ilə Respublikamızın 20%-nin işğal edilməsi.

Nəhayət, 27 il sonra Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə "Dəmir Yumruq" əməliyyatının başlaması Azərbaycan tarixində yeni dövrün başlanğıcı oldu. 27 sentyabr 2020-ci il tarixində Ermənistan Silahlı Qüvvələrinin cəbhə zonasındaki genişmiqyaslı təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatı II Qarabağ müharibəsinə çevrildi. 3 oktyabrdan başlayaraq Suqovuşan su anbarı,Tərtər rayonunun Talış, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndlərinin azad olunması ilə hər gün müəyyən strateji yüksəkliklərimiz, torpaqlarımız azad edildi.

Ermənistan Silahlı Qüvvələri tarix boyunca olduğu kimi yenə Azərbaycan ordusu qarşısındaki acizliyini 11 oktyabrda Gəncədə, çox keçmədən 28-27 oktyabrda Bərdədə törətmiş olduğu qanlı terror təxribatları ilə bir daha göstərmiş oldu.





Düşmən tərəfindən törədilən terror aktları arasında bunlar nə ilk nə də son idi. Müharibə ərzində Gəncə şəhəri ayrı-ayrı vaxtlarda insanlıq əleyhinə təxribatlara məruz qaldı. Hər birində həyatını itirən mülki şəxslər arasında azyaşlılar da var idi. Bütün sübutlara baxmayaraq Ermənistan tərəfi hücumların onların tərəfindən olduğunu inkar etdi. Qondarma Dağlıq Qarabağ rəhbərliyi isə yalnız birinci hücumun məsuliyyətini öz üzərinə götürdü. Bir sözlə, düşmən "cinayətkarlıq" mövqeyindən çıxış etdiyini bir daha xatırladaraq özünə yaraşanı etdi. Ordumuzla qarşı-qarşıya gəlmək cəsarətindən və insanlıq anlayışından yoxsul olduqları üçün dinc sakinlərə hücum edib, daha sonra inkar etdilər.



*Gəncə terroru*



*Bərdə terroru*

Törədilən bu cinayətlər XX əsrin əvvəllərində baş verənləri xatırladır. Bu terrorçuların 1905-1906-cı illərdə İrəvan, Gəncə, Şuşa, Cəbrayıl və Zəngəzurun azərbaycanlı kəndlərini talan etməsi,



*Yuxarı Gövhər ağa məscidi*

Birinci Dünya müharibəsindən sonra 1918-1920-ci illərdə sırf milli mənsubiyyətinə görə minlərlə dinc sakini qətlə yetirməsi, 28 may 1918 ci ildə AXC-nin yaradılmasının da qurbansız ötüşməməsi, əsrin ortası və sonlarında daşnak ideyası ilə uşaq,qadın, yaşlı demədən törədilən qətllər, görülməmiş vəhşiliyin olduğu Xocalı soyqırımı Beynəlxalq hüquqdan kənar,təcavüzkar siyasəti bir daha sübut edir.

Müzəffər Azərbaycan ordusu "cinayətkarları" cəbhədə layiqincə cavablandıraraq əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda qəhrəmanca savaşdı. Bu uğurda hərbi hazırlıqla paralel diplomatiya və informasiya cəbhələrində də uğurlu fəaliyyət qələbəyə gedən yolda əsas amillərdən idi. Azərbaycan xalqı bunun da öhdəsindən gələrək sahib olduğu gücün "Vətən sevgisi" olduğunu bütün dünyaya göstərdi. Beləliklə, 8 noyabrda Şuşa şəhərinin azad olunması ilə artıq Ermənistan ordusu Dağlıq Qarabağda nəzarəti itirdiklərini etiraf etdilər.





10.11.2020-ci il Qələbə tarixidir. Cənab Ali Baş Komandanın mükəmməl strategiyası ilə reallaşan 44 günlük II Qarabağ müharibəsi srateji və taktiki baxımdan unikaldır. İstifadə edilən yeni idarəetmə texnologiyaları dünyanın ən nəhəng qurumlarından biri - ABŞ Müdafiə Nazirliyi tərəfindən tədqiq edilir, ekspertlər isə bu müharibəni XXI əsrin müharibəsi olaraq dəyərləndirirlər. Bu maraq təəccüblü deyil, çünki Azərbaycan əsrlər boyu yaşayacaq, əsərlərə mövzu olub nəsildən-nəslə ötürüləcək, tarix sətirlərində əksini tapacaq tarix yazdı. Artıq bütün dünya görmüş oldu ki, Azərbaycan hərtərəfli inkişaf etmiş bir ölkədir.



Azərbaycan tarix boyunca bugünkü Azərbaycan olmaq yolunda çox çətin zamanlardan keçmişdir. Bəli, bu gün -1918ci il 9 noyabr, 1918-ci il 28 may, 1991-ci il 18 oktyabr tarixləri tariximizdə qızıl hərflərlə yazılıb. Azərbaycan bu uğurda minlərlə can qurban vermişdir, lakin məğrur duruşunu pozmamış,əsrlər boyu sarsılmamışdır. Bu torpaqlar üzərində heç yoxdan bir dövlət qurulmuş, bir çox müşkülatla üzləşərək şanlı bayrağımız yüksəldilmiş, müstəqilliyimiz əldə edilmiş və "Vətən" dediyi-

miz o yer inşa edilmişdir. Bu baxımdan bir qrup cinayətkarın "Dağlıq Qarabağ əzəli Ermənistan torpaqlarıdır" deməyi kifayət qədər gülünc və əsassızdır. Onlar sadəcə təcavüzkar siyasət anlayışı ilə tanış olub, "dövlət" statusu alıb sırf terror təxribatları törətməklə məşğul olduqlarından "işğal etmək" və "inşa etmək" ifadələri arasındaki fərqi aydınlaşdıra bilmirlər. Üzərində səbrlə,əzmlə heç nə inşa etmədən sadəcə qətl,cinayət,soyqırım və adlandırılmağı mümkün olmayan vəhşilikləri törədib işğal etdikləri,işğal etdikdən sonra da viran etdikləri torpaqları onların əzəli torpaqları olduğunu iddia etmək tam olaraq "cinayətkar" mövqeyə yaraşan hərəkətdir.

Cənab Prezident İlham Əliyev bu gün bütün Azərbaycanı bir "Dəmir Yumruq"da birləşdirərək, uzaqgörən və mükəmməl strategiyası ilə ərazi bütövlüyünü bərpa etdi. Vətən uğrunda canlarını əsirgəməyən, Şəhid olaraq əbədiyyətə qovuşan qəhrəmanlarımızın, rəşadətli ordumuzun igidliyi bizlərə və sonraki nəsillərə Azərbaycanlı olmağın necə böyük bir şərəf olduğunu daim xatırladacaq.

Ərazi bütövlüyünün bərpası uğrunda Cənab Prezident İlham Əliyevin mükəmməl strategiyası, şəhidlik zirvəsinə ucalmış igidlərin fədakarlığı, müzəffər Azərbaycan ordusunun əzmi və xalqımızın həmrəyliyi gələcək Azərbaycanın təməlidir.

II Qarabağ müharibəsində torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda göstərilən şücaət eyni ilə I Qarabağ müharibəsində olduğu kimidir.Biz illər öncə xalqımızın torpaqlarımızın keşiyində əli silahsız halda tanklar qarşısında məğrur duruşunu da,bu gün dağları aşaraq, heç bir çirkin əmələ məhəl qoymadan eyni məğrurluqla o torpaqlara bayrağımızı sancmağını da unutmayacağıq. Bu qürur və fərqindəliklə Azərbaycan xalqı daim Azərbaycanın keşiyindədir!

Yaşasın qəhrəman övladın şanlı Vətəni!

Qarabağ Azərbaycandır!





**FİDAN VALEHLİ**
*Qaradağ rayonu*
*288 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Narınc Babayeva**



## ŞUŞA ƏMƏLİYYATI – MUSİQİ BEŞİYİNİN AZAD OLUNMASI

Xalqımız qədim tarixi köklərə malik bir xalqdır. Ta qədim zamanlardan öz milli-mənəvi dəyərləri ilə diqqət mərkəzində olmuş, yaratmış, abad etmiş və yaşatmışdır. Bölgədə digər xalqlarla dinc yaşam prinsipini əsas tutmuşdur. Lakin torpaqlarımız hesabına özünə ölkə qurmuş, zaman-zaman, hissə-hissə ərazilərimizi zəbt etmiş Ermənistan 1992-1993-cü illərdə Azərbaycanın dilbər guşəsi olan Qarabağı, o cümlədən Şuşanı işğal etdi.

Qarabağ Azərbaycan təbiətinin nadir gözəlliklərini, xalqımızın maddi və mədəni irsini və adət-ənənələrini özündə əks etdirən füsünkar diyardır. Qarabağ təkcə özünün nadir gözəlliyə malik xalçaları, Qarabağ atları, Avropaya, Rusiyaya ixrac edilən ipəyi, zərgərlik məmulatı ilə deyil, nadir təbiəti və müalicəvi suları ilə də məşhurdur. Sərt dağlarla, meşələrlə əhatələnən və toponimikası Azərbaycan dilində "Qarabağ" – "böyük bağ" mənasına gələn bu diyarın paytaxtı isə qədim Pənahabad – **Şuşa şəhəri** olmuşdur.



*Şahbulaq qalası*

XVIII əsrin ortalarına yaxın Azərbaycanda müstəqil xanlıqlar dövrü başlamışdır. Qarabağ xanlığının hökmdarı Pənahəli xan ərazini düşmənlərdən qorumaq məqsədi ilə xanlığın ən strateji yerlərində müdafiə qalaları tikdirmişdir. 1748-ci ildə Bayat, 1752-ci ildə Şahbulaq qalasını tikdirir. Amma Pənahəli xan müharibələr dövründə əhalinin sığınması üçün daha etibarlı, üçtərəfli keçilməz sıldırım qayalarla əhatə olunmuş yeni bir qala ucaltmaq qərarına gəlir. Qala əvvəllər öz banisinin adı ilə Pənahabad, sonralar isə Şuşa qalası adlandırılmağa başlanır.

Beləliklə, Şuşa yeni inkişaf mərhələsinə qədəm qoyur. Şəhərdə mədəniyyət, incəsənət inkişaf etməyə başlayır, mədrəsələr şəhər əhalisinin ixtiyarına verilir, bənzərsiz, təkrarsız məscidlər tikilirdi. Bir sözlə, şəhər mədəni cəhətdən çiçəklənməyə başlamışdı.

XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrildi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın Konservatoriyası» adlandırırdılar.

Təməli 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhərinin inzibati statusu, sovet hakimiyyəti





dövründə bir neçə dəfə dəyişikliyə məruz qaldı. Şuşa şəhərinin ərazisi qədim abidələrlə zəngin idi. Şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr olmuşdur. Şəhərdə 17 məhəllə bulağı və məscid, 6 karvansaray, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi.

Bu maraqlı şəhərə gələn turistlərin ən çox getdikləri yerlərdən biri də əvəzsiz təbiətə malik Cıdır düzü idi. Vaxtilə cıdır yarışlarının keçirildiyi, Novruz bayramının qeyd edildiyi Cıdır düzündə hər ilin may ayında "Xarı Bülbül" mahnı festivalı keçirilirdi.

Təbii ki, Yaxın və Orta şərq ölkələrinə, o cümlədən Avropa-




ya səs-səda salan bu şəhərin "Zaqafqaziyanın Konservatoriyası" adını alması əbəs deyildi. Bu tarixi şəhər illər, əsrlər ötdükcə adları yaddaşlardan silinməyən kimləri yetişdirmədi ki? Hər biri öz dəst-xətti ilə Azərbaycan sənətində silinməz izlər qoyan bir çox sənətkarın vətəni məhz bu şəhərdir. Azərbaycanın görkəmli rəssamı Mir Möhsün Nəvvabın, "Sosialist əməyi qəhrəmanı" Rəşid Behbudovun, bir vaxtlar Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri olmuş Soltan Hacıyevin vətəni ŞUŞADIR... Ləqəbini haqqı ilə qazanan Bülbülün, "Çahargah"ı böyük məharətlə oxuyan Seyid Şuşinskinin, Azərbaycan musiqi sənətinin incilərini yaradan Zülfü Adıgözəlovun, Azərbaycanda ilk baletin müəllifi Əfrasiyab Bədəlbəylinin və digərlərinin sənət qoxan bu torpaqda yetişməsi təsadüfüdürmü? Ola bilməz... Bö-

yük rus tədqiqatçısı V.Vinoqradov çox doğru demişdir: "Şuşa musiqi istedadlarının beşiyi idi. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər".

Çox təəssüf ki, bu gözəl şəhər 1992-ci il may ayının 8-də mənfur ermənilər tərəfindən işğal edilmişdir. Şuşanın işğalı nəticəsində 195 nəfər günahsız Azərbaycan vətəndaşı qətlə yetirilmiş, 165 nəfər ciddi yaralar almışdır. 552 məsum körpə valideynlərini itirmişdir. 20.000-dən artıq əhali isə öz doğma yurd-yuvasını tərk etmək məcburiyyətində qalmış, məcburi köçkün vəziyyətinə düşmüşdür.

Dahi Üzeyirin, Bülbülün, Xan qızı Natavanın doğma şəhəri hansı acıları yaşamadı? Qarabağ xanlığının mərkəzi, alınmaz qala, Pənahəli və İbrahim xanın yadigarı olan bu şəhərə edilən vandalizm, bəşəriyyətə qarşı edilən vəhşilik aktı deyilmi?

Amma təbii ki, bu belə qalmadı! 8 Noyabr 2020-ci ildə bu diyar azad edildi. Biz bu xəbəri möhtərəm Prezidentimiz İlham Əliyevin dilindən eşitdik. Xalqımızın ürəyindəki bu dərdə son qoyan kəlmələri Prezidentimiz cənab ilham Əliyev böyük fəxarət və qürur hissi ilə xalqına çatdırdı. Həmçinin, Prezidentimiz İlham Əliyev Şuşanı Azərbaycanın mədəniyyət mərkəzi elan etdi. İlham Əliyev: "Mən Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir!"

Eyni zamanda Prezidentimiz "Xarı Bülbül" festivalını və "Vaqif poeziya günləri"ni də unutmadı. Tez bir zamanda Şuşada yenə hər il "Xarı Bülbül" festivalı keçiriləcək və "Vaqif poeziya günləri" bərpa olunacaq.

Bu gün artıq AZAD ŞUŞAMIZIN günüdür.

*Vətən bağı al əlvandır*
*Var içində xarı bülbül.*








Şuşa döyüşləri bizim əzəmətimizi, gücümüzü, əsgərimizin rəşadətini həm düşmənə, həm də bütün dünyaya göstərdi. Düşmən Şuşanı bir il dayanmadan müdafiə edə biləcək sayda silah-sursat və canlı qüvvə ilə təmin edilmişdi. Şuşa şəhidlərimizin qanı bahasına, kişiliyi, qorxmazlığı bahasına bir neçə saatda alındı.

Bu müharibədə cənab Prezident özünü məharətli sərkərdə kimi göstərdi. Bu qələbənin, bu zəfərin iştirakçıları, müşahidəçiləri olaraq biz bunu görürük. Ölkəmizin zəfərində bütün Azərbaycan xalqının mühüm rolu var. Xalq Ali Baş Komandanın ətrafında sıx şəkildə birləşərək yumruğu bir yerə vurdu. Sözsüz ki, müharibə dövrünün şah əməliyyatı Şuşada keçirilən əməliyyatdır. Məhz bu əməliyyat düşmənin ürəyinə saplanan bıçaq oldu, onun diz çökməsinə gətirdi.

Şuşa işğal olunmuş Azərbaycan ərazlərinin ən yüksək nöqtələrindən biri, bəlkə də birincisidir. Onun azad olunması əməliyyatı da Böyük Vətən müharibəmizin zirvə nöqtəsidir. Şuşa döyüşünə qədər Ordumuzun qələbələrini inkişaf etmiş texnologiyalardan, döyüş vasitələrindən istifadə ilə bağla-

yırdılarsa, bu şəhər uğrunda gedən döyüş hərbçilərimizin də yüksək döyüş qabiliyyətinə malik olduğunu ortaya qoydu. Bundan sonra heç kim iddia edə bilməz ki, Azərbaycan döyüşlərdə dronlar hesabına qələbə qazandı. Şuşa elə bir yerdir ki, oranı 5-10 günlük hazırlıqla azad etmək mümkün deyildi. Bunun üçün illərlə hazırlıq keçilməsi lazım idi. Möhtərəm Ali Baş Komandanın nəzarəti altında Azərbaycan Ordusu bu hazırlığı keçmiş, hər cür mürəkkəb relyefdə, hava şəraitində döyüşmək bacarıqlarına yiyələnmişdi.

Ümumiyyətlə, Azərbaycanın Vətən müharibəsi müasir döyüş tarixində tamamilə yeni bir səhifənin əsasını qoydu. Əməliyyatların zirvəsində gələn Şuşa döyüşü isə vaxt gələcək kinolara çəkiləcək, ən müxtəlif səviyyələrdə araşdırılacaq, haqqında onlarla əsərlər yazılacaq.

Vətən bağı qələbə qoxur və Vətən oğullarını salamlayır. 8 may 1992 yox, məhz 8 noyabr 2020-ci il. Artıq biz hər il Şuşanın dərdindən ürəyimizdə əzab çəkməyəcəyik! Azərbaycan Şuşasına qovuşdu. Kədəri közə dönmüş gözlər artıq gülür. Azərbaycan torpaq uğrunda şəhid olmuş igidlərinin bu gün qanını yerdə qoymadı! Qisasını aldı! 28 illik vətən həsrəti, sevinc hissləri ilə əvəzləndi. Referatımı Prezidentimiz İlham Əliyevin xalqımızın sevinc göz yaşlarına səbəb olan sözləri ilə bitirmək istəyirəm:

*"Əziz Şuşa,sən azadsan!*
*Əziz Şuşa,biz qayıtmışıq!*
*Əziz Şuşa biz səni dirçəldəcəyik!"*







**RƏVAN ABDİNLİ**
*Səbail rayonu*
*160 nömrəli klassik gimnaziyanın*
*X sinif şagirdi*
**Elmi rəhbər: Gülsurə Babayeva**

## AZAD EDİLMİŞ TORPAQLARIN GENİŞ POTENSİALINDAN İSTİFADƏNİN ÖLKƏMİZİN GƏLƏCƏK İNKİŞAFINA TƏSİRİ İMKANLARI

Qarabağ iqtisadi cəhətdən çox zəngin bir bölgədir. Qarabağ 2 iqtisadi rayonun ərazisini əhatə edir: Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları.

**Yuxarı Qarabağ iqtisadi rayonu**

Bu rayon Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonlarını və Xankəndi şəhərini əhatə edir. Öncə Şuşa şəhəri haqqında danışmaq istərdim. Burada alban məbədləri, qala divarları, iqamətgahlar, ev muzeyləri, Daşaltı dərəsi, mağaralar buranın maraqlı tarixi-memarlıq və təbiət abidələridir. Şuşa şəhəri



yaxınlığındakı gözəl mənzərəli sıx meşədə yerləşən İsa bulağı Azərbaycanın ən məşhur istirahət yerlərindən biri olmuşdur.

Yenidənqurma və abadlaşdırma işləri nəticəsində Şuşa Azərbaycanın turizm mərkəzi olacaq. Qış və yay turizmi üçün burada çox əlverişli iqlim şəraiti var. Bu da fasiləsiz olaraq ilin hər günü ölkəyə turist axınını təmin edəcək. Həmçinin, bu dağ turizmi üçün cığır açır.



Cəbrayıl rayonu ərazisindəki Xudafərin körpüləri bölgənin çox qiymətli memarlıq abidələrindəndir.

Burada hazırda tikilməkdə olan Xudafərin lahiyəsi – "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyasını özündə birləşdirir. Hidroqovşaqlar iqtisadi ərazinin kənd təsərrüfatı sahələrini su ilə təmin edəcək. Və eyni zamanda tikilən su elektrik stansiyası isə Mingəçevir su elektrik stansiyasının üzərinə düşən yükü azaldacaq.

Yeni iş yerlərinin açılması isə işsizliyin azaldılmasına və iqtisadi inkişafa nail olunmasına gətirib çıxaracaq.

Yuxarı Qarabağ iqtisadi rayonunda iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edir. Üzümün məhsuldarlığına görə iqtisadi rayon xüsusilə seçilir. İqtisadi rayonun ən əlverişli bölgələrindən biri də Füzulidir. Dövlət başçısı İlham Əliyevin göstərişi ilə Füzuli rayonunda beynəlxalq hava limanının tikintisinə başlanıb. Bu ilin yanvar ayının 15-dən Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsində çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqəndiriləcək və bu yoldan İsa bulağına yeni yol çəkiləcək. Dövlətimizin başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva yolun təməlini qoydular. Prezidentimiz isə limanının əsas məqsədinin xarici qonaqların Şuşaya gəlişini təmin etmək olduğunu vurğuladı.

Qarabağın tranzit əhəmiyyətindən istifadə etmək üçün digər nəqliyyat yollarının da çəkilməsi planlaşdırılıb.

**Kəlbəcər-Laçın iqtisadi rayonu**

Bu iqtisadi rayon Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarını əhatə edir. Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı və mineral ehtiyatlar təşkil edir.

İqtisadi rayon ərazisində qızıl, civə, mərmər, üzlük tikinti daşları, perlit faydalı qazıntı ehtiyatları vardır. Rəsmi hesablamalara görə, işğaldan azad olunan iqtisadi rayonlarda 155 müxtəlif növ mineral yataqları mövcuddur.

Zəngilan rayonu iqtisadi və coğrafi nöqteyi-nəzərdən əlverişli potensiala malikdir. Zəngilan rayonu coğrafi müxtəlifliyi ilə turizm potensialına malik ərazilərdəndir. Avropada misli olmayan Şərq çinarları, qoz və digər qiymətli ağaclar bu zonada yerləşir. Eyni zamanda Zəngilan rayonunda birinci "ağıllı kənd" layihəsi icra ediləcək. Artıq ilkin araşdırmalar aparılıb.

İqtisadiyyatda tikinti sektorunun aparıcı roluna malik olduğunu nəzərə aldıqda daxili tələbin qarşılanmasında Zəngilan və Kəlbəcər rayonlarının təbii sərvətləri əhəmiyyətli rol oynayacaqdır. Zəngilan rayonunda sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vejnəli yatağından istifadə ilə ölkəmiz mineral resurslar ixracını daha da artıracaqdır. Kəlbəcərdə olan Zod qı-

zıl yataqları ölkədə bu sahədə yeni inkişaf templərinə səbəb olacaq. Ölkənin yeni qızıl yataqlarının istismara verilməsi gələcəkdə Azərbaycan üçün müsbət nəticələr verəcəkdir.



Bu faydalı qazıntılardan istər hasilat, istərsə də emal məqsədli istifadə edərək büdcə gəlirlərinin artırılması planlaşdırılıb.

Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən civə, xrom yataqları ilə zəngindir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Kəlbəcər rayonunun İstisu qəsəbəsindəki müalicəvi əhəmiyyətli mineral suların kimyəvi tərkibi bəzi göstəricilərə görə dünya şöhrətli suların tərkibindən daha üstündür. Bu sular həm daxili, həm xarici bazar üçün nəzərdə tutulur. Bu gün İstisu öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə dünyada məşhur olan Karlovı-Varı bulaqları ilə eynidir və bir çox digər xüsusiyyətlərinə görə dünyada yeganədir.





Laçın şəhəri də iqtisadi rayonun önəmli şəhəri hesab edilir.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq təşkil etmişdir. Laçın rayonunun da mineral bulaqları məşhur Narzan suyu ilə müqayisə olunur. Eyni zamanda burada müalicə mərkəzləri və kurortların yaradılması üçün imkan var və bunun üçün vəsait ayrılmışdır.

Laçında beynəlxalq hava limanının tikintisi ilə əlaqədar tədbirlərin görülməsi planlaşdırılır.

Fevral ayının 15-də Prezidentimiz işğaldan azad olunmuş bölgələrə səfər edərkən qeyd etdi ki, Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik.

Uğurlu siyasəti və möhtəşəm Zəfəri ilə böyükdən-kiçiyə hər birimizin sevgisini qazanan Ali Baş Komandanımız İlham Əliyev Qarabağ bölgəsini dirçəldəcəyinə, bu səfalı yerləri dünyaya tanıdacağına söz verib və sözünə əməl edəcəyinə əminik.

Gələcəyin kadrları olaraq azad edilmiş torpaqlarımızın qədrini biləcəyik, həmin bölgələrdə lazım gəlsə, könüllü işləyib gələcək nəsillərə əzəmətli Qarabağın yüksəlişini göstərəcəyik.



**NƏZRİN XANKİŞİYEVA**
*Nəsimi rayonu*
*Bakı Slavyan Universiteti*
*Məktəb-lisey Kompleksinin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Adil Abdullayev**

## VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANLARI

"Ey qəhrəman övladın şanlı Vətəni!" Haradan başlanırsan sən? "El-oba" deyildikdə gözləri yaşla dolan ailəmdənmi, həsrətinlə yaşayan insanlardanmı, sütunlarını mərd çiyinləri üzərində daşıyan oğullarımızdan, ya öz qanını vətən torpağına qatıb ən uca zirvəyə yüksələn şəhidlərimizdənmi? Böyüyürəm və böyüdükcə anlayıram ki, vətəni vətən edən qəhrəman – polad ürəkli mübariz oğullardır. O sadəcə 5 hərfdən ibarət məfhum və yaxud müəyyən sərhədlərə malik coğrafi məkan deyil. Anadır, atadır, yurd-yuva, el-oba, ailədir vətən. Əqidəsi möhkəm, iradəsi güclü olan vətənpərvər insanlardır vətən. Hansı ki, bu insanlar vətən yolunda gözlərini qırpmadan, geridə qoyduqlarını düşünmədən qanlarıyla dastan yazıb öz canlarını fəda etdilər. Hər birimizin könlündə qəhrəman kimi əbədi iz qoydular.

***Minlərlə can qurban oldu,***
***Sinən hərbə meydan oldu!***
***Hüququndan keçən əsgər***
***Hərə bir qəhrəman oldu!***





Bir deyim var ki, dünyaya gələndə heç kim qəhrəman kimi gəlmir. Bu həqiqətən də belədir. Qəhrəmanlar döyüşdə doğulub orada böyüyür. 44 günlük Vətən müharibəsində bütün dünya bir daha şahid oldu ki, Azərbaycanın növbəti qəhrəmanları məhz Qarabağımızda doğuldu.

Bu müharibə 2016-cı ildə baş vermiş Aprel döyüşlərinin tamamlanmamış qələbəsi idi.



Bu zəfəri qazanmış oğullarımız adına, özünə, çöl-düzünə "vətən" deyib Azərbaycanın döyünən ürəyi olan Qarabağı bağrına basaraq mənfur düşmən işğalından azad etdi. Qarabağa sahib çıxaraq 3 rəngli bayrağımızı dalğalandırdı. O andan etibarən daha Şuşa, Xocalı qan ağlamır. Zəngilan, Cəbrayıl göz yaşı tökmür. Kəlbəcər, Laçın od tutub yanmır. Füzuli, Ağdam, Ağdərə ah çəkmir. Çünki onlar artıq azaddır. Ali Baş Komandan İlham Əliyev və bu vətənin qeyrətli oğulları – şəhid, qazi əsgərlərimizin sayəsində neçə illik həsrətdən sonra Cəbrayıl 4 oktyabr, Füzuli 17 oktyabr, Zəngilan 20 oktyabr, Qubadlı 25 oktyabr, Şuşa 8 noyabr, Ağdam 20 noyabr, Kəlbəcər 25 noyabr, Laçın 1 dekabr 2020-ci il tarixində onlar bizə, biz onlara qayıtdıq.

Qovuşduğumuz torpaqların hər addımında şəhid qanı, hər zirvəsində şəhid ruhu var. Necə deyərlər, torpaq uğrunda ölən varsa, vətəndir. O vətən ki, ölümün gözünə dik baxan cəbrayıllar, dillərə dastan olan xudayarlar, əfsanəyə çevrilən poladlar, adının mənası kimi sözünü tutub vətən yolunda can verən ilqarlar yetişdirib, şəhid verib. O şəhid ki, Azərbaycanın bütövlüyü, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək ən şərəfli və qürurlu zirvəyə ucaldı. O şəhid ki, ölsəm də, qoynunda qoy ölüm ki, mən, çürüyüm, bir ovuc torpağın artsın – deyərək öz şəhadətinə qovuşdu.



Bu yolda canından keçən 3000-ə yaxın şəhid qardaşlarımıza və 1 şəhid bacımıza hamımız borcluyuq. Anası Səmayə xanımın da vurğuladığı kimi səngər generalı olan Polad Həşimov, illərdir, həsrətində olduğu qızı Narini bir dəfə də olsun görüb qucağına ala bilməyən Yaşar Babayev, az yaşına baxmayaraq nifrəti düşmənə bitib-tükənməz olan Cəbrayıl Dövlətzadə, hələ 23 günlük olarkən atasını itirən, kiçik qəlbinə sığdırdığı böyük arzuları yarıda qalan, dastan olan Xudayar Yusifzadə və digər bütün şəhidlərimiz xalq olaraq bizə və gələcək nəsillərə əsl mərdlik, qorxmazlıq, vətənpərvərlik nümunəsi göstərdi. İki





övladını anasına əmanət edərək öz qardaşlarını bu çətin günlərdə yalnız qoymaq istəməyən hərbi tibb bacısı kimi çalışan şəhid Arəstə Baxışova isə bizə incə qadın ruhunda yatmış kişi qeyrətini göstərdi. Cənnət mələyi şəhidlərimizi unutmuruq, unutdurmayacağıq!



*Milli Qəhrəman Şükür Həmidov*

Ey şəhidim, haqqını mənə halal et! Halal et ki, rahat gəzə bilim Cıdır düzündə sənin ayaqlarınla. Başı dumanlı Şuşanın dağlarını rahat seyr edə bilim sənin gözlərinlə. "Vətən gözəldir" mahnısını oxuya bilim sənin səsinlə. Ölənə qədər yaşaya bilim sənin ruhunla. Halal et, şəhidim!

Vətən qəhrəmanlarımız yalnız şəhidlərimizdən ibarət deyil. Qazilərimiz və əsgərlərimiz də bu vətənin qoruyucuları, müdafiəçiləri, qəhrəmanlarıdır. Bu müharibədən sonra Qarabağımız qazilərimiz üçün tutan əl, gəzən ayaq, görən göz, eşidən qulaq, danışan dil oldu. Qazilərimiz artıq yaralarına məlhəmi, özlərinə təsəllini Qarabağda tapdılar.

Vətənimin cəsur qazilərinizdən biri də qardaşım kimi görüb-sevdiyim Əsgərov Orxandır. O, Şuşa uğrunda gedən ağır döyüşlərdə çənəsini itirib. Bundan başqa danışıq qabiliyyətini itirən Yaqubov Rauf, Dadaşov Əli, ayağını itirən Hacıyev Sənan, Əhmədzadə Mobil, gözlərini itirən Hüseynov İsmayıl və başqa qazilərimiz də xalq olaraq unutmayacağımız igid qəhrəmanlarımızdır.

Əsir düşmüş Amin Musayevin dediyi sözlər isə müharibənin ürək dağlayıcı izlərindəndir. Amin deyir ki, əsir düşmək-

dənsə şəhid olub torpağa qarışmağı üstün tutardım. 33 gün əsir olduğu müddət ərzində dövlətimizin güclü siyasətinə inanaraq vətənə geri dönəcəyinə ümid edirdi. O, çox heyifsilənir ki, Qarabağ zəfərini vətənə geri döndükdən sonra bilib.



*Polkovnik Babək Səmidli*

Xüsusi təyinatlı zabitlərimiz Ordumuzun görən gözü, vuran qolu, düşünən beyni hesab olunur. Buna sübut olaraq əsgərlərlə çiyin-çiyinə vuruşan Şuşa fatehi Hikmət Mirzəyev, polkovnik Tehran Mənsimov, şəhid polkovniklər Şükür Həmidov, Babək Səmidli və bütün əks-hücum əməliyyatlarında iştirak edən Mais Bərxudarovun adını çəkmək mütləqdir.

Vətənin keşiyində dayanan, gecə-gündüz demədən yağı düşmənin torpaqlarımızda qoyduğu izləri yox etməyə çalışan əsgər, zabit, generallarımız var. Onlardan bir çoxunu yaxından tanıdığım üçün müharibə haqqında bir çox şeyin şahidi və demək olar ki, hər dəfə mən də müharibənin içərisində, səngərdə dayanan bir əsgər oluram. 44 günlük Vətən müharibəsindən sonra biz hamımız şəhid, qazi, əsgər ailəsiyik. Mən də bu gün şəhid, qazi, əsgər bacısıyam. Belə mərd, qorxmaz, qeyrətli oğullar, qızlar yetişdirən bu torpağın, bu diyarın – Azərbaycanın qızı olduğuma görə fəxr edirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adı və "Vətən uğrunda" medalları verilmişdir. General-mayor Məmmədov Zaur Sabir oğlu, 1-ci dərəcəli kapitan Quliyev Zaur Hikmət oğlu, polkovnik Cahangirov Ələkbər Məhəmməd oğlu, baş gizir Hüseynov Yaşar Əhəd oğlu və ümumən, 83 nəfər qəhrəmanımıza "Vətən müharibəsi Qəhrəmanı" adı verilmişdir. Baş gizir Yusifli Azər Nazim oğlu, kiçik gizir Cabbarov Orxan Rövşən oğlu, kiçik miçman Zalov Fəqan Amil oğlu, baş leytenant Hümbətov Azad Arif oğlu və digər şəhidlərimiz ölümündən sonra bu adla təltif olunmuşdur.







*Polkovnik Tehran Mənsimov*

Hal-hazırda vətənin keşiyində duran igid qəhrəmanlarımız da vardır ki, onlar da müxtəlif medal və ordenlərlə təltif olunmuşdur. Vətən müharibəsindən sonra könüllü əsgər Ağazadə Azər Şahbələd oğlu Füzuli, Xocavənd, Zəngilan, Cəbrayıl, kapitan Seyidli MirFamil Azad oğlu Xocavənd, Füzuli, kiçik Çavuş Məmmədov Səməd Rəcəb oğlu Füzuli, Cəbrayıl, Xocavənd, əsgər Musayev Malik İxtiyar oğlu Füzuli, Cəbrayıl, Şuşa, baş leytenant Əhədov Tural ölümündən sonra Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, əsgər Nəzərli Vasif Zahid oğlu ölümündən sonra Şuşa, Füzuli, Cəbrayıl, Zəngilanın azad olunması uğrunda medallarla təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi iştirakçısı olan hər bir hərbçilərimizə xüsusi diqqət ayırır. Onlara böyük qayğı və məhəbbətlə yanaşır. Bunun nəticəsində qəlbi vətən eşqiylə döyünən hər bir azərbaycanlı vətən qəhrəmanları ilə fəxr edir. Onlar üçün şeirlər, kitablar yazır, mahnılar bəstələyir, filmlər

çəkirlər. Qəhrəmanlarımızın adlarına küçələr, parklar salınacaq. Yeri gəlmişkən, qeyd edim ki, qardaş ölkə Türkiyə də Azərbaycan Silahlı Qüvvələrinin generalı Polad Həşimovun adını əbədiləşdirmiş və onun adına Bursada park salınmışdır.

Ən nəhayət, xüsusilə qeyd etmək istəyirəm ki, mən özüm də qarabağlıyam. Zəngilan rayonunun Ağbənd qəsəbəsindən. Məcburi köçkün ailəsində böyümüşəm. 15 ildir ki, o yerləri görmə arzusuyla yaşayıram. Vətən eşqiylə. Lakin 20 oktyabr 2020-ci il tarixindən etibarən mən artıq məcburi köçkün yox, azad torpağın azad qızıyam. Bunu isə İlin sərkərdəsi, Ali Baş Komandan İlham Əliyev və müzəffər Azərbaycan ordusuna borcluyam. Hər birinə təşəkkür edirəm. Zəngilanı mənə, məni Zəngilana qaytardılar.

Alman filosofu Fridrix Nitsşenin də dediyi kimi, şəxsiyyətləri tarix yaratmır, şəxsiyyət tarixi yaradır. Azərbaycanın 44 günlük müharibə tarixini də cənab Ali Baş Komandan İlham Əliyev və onun əmri ilə Azərbaycan ordusu yazdı.

Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan ordusu! Qarabağ Azərbaycandır!





**AYXAN ƏZİZOV**
*Pirallahı rayonu*
*186 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Həcər Ramazanova**



## İLHAM ƏLİYEV – MÜASİR AZƏRBAYCAN

Avropa və Asiya qitələri arasında yerləşən və buna görə də əhəmiyyətli strateji mövqeyi olan Azərbaycanın müstəqillik dönəmində sürətli inkişafı, xüsusən son illərdə ölkədə baş verən iqtisadi irəliləyiş diqqəti cəlb etməyə bilməz.

Ölkəmiz müstəqilliyini qazandıqdan sonra inkişaf etmiş, dünya arenasında istər mədəniyyəti, istər iqtisadi inkişafı, islahatları, hərtərəfli irəliləyişləri ilə nəzərə çarpmağa başlamış, xarici dövlətlərin həm investisiya yönümlü, həm də bu və ya digər tərəfdən əməkdaşlıqları üçün maraq sahəsinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası nəticəsində Azərbaycan gündən-günə inkişaf edərək regionun ən güclü dövlətinə çevrilmişdir. Azərbaycanın sabit və davamlı inkişafı düzgün iqtisadi strategiyanın nəticəsidir. Azərbaycan suveren bir respublika kimi bir sıra beynəlxalq təşkilatlara daxil olub və dünyanın bir çox müstəqil

dövlətləri ilə siyasi, iqtisadi, mədəni və s. sahələrdə əməkdaşlıq edir.

Müasir Azərbaycanın memarı və qurucusu Ümummilli liderimiz Heydər Əliyevdirsə, bugünkü inkişafın, tərəqqinin, mənfur düşmən üzərində Şanlı Qələbənin memarı və rəhbəri isə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevdir. ***Ulu öndər Heydər Əliyev İlham Əliyev haqqında "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" demişdi. Həyat bu sözlərin nə qədər böyük bir həqiqət olduğunu bütün dünyaya göstərdi.***



İlham Əliyev Heydər Əliyevin bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas etdiyi Azərbaycanı yüksələn xətlə inkişaf etdirərək ona bütün sahələrdə böyük uğurlar qazandırdı. Son illər ərzində onun rəhbərliyi altında yaşayıb-yaradan Azərbaycan tək Cənubi Qafqazın deyil, Qərblə Şərqin qovşağında yerləşən böyük bir bölgənin ən nüfuzlu dövlətlərindən birinə çevrildi. İndi beynəlxalq siyasi müstəvidə Azərbaycanın nüfuzu





yüksələrək elə bir səviyyəyə çatıb ki, o artıq dünyanın superdövlətləri arasında baş verən münaqişələrin nizamlanmasında öz sözünü deyə bilir. Belə uğur Heydər Əliyev siyasi və iqtisadi kursunun layiqli davamçısı İlham Əliyevin düşünülmüş siyasətinin məntiqi nəticəsidir.



Hakimiyyətə gəldiyi ilk gündən "biz bundan sonra elə yaşamalıyıq ki, sanki bir neft ölkəsi deyilik və neftimiz yoxdur" deyən gənc Prezident, neftlə bağlı iqtisadiyyatın çətinliklərini layiqincə qiymətləndirərək daha uzaq perspektivə nəzər salmağı bacardı.

Neft pullarının daimi olmadığını doğru qiymətləndirən İlham Əliyev ölkə iqtisadiyyatının köklü şəkildə yenidən qurulması işlərinə başladı. "Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı" dövlət proqramları çərçivəsində iri infrastruktur layihələrinin reallaşdırılmasına start verdi.

Bu illər ərzində bölgələrin enerji, qaz, su təchizatının yüksək səviyyədə təmin edilməsi, yol infrastrukturunun yenidən qurulması sahəsində inqilabi nəticələrə gətirib çıxaran layihələr həyata keçirildi. Ümumiyyətlə, dövlət başçısının rəhbərliyi ilə görülən işlərin nəticələri özünü çox gözlətmədi.

Hazırda Azərbaycan dünyanın turizm mərkəzinə çevrilməkdədir. Bunun üçün hər cür şərait olan ölkəmizdə cənab İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən qərarların əhəmiyyəti misilsizdir.

Azərbaycanın dünyaya daha yaxından tanıdılması məqsədi ilə atılan addımların önəmi çox böyükdür. Bu istiqamətdə ilk addım kimi Azərbaycanın Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın təşkilatçılığı ilə keçirilən "Avroviziya" mahnı müsabiqəsi dünyanın diqqətini Azərbaycana cəlb edə bildi. Bunun ardınca ölkəmizdə bir-birindən əhəmiyyətli beynəlxalq tədbirlərin keçirilməsi, bütün dünyanı heyran edən birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkili milyardlarla insanın diqqətini Azərbaycana yönəltdi. Yüksək səviyyədə keçirilən bu tədbirlər, eyni zamanda Azərbaycanın bütün dünyaya təqdimatı demək idi. Bu təqdimatın məntiqi nəticəsi isə göz qabağındadır.




Müasir və multikultural dəyərləri ilə dünyəvi bir dövlətə çevrilmiş gənc Azərbaycan Respublikasının qısa bir zamanda





əldə etdiyi bu uğurlar, heç şübhəsiz, ölkə Prezidenti cənab İlham Əliyevin gərgin əməyinin məntiqi nəticəsidir.



Bu gün bütün sahələrdə Cənubi Qafqazın lider dövləti statusunu qazanmış və dünyanın ən nüfuzlu dövlətlərindən birinə çevrilmiş Azərbaycan iqtisadi və hərbi cəhətdən tənəzzül içərisində boğulan, öz iqtisadi və siyasi müstəqilliyini itirən, əhalisi səfalət üzündən kütləvi şəkildə immiqrasiya edən Ermənistana acizlik məngənəsində çabalayan və bundan sonra nə edəcəyini bilməyən bir dövlət kimi baxmaqda tam haqlıdır.

Cənab Prezidentimiz İlham Əliyev özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatın-Qoşulmama Hərəkatının sədridir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə, Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir. Bütün bunlar da Azərbaycan Respublikasının və onun liderinin güclü olmasının bariz nümunəsidir.

Dövlətimizin başçısı İlham Əliyevin böyük qətiyyətlə söylədiyi "Güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir" fikri də bu günümüzün reallıqlarına əsaslanır.

Hansı sahəyə diqqət yetirsək, inkişaf, tərəqqi görərik. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, yola saldığımız il hər zaman əvvəlki ildən daha uğurlu, daha yaddaqalan olur. Bu da ondan irəli gəlir ki, uğurların davamlılığının təmin edilməsi üçün zəruri addımlar atılır.

2020-ci ilin ən yadda qalan olması, ən böyük uğuru, 30 ilə yaxındır ki, düşmən tapdağında qalan torpaqlarımızın işğaldan azad edilməsidir. Təbii ki, bu uğur Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasətinin, öz prezidentini sevən və dəstəkləyən Azərbaycan xalqının həmrəyliyinin, hər an öz Ali Baş Komandanının əmrinə hazır olan şanlı, müzəffər Azərbaycan Ordusunun şücaəti nəticəsində qazanılmışdır. İllər sonra Azərbaycanın üçrəngli bayrağı işğaldan azad olunmuş torpaqlarda, doğma Şuşamızda dalğalanır.

**Allah Prezidentimizi, Azərbaycan ordusunu, Azərbaycan xalqını qorusun! Yaşasın Azərbaycan!**





**NƏZRİN HÜSEYNLİ**
*Nizami rayonu*
*251 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Gülnarə Bədəlova**



## MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN VƏ AZƏRBAYCAN ORDUSU

***Sənin kimi fateh zaman yetirməz bir də,***
***Haqq-ədalət carçısı, tarix yazan sərkərdə.***
***Səndən ilham, güc alır zabit, əsgər səngərdə,***
***Hərb və sülh meydanında qələbə çalan adam –***
***Cənab Ali Baş Komandan!***

Müzəffər Ali Baş Komandanımla qürur duyuram! Qalib ordumla fəxr edirəm! Qəhrəman xalqım, azad Vətənimlə özümü məğrur, yenilməz sayıram!

Hələ Vətən müharibəsi başlamamışdan bir qədər əvvəl – sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mənim təhsil aldığım Bakı şəhəri Nizami rayonu 251 nömrəli tam orta məktəbin yeni, müasir standartlara cavab verən korpusunun açılışında iştirak etdi. Bu hadisə, əlbəttə ki, məktəbimizin tarixində çox böyük, yaddaqalan, şərəfli bir hadisə oldu. Sağollaşıb gedərkən cənab Prezident məktəb rəhbərliyinə onun salamını biz şagirdlərə və valideynlərə çatdır-



mağı tapşırdı. Məktəbin yaxınlığında yerləşən bina sakinlərinin, o cümlədən mənim və ailə üzvlərimin eyvandan onu alqışladığımızı görəndə hörmətli Prezidentimiz də əlini havada yelləyərək bizi salamladı. Bu mənzərə hamımızda çox xoş əhvali-ruhiyyə, fəxarət hissi doğurdu.

27 sentyabrda isə ölkəmizin ərazi bütövlüyünün bərpası, doğma torpaqlarımızın mənfur düşmənlərdən azad olunması uğrunda Vətən müharibəsi başlandı. Ali Baş Komandanın qətiyyətli, xalqımızı, əsgərlərimizi qələbəyə ruhlandıran, inandıran çıxışlarını dinləyəndə, ordumuzun şücaətini, düşmən qüvvələrini məhv etdiyi videokadrları görəndə çox istəyirdim ki, mən də igid əsgərlərimizlə çiyin-çiyinə olum, axı belə bir məşhur kəlamımız var: "Aslanın erkəyi, dişisi olmaz". Azyaşlı olmağım buna imkan verməsə də, Ali Baş Komandanımızın rəhbərliyi altında şanlı ordumuz əzəli və əbədi torpaqlarımızı işğalçı ermənilərin caynağından xilas etdi, hamımıza böyük fəxarət hissi yaşatdı.

Çox qürurvericidir ki, bu böyük qələbədə bizim məktəbimizin məzunlarının da payı oldu, döyüşlərdə fərqləndiklərinə görə onlardan bəzisi: Qasımov Fərid Vaqif oğlu "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" , Nemətli Ayxan Vüqar oğlu "Cəsur döyüşçü" , "Cəbrayılın azad olunmasına görə", qazimiz Ağazadə İlham Teymur oğlu "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuş, həm özlərinə, həm də məktəbimizə başucalığı gətirmişlər.





Əvvəllər biz qəhrəmanlıq haqqında daha çox filmlərdən, bədii əsərlərdən öyrənərdik, amma, sən demə, hər dövr öz qəhrəmanlarını yetişdirir, sən demə,bizim aramızda - məhəlləmizdə, məktəbimizdə, tanıdığımız, hər gün rastlaşdığımız insanlar arasında nə çox qəhrəman oğullar varmış. Əslində ən kiçik rütbəlisindən tutmuş ən böyük rütbəlisinə qədər bütün əsgərlər, zabitlərimizin hamısı bizim qəhrəmanlarımızdır, Ordumuz bizim ən böyük fəxarət, qürur mənbəyimizdir.



"Torpaq uğrunda ölən varsa, Vətəndir"- deyiblər. Vətən müharibəsində neçə-neçə igid oğullarımız doğma torpaqlarımızın azadlığı uğrunda öz canlarını fəda etdilər. Amma mən şəhidlərimizi itki hesab etmirəm, əksinə, onlar bizim qazandıqlarımızdır. Əgər əvvəl onlar məhdud çevrədə tanınır, sevilirdilərsə, şəhidlik zirvəsinə ucalmaqla adlarını Vətən müharibəsi tarixinə qızıl hərflərlə yazdılar, xalq sevgisini qazandılar. Cəbrayıl Dövlətzadənin qəhrəmanlığı kimi qürurlandırmadı ki? Şəhid Xudayarın ifası kimin qəlbinə yol tapmadı ki?

***Deyirlər bülbülə çəmən yaxşıdır,***
***İnsan üçün laləzar vətən yaxşıdır,***
***Vahid, sorma :"Vətən nədən yaxşıdır?"***
***Adı gəlcək könlüm xəndan görünür.***



Bəli, şəhidlərimiz Babək, Koroğlu kimi dastana döndülər, onlar heç vaxt unudulmayacaq və hər gələn nəslə nümunə olacaqlar.

44 günlük müharibə dövründə nələr yaşamadıq?! Hər gün Ali Baş Komandan İlham Əliyevin xoş müjdəli tvitlərini, televiziya çıxışlarını, üçrəngli bayrağımızın mənfur düşməndən azad olunmuş daha hansı torpağımızda dalğalandırıldığı xəbərini böyük həyəcanla, səbirsizliklə gözləyir və hər qələbə xəbərindən sonra göz yaşlarımızı saxlaya bilmirdik. Belə tarixi günləri yaşamaq hər insana nəsib olmur. Biz xoşbəxt nəsilik ki, bu böyük Qələbə, Zəfər günlərinin şahidi olduq.

Qarabağın döyünən ürəyi, musiqi beşiyi, Qafqazın incisi gözəl Şuşamızın azad olunması isə Vətən müharibəsi tarixinin ən əlamətdar, sözlə ifadəsi mümkün olmayan ən xoşbəxt günlərindən oldu. Bu münasibətlə noyabrın 8-də müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında oldular. Cənab Prezident öz çıxışında söylədikləri ilə bizi həm çox kövrəltdi, həm də çox qürurlandırdı: "Mən bu gün Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, "xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim". Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün!"





*Getdiyin bu şanlı yol – Ulu Öndər yoludur,*
*Sənin ordun yenilməz, sənin xalqın uludur.*
*«Yaşasın Azərbaycan!» – arzun, amalın budur,*
*Milyon-milyon ağızdan səslənir xeyir-duan –*
*Cənab Ali Baş Komandan!*

Cənab İlham Əliyev qalib ordunun qalib Ali Baş Komandanı kimi işğaldan azad edilmiş ərazilərə səfərlərində özü yol boyu bələdçilik edərək bizə çoxumuzun hələ görmədiyi, gəzmədiyi yerləri tanıdır, sevdirir, görülməyə başlayan, nəzərdə tutulan quruculuq işləri, mədəni-kütləvi tədbirlər barədə məlumat verir: "Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi", "Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu", "Vaqif Poeziya Günləri bərpa ediləcək", "Xarıbülbül" festivalı bu il keçiriləcək". Bütün bunları eşitmək necə də möhtəşəmdir! I vitse-prezident Mehriban xanım Əliyeva da bu səfərlərdə cənab Prezidenti müşayiət edir, həmişə olduğu kimi ona dəstək olur.

*Bu da Tanrıdan gələn,*
*Qoşa pozulmaz yazı:*
*Xalqın İlhamlı oğlu,*
*Elin Mehriban qızı...*

Bəli, müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, "dəmir yumruqla düşmənin başını əzdik, eyni zamanda

bu yumruq birliyimizin rəmzi oldu. Bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm. Bu mənə güc verir. Bu mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir".

***Sən yalnız, tək deyilsən, dağ kimi millətin var,***
***Sabaha addımlayan müstəqil dövlətin var.***
***Bircə sözün, əmrinlə bu xalq ayağa qalxar,***
***Səninlə Azərbaycan – bir könüldə iki can –***
***Cənab Ali Baş Komandan!***

Yazımın əvvəlində azyaşlı olduğum üçün bu müqəddəs Vətən savaşında iştirak edə bilmədiyimdən təəssüfləndiyimi qeyd etmişdim. Hazırda 10-cu sinif şagirdiyəm. Artıq yaxın gələcəkdə vətənini çox sevən bir insan kimi Prezidentimizin səsinə səs verərək Qarabağımızın inkişafında, dirçəlməsində yaxından iştirak etmək, savadlı bir mütəxəssis – tərcüməçi kimi Qarabağımızı əvvəl qarış-qarış gəzib hər dağını, daşını öyrənmək, daha sonra dünyada tanıtmaq, təbliğ etmək, ölkəmizə qarşı olan bəzi haqsız mənfi rəyləri müsbətə doğru dəyişmək istəyirəm, buna nail olacağıma əminəm.

Xalqımızın Qarabağ həsrətinə son qoyan, misilsiz qəhrəmanlıq nümunələri ilə dünyanı mat, yağı düşməni darmadağın edən, diz çökdürən şanlı ordumuza, müzəffər Ali Baş Komandanımıza eşq olsun!





**ƏTİRƏ ƏLİYEVA**
*Suraxanı rayonu*
*270 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Şəhla Ələkbərova**



## VƏTƏN MÜHARİBƏSİ – QARABAĞIN AZAD OLUNMASI

***El bilir ki, sən mənimsən,***
***Yurdum, yuvam, məskənimsən,***
***Anam, doğma vətənimsən!***
***Ayrılarmı könül candan?***
***Azərbaycan, Azərbaycan!***

**Səməd Vurğun**

Bu şeir Ulu öndər Heydər Əliyevin dilinin əzbəri olmuşdur. Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev bu sözləri əbəs yerə gözləri yaşararaq səsləndirməmişdir. O bilirdi ki, Azərbaycan bir gün vahid şəkildə müstəqil olacaq. İşğal altında olan Qarabağımızı azad etməyə onun ömrü yetmədi. Lakin onun layiqli davamçısı Ali Baş Komandan İlham Əliyev onun bu arzusunu reallaşdırdı.

Azərbaycan Respublikası əzəldən müharibə tərəfdarı olmamışdır. Əvvəlcə Tovuz döyüşləri, sonra isə düşmənin dəfələrlə atəşkəs rejimini pozması müharibənin başlanmasında zəmin rolunu oynamışdır. Silahlı Qüvvələrin Ali Baş Komandanı

cənab İlham Əliyev ermənilərin atəşkəsi pozmasına cavab olaraq əks-hücum əməliyyatının başlanması əmrini vermişdir.




Qarabağ!.. Azərbaycanın dilbər guşəsi!..

30 ilə yaxın bir müddət idi ki, Qarabağımız erməni təcavüzkarları tərəfindən işğal altında idi.

Lakin 27 sentyabr 2020-ci ilin səhər saatlarında Azərbaycan Respublikasının müzəffər ordusunun Ermənistan aRespublikasına qarşı əks-hücum əməliyyatı nəticəsində 44 günlük II Qarabağ müharibəsi başladı.

Müharibə davam etdiyi müddətdə bizim bir istəyimiz var idi ki, 30 ildir, həsrətində olduğumuz torpaqlarımız azad olunsun!

Mənim 15 yaşım var, mən heç vaxt Şuşanı, Cəbrayılı, Xocalını, Zəngilanı görməmişəm. Lakin bu əraziləri görmək istəyi insanda başqa duyğular yaradır.

Azərbaycan xalqında Vətən sevgisi o qədər yüksəkdir ki, hətta analar illərlə əziyyət çəkib böyütdükləri övladlarını müharibəyə yola salarkən heç bir tərəddüd hissi keçirmirdilər. Bizim Müzəffər Ordumuz səngərdə düşmənlə igidcəsinə döyüşərkən düşmən Bərdədə, Gəncədə və bir çox ərazilərimizdə dinc əhalini atəşə tuturdu. Bəşər tarixində ermənilərin törətdikləri insanlığa sığmayan vəhşiliklərin oxşarı yoxdur. Lakin bu





erməni faşizmi xalqımızın gözündə olan vətən sevgisini öldürə bilmədi. Əsgərlərimiz bu şüarla irəliləyirdi: "Şəhid olaq, təki Vətən sağ olsun, təki torpaqlarımız azad olunsun!"

Biz onlarla bərabər səngərdə döyüşməsək belə, hər gün onlarla bərabər qələbə sevincini yaşayırdıq. Hər gün televiziya qarşısında Ali Baş Komandanımızın çıxışlarını, xalqa müraciətini səbirsizliklə gözləyirdik. Axır ki, gözlədiyimiz gün gəlib çatdı. Bir-birinin ardınca işğal olunmuş ərazilərimiz cənab İlham Əliyev və Müzəffər Ordumuzun səyləri nəticəsində işğaldan azad edildi. 8 noyabr – musiqi beşiyimiz, Qarabağın döyünən ürəyi – Şuşa işğaldan azad olundu.

10 noyabr – Azərbaycan Respublikası yeni bir tarix yazdı. Prezidentimiz cənab İlham Əliyev xalqa müraciətində bildirdi ki, Qarabağımız tamamilə işğaldan azad olundu. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!!!



Prezidentimizin bu şüarı 44 gün ərzində uşaqdan böyüyə hər bir azərbaycanlının dilində əzbər oldu.

44 günlük Vətən müharibəsinin sonunda igid əsgərlərimiz Qarabağda Azərbaycan bayrağını dalğalandırdılar. Deyildiyi kimi, "Bir kərə yüksələn bayraq bir daha enməz!" şüarı öz təsdiqini tapmışdır.

Biz bir yumruq olduğumuzu, hər zaman birlikdə olduğumuzu bütün dünyaya sübut etdik. Bu müharibənin sonunda 3000-ə yaxın şəhidimiz, itkin hərbi qulluqçularımız, həmçinin, qazilərimiz də oldu. Lakin itkisiz qələbə olmaz! Artıq şəhidlərimizin ruhu şaddır.

Mənim dayım - Əmənov Kamil XX əsrin 90-cı illərində I Qarabağ müharibəsində iştirak edərək şəhidlik zirvəsinə ucalmışdır. İndi mən əminəm ki, onun qanı yerdə qalmadı.



*Topçu Vüsal Şahkərimov*

Bu döyüşlər zamanı Azərbaycanı tək qoymayan, həmişə yanında olan qardaş Türkiyəyə öz minnətdarlığımızı bildiririk!

Bir hərbçi – bir kəşfiyyatçı, vətəni uğrunda hər an canından keçməyə hazır olan insanın övladı olaraq fəxr edirəm ki, mənim atam da Qarabağın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Mən bir vətəndaş olaraq fəxr edirəm ki, azərbaycanlıyam. Allah şəhidlərimizə rəhmət, qazilərimizə şəfa versin!

***Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!!!***





**AYXAN HÜSEYNOV**
*Yasamal rayonu*
*158 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Almara Məmmədova**



## ŞUŞA ƏMƏLİYYATI – MUSİQİ BEŞİYİNİN AZAD OLUNMASI

Qarabağ Azərbaycanın ən qədim və dilbər guşələrindən biridir. Bu ərazilər qədimdən bəri Azərbaycanın bir hissəsi olmuşdur və olmağa da davam edəcəkdir. Göz oxşayan təbiəti, təmiz havası, şəfalı bulaqları, münbit torpağı ilə tanınan Qarabağ bu günə qədər bəzi acgöz xalqların diqqət mərkəzində olmuşdur. Tarix boyu bir çox çətinliklər, ayrılıqlar yaşasaq da sonda hər birinin öhdəsindən bacarıqla gəlmişik, ancaq ac gözlərin dikildiyi əsas bir yer var idi. Qarabağın döyünən qəlbi, parlayan işığı-Şuşa...

1747-ci ildə yaranmış Qarabağ xanlığının mərkəzi olan Şuşa şəhərinin təməli 1750-ci illərdə Pənahəli xan tərəfindən qoyulmuşdur. Əvvəllər «Pənahabad» adlansada, sonradan «Şuşa» adlanan bu gözəl şəhərin adı ilə bağlı bir çox rəvayət vardır. Deyilənə görə, şiş qayaların ətrafında yerləşdiyindən əvvəl onu "Şişə", sonra isə "Şuşa" adlandırıblar. Digər bir rəvayətdə isə Şuşanın bulaqları o qədər şəffaf imiş ki, camaat onu şüşəyə bənzətdiyindən xalq arasında da "Şüşə" sözündən "Şuşa" sözü forma-

laşıb. Şuşada 17 məhəllə vardı. Hər məhəllədə hamam, məscid, və bulaq movcud idi. Şuşa məhəllələrinin 9-u aşağı, 8-i yuxarı məhəlləydi.




Şuşanın tarixi ta qədimlərə dayanmasa da 300 ilə yaxın yaşıyla sanki 1000 ildən çox mövcud olmuşdur, çünki Şuşa mədəniyyətimizin, muğamımızın, ədəbiyyatımızın ən yüksək zirvəyə çatdığı yerdir. Buna görə də, Şuşa nəinki Azərbaycanın, bütün Türk-İslam dünyasının incisidir. 19-cu əsrdə Şuşa Qafqazın ən iri şəhərlərindən birinə çevrilmişdir. Çoxlu karvan yollarının qovuşduğu bu yerdə 10 karvansara da var idi. Şuşa həmçinin öz ipəyi, iri daş evləri, par-par parlayan gözəl xalçaları ilə də tanınırdı. Hələ cins atları və Xarıbülbülü demirəm, indi onlar bütün dünyada məşhurdur.

1805-ci il Kürəkçay müqaviləsi nəticəsində Qarabağ xanlığı tam Rusiyadan asılı hala düşdü. Sonuncu Qarabağ xanı- Mehdiqulu xan 1822-ci ildə İrana qaçmağa məcbur oldu. Bir tərəfdən də getdikcə Azərbaycan torpaqlarına yayılan ermənilər ruslara güvənərək Azərbaycana qarşı vəhşiliklərə başlamışdılar.

I Qarabağ müharibəsi zamanı-1992-ci il mayın 8-i ermənilər tərəfindən Şuşa işğal olundu. Yaxın keçmişə qədər Qarabağla bağlı yazılarımı Qarabağı azad edəcəyimizin ümidiylə bitirərdim,amma mənim üçün qürurverici andır ki, Qarabağ artıq azaddır.





44 günlük Vətən müharibəsi dövründə Qarabağ torpaqlarını, Şuşanı azad edən gənclər Ulu Öndər Heydər Əliyev məktəbinin, Azərbaycan xalqının lideri İlham Əliyev idarəçiliyinin yetirmələridir. Möhtərəm Prezidentimizin dönə-dönə vurğuladığı kimi, bu gün Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. Azərbaycan gəncləri torpaqlarımızı işğaldan azad etmək üçün hər zaman möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "hücum" əmrini gözləyiblər. Tarixə Zəfər Gününü yazan, ötən il sentyabrın 27-dən başlayıb noyabrın 10-da başa çatan İkinci Qarabağ müharibəsində Azərbaycanın hərbi və siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması ilə nöqtə qoyulan qalibiyyət yürüşümüz ölkə Prezidentinin "Artıq yetər!" söyləyib "Azərbaycan əsgəri, irəli!" əmrinə verilən dəstəyin, "dəmir yumruq" kimi birliyin göstəricisidir.



Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi Azərbaycanın müharibə taktikasının dünyaya nümayişi oldu. Artıq inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin

hər bir gününü təhlil edirlər. Dövlətimizin başçısının da vurğuladığı kimi, şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. Möhtərəm Prezidentimiz hər zaman bəyan edirdi ki, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaq. Belə də oldu, 44 günlük müharibənin hər bir günü Zəfər günü kimi tarixə yazıldı. Müharibələrdə hücumlar, geriyə çəkilmələr, manevrlər olduğu halda, Azərbaycan Ordusu Vətən müharibəsində dünyaya demək olar ki, indiyədək hərb tarixində müşahidə edilməyən bir mənzərəni-hər gün irəli getmək, yeni-yeni ərazilər azad etmək kimi nadir nümunəni təqdim etdi. Düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini, 5 şəhəri, o cümlədən Qarabağımızın ürəyi, şöhrət tacı, milli musiqimizin beşiyi olan Şuşamızı işğaldan azad etdik. Bu müharibə tariximizdə əbədi yaşayacaq. Zəfərimizi şəhidlərimizin canı, qanı bahasına, qalib hərbçilərimizin şücaəti hesabına qazanmışıq.




Yanvarın 14-15-də Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın Qarabağın incisi sayılan Şuşaya səfərləri təkcə 44 günlük Vətən müharibəsinin milli qürurumuzu özümüzə qaytarmasından doğan sevinc, xoşbəxtlik hissinin növbəti təqdimatı olmadı, həm də bu səfər Azərbaycanın Müzəffər Ali Baş Komandanının yenilməz siyasi və hərbi iradəsini, qətiyyətini, 27 sentyabr 2020-ci ildən başlanan Zəfər yürüşünün bu gün quruculuq və abadlıq müstəvisində davam etdiyni bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirdi.







***Prezident İlham Əliyev Füzuli-Şuşa yolunun təməlqoyma mərasimində***

Möhtərəm Prezidentimiz İlham Əliyev noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən bildirmişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" Bu gün xalqımız işğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən milli qürur mənbəyimiz olan gözəl Şuşamızda yeni dövrün-quruculuq və bərpa işlərinin sevincini yaşayır.

Yazımın sonluğunu da Hikmət Ziyanın yazdığı "Qarabağda" şeiri ilə bitirmək istəyərəm:

*Qarabağ təbiətin sərvətidir, varıdır,*
*Azərbaycan yurdunun solmayan gülzarıdır.*
*Hüsnü yaşıl bağları, vüqar dağlarıdır....*
*Başqa ətirlə açır qönçələr Qarabağda,*
*Min ilin yorğunu da dincələr Qarabağda*

*Dağlarının başında Şuşa zümrüd tacıdır,*
*Bərdə, Ağdam, Füzuli daim qardaş-bacıdır.*
*Qəlbim bu xoş yerlərin həmişə möhtacıdır,*
*Hər daşını görənlər dirçələr Qarabağda*
*Min ilin yorğunu da dincələr Qarabağda.*

*Bu yerdə Vaqifimin müqəddəs türbəsi var,*
*Natəvanın, Zakirin pozulmayan izi var,*
*Üzeyirin nəfəsi, Bülbülümün səsi var...*
*Cabbar, Xan, Rəşid,Səid,Zülfü zəngüləsi var,*
*Yetişibdir gör necə incilər Qarabağda,*
*Min ilin yorğunu da dincələr Qarabağda.*







**AZƏRİN AĞAYEVA**
*Sabunçu rayonu*
*67 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Azad Kələşov**

## AZAD EDİLMİŞ TORPAQLARDA ERMƏNİ VANDALİZMİNİN İZLƏRİ

Mənim 14 yaşım var və mən Qarabağı görməmişəm. Qarabağ haqqında valideynlərimdən, müəllimlərimdən, Qarabağdan məcburi köçkün düşmüş həmvətənlərimizdən eşitmişəm. Qarabağın gözəlliyi ilə baxdığım sənədli filmlərdən, televiziya verilişlərindən, keçdiyimiz coğrafiya dərsliyindəki mövzulardan tanış olmuşam.

Qarabağa yaxşı bələd olan insanlardan həmişə Qarabağ haqqında mənə danışmaqlarını istəmişəm. Qarabağ haqqında onlara suallar ünvanlamışam. Onlar isə suallarıma cavab olaraq dərindən köks ötürüb deyirdilər: "Qarabəxt Qarabağdan danışım sənə?"

Mən bu sualın mənasını başa düşmürdüm, nəyə görə Qarabağa "Qarabəxt Qarabağ" deyirdilər? Onu anlamırdım. Sonra suala cavab verirdim: "Bəli, tanıdığınız Qarabağdan danışın mənə". Onlar da ağızdolusu danışırdılar Qarabağdan. Düzdür, bu mövzuda danışanda üzlərindəki təbəssümü görə bilirdim, amma yenə də gözlərindəki qayğını, narahatlığı sezə bilirdim. Mən Qarabağı görməsəm də, yaşım buna izin verməsə də, Qa-

rabağ eşqi ilə yaşayan hər kəsin gözlərindəki o hüznün səbəbini çox yaxşı bilirdim. Bütün bunların səbəbkarı, daha doğrusu, səbəbkarları dünyadır, bəli, dünya ölkələridir, təşkilatlardır.




*Xəritədə Qarabağın mədəniyyət abidələri göstərilmişdir*

**19 – Xaçındərbəndli kəndi, Rutlu Musa məqbərəsi, 1314-cü il;**
**20 – Şahbulaq kəndi, Qala, XVIII əsr;**
**29 – Xudayarlı kəndi, Məqbərə, XVII əsr;**
**30 – Araz çayının üstündə Xudafərin körpüsü, XII-XIII əsr;**
**37 – Məmmədbəyli kəndi, Məqbərə, 1304-1305 ci illər;**
**50 – Tərtər çayınının yaxınlığında Xotavank kilsəsi;**
**51 – Dəmirçilər kəndi, məqbərə, XIV əsr;**
**61 – Küsülü kəndi, Həmzə sultan sarayı, 1761-ci il;**
**62 – Cicimli kəndi, Məlikəjdər məqbərəsi, XIV əsr;**
**63 – Zeyvə kəndi, Sultanbaba məqbərəsi, XIV əsr;**
**73 – Aşağı Veysəlli kəndi, Mirəli türbəsi, XIV əsr;**
**75 – Qarğabazar kəndi, karvansara, XVII əsr;**





**77 – Babı kəndi türbəsi, XII əsr;**
**95 – Əsgəran qəsəbəsi, Əsgəran qalası, XVIII əsr;**
**96 – Vəngli kəndi, Qanzar kilsəsi, 1238-ci il;**
**97 – Şuşa şəhəri, Qala divarları, 1754-cü il;**
**98 – Şuşa şəhəri, Qaraböyük xanım qalası, XVII əsr;**
**99 – Şuşa şəhəri, Hacıqulu məhləsi, XVIII əsr;**
**100 – Şuşa şəhəri, Gövhər ağa məscidi, 1768-1769-cu illər;**
**101 – Şuşa şəhəri, Aşıq Gövhər ağa məscidi, XVIII-XIX əsrlər;**

İndi üzümü tuturam dünyaya, təşkilatlara: "Niyə göz yumdunuz olunan təxribatlara, niyə susub kənardan izləməyi seçdiniz?! Niyə vaxtında öz sözlərinizi demədiniz?! Konvensiyalar vardı, uşaq hüquqları, insan hüquqları haqqında, Azərbaycan da imzalamışdı o konvensiyaları".

Axı siz qorumadınız bu torpaqları, həmin bu torpaqlarda yaşayan qocaları, uşaqları. Uşaqlar valideynlərini itirəndə, ailələr didərgin düşəndə, 1 milyon insanın ah-naləsini eşitmədiniz, yoxsa eşitmək istəmədiniz?

Məncə, eşitmək istəmədiniz, üzünüzü çevirdiniz. Bəli, siz azğınlaşdırdınız mənfur düşməni.

Günü-gündən azğınlaşan düşmən sonuncu 44 günlük Vətən müharibəsində də müharibə gedən torpaqlardan uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər rayonlarımızı raket atəşinə tutanda, dinc əhalinin ölümünə qəsd edəndə də susdunuz.





30 illik Qarabağ həsrətinin bitməsi, Azərbaycanın qələbə çalması bu yaralara az da olsa, məlhəm oldu. Bu qələbəni Azərbaycan təkbaşına qazandı. Nə dünya ölkələrinin, nə də təşkilatların hesabına. Biz qalibiyyət hissini cənab İlham Əliyevin və mərd oğulların birliyindən yaranan müzəffər Azərbaycan ordusunun təşəbbüsü ilə yaşadıq.

Bu gün biz Qarabağa gedə bilmirik, çünki azğın düşmən oraları minalayıb, söküb, talan eləyib, daşı daş üstündə qoymayıb. Qeyd edim ki, elə məhz Ağdamın özündə aparılan bir saatlıq araşdırma nəticəsində 150-yə yaxın mina tapılaraq zərərsizləşdirilib. Televizorda viran qoyulmuş Qarabağın görüntüləri yayımlanır. Gördüklərimdən təsirlənərək sual verdim valideynlərimə:





– Budur Qarabağ?!

Axı mənə Qarabağ haqqında danışan hər kəs oraların yaşıllığından, meyvəli ağaclarından, rəngbərəng çiçəklərindən, kənd evlərindən, məscidlərdən, torpaqların münbitliyindən, tarixi abidələrdən danışmışdılar. Mən isə bu görüntülərdə yandırılmış evləri, şoran torpağı, qırılmış ağacları və onlardan geri qalan qalıqları görürəm. Hələ tarixi abidələrdən və məscidlərdən danışmıram. Tarixi abidələri, ümumiyyətlə görə bilmirəm. Məscidləri isə yarı dağıdılmış, yarı da tövlə kimi istifadə olunan məkan kimi görürəm.

Ağdam rayonunun Qiyaslı kəndində XVIII əsrə aid məscid işğalın davam etdiyi müddət ərzində inəkləri saxlamaq üçün istifadə olunub, işğalçılar rayonu tərk etməmişdən əvvəl bacardıqlarını özləri ilə aparıb, məscidi isə yandırıblar.

Eyni zamanda Füzuli rayonun Qoçəhmədli kəndində XVIII əsrə aid məscid qismən dağıdılıb və buranı da digər məscidlər kimi, heyvanları saxlamaq üçün istifadə ediblər. Əsrlərdən bəri dədə-babalarımız tərəfindən yaradılan alban kilsələrini, məscidləri, tarixi abidələri dağıtmağı sizə kim icazə verib?



Mən elə bilirdim ki, həmin torpaqlarda artıq məskunlaşmış ermənilər yaradıblar, tikiblər, əkiblər, becəriblər. Lakin cəsur əsgərlərimiz torpaqlarımızı işğaldan azad edəndən sonra televizorda nə görsək yaxşıdır? Səhralaşdırılmış boş ərazilər. Nə meyvə ağacları, nə evlər, nə də abidələr qoyublar. Bəs nə ediblər onlar?! Onların məqsədi bu idimi? Onlar 1 milyon azərbaycanlını doğma yurdundan,

ev-eşiyindən, var-dövlətindən nəyə görə uzaqlaşdırıblar? Əfsuslar olsun ki, bu suallarım bu gün də cavabsız qalmaqdadır.



Bunlara nə ad vermək olar?! Bu vandallıqdır.

Ermənistanın işğaldan azad olunmuş torpaqlarımızda törətdiyi vandallığın nəticəsində 152 ibadət yeri, 62 məscid, 4,6 milyonluq kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi erməni təcavüzünün qurbanına çevrilmiş, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 8 mədəniyyət və istirahət parkı qarət edilmiş və yandırılmışdır.

Bu gün Qarabağın təbiəti qan ağlayır. 54 min hektarlıq meşə təsərrüfatımızın məhvi nə deməkdir, bilirsiniz? Bu ki ekoloji fəlakətdir. Bu terroru insan – bəşəriyyətin ən qorxunc varlığı törədib. Vandal düşmən qeyri-qanuni məskunlaşdığı Kəlbəcər, Ağdam, Laçın rayolarımızı tərk edərkən hətta ağacları kəsib özləri





ilə aparıb, apara bilmədiklərini isə yandırıb. Sizi bu mənfurluğu etməyə nə vadar edir axı?!

Niyə əkin sahələrimizi istismar edirsiniz, nə üçün yeraltı sərvətlərimizdən: mis yataqlarımızı, Zəngilanda Vejnəli, Kəlbəcərdə Zod qızıl yataqlarımızı talan edirsiniz? Hətta bu azmış kimi, xarici şirkətləri də ora cəlb edirsiniz?!

Bəli, bunların hamısı erməni vandalizminin azad olunmuş torpaqlarımızda qoyduğu izlərdir. Lakin 1863-1869-cu illərdə memar Otto Gippus tərəfindən inşa edilən Müqəddəs Maarifləndirici Qriqori erməni kilsəsi bu gün Bakıda qorunaraq saxlanılır. Bu da Azərbaycanın tolerant ölkə olduğunu isbat edir.

Prezidentimiz xanımı ilə işğaldan azad olunmuş torpaqlarımızı gəzərkən, o torpaqları seyr edərkən deyib: "Bu gün buralarda Qarabağın gözəlliyindən əsər-əlamət qalmayıb, amma Qarabağ öz gözəlliyinə qovuşacaq".

Bəli, Qarabağa həyat qayıdacaq, yenə orada xarıbülbül açacaq. Bülbüllərin xoş avazı hər yerdə duyulacaq. Qarabağ atları evinə qayıdacaq, oranın suyundan içəcəklər. Mədəniyyət paytaxtı olan Şuşaya gedəcək, muğam festivalı keçirəcəyik. Cıdır düzündə milli rəqsimiz olan yallı sədaları altında bir yerə yığışıb yallı rəqsinin necə edildiyini göstərəcəyik düşmənə.

Gözlə bizi, Qarabağ biz ora gələcəyik, yenə gözəlliyinə valeh olacağıq. Mən də qayıdacağam ora. Bu yaşıma qədər eşitdiyim o füsunkar yerləri görməyə gələcəyəm. 30 il boyunca gözlədin bizi, çox az qalıb, biz artıq çatmışıq.



AİDA XUBANOVA
*Binəqədi rayonu,
144 nömrəli tam orta məktəbin
VIII sinif şagirdi*
**Elmi rəhbər: Mədinə Əsgərova**

## ŞUŞA ƏMƏLİYYATI - MUSİQİ BEŞİYİNİN AZAD OLUNMASI

Yer kürəsində çox az sayda şəhər var ki, musiqi onun havasına, hər daşına, hər qarışına hopmuşdur. Qafqazın incisi, Qarabağımızın ürəyi, mədəniyyətimizin laylası Şuşa belə şəhərlərdəndir. Hətta xalq arasında məşhur kəlam var ki, «Şuşada körpələr bələkdə belə muğam üstündə ağlarlar».

Şuşa heyrətamiz mənzərəsi, coğrafi mövqeyi, qeyri-adi relyefi ilə yanaşı, bütün Azərbaycanın mədəniyyət, musiqi beşiyi kimi tarixə düşmüşdür. Şuşa tarixi şəxsiyyətləri yetirib boya-başa çatdıran diyardır. "Şərqin konservatoriyası" adlanan bu şəhər Üzeyir Hacıbəyov, Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi incəsənət xadimlərinin vətəni olmuşdur.

Şuşa uzun illər Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Qarabağın ilk xanı Pənahəli xan düşmən hücumlarından qorunmaq üçün hündür, sıldırım dağ üstündə bir qala tikdirmək qərarına gəlir və 1756-1757-ci illərdə Şuşa qalası tikilib başa çatdırılır. Məhz hərbi-strateji mövqeyinə görə də Pənahəli





Xan xanlığının paytaxtı olaraq Şuşa şəhərini seçmişdi. Bir neçə ilə uca qayanın üstündə xan sarayları, evləri, məscidləri, hamamları olan bütöv bir şəhər yarandı. Zəruri işlər başa çatdırıldıqdan sonra Qarabağ xanlığının paytaxtı buraya köçürüldü. Yeni qala ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə Şuşa adlandırıldı.



28 il idi ki, Azərbaycanın dilbər guşəsi Şuşa düşmən əsarətində idi. Şuşa ilə bərabər mədəniyyətimiz də, tariximiz də əsarətdə idi. Qarabağın tacı Şuşanın işğaldan azad olunduğu gün həm qələbə, həm də mədəniyyətimizin, musiqimizin, incəsənətimizin azad edildiyi gün kimi tarixə çevrildi. Bu gün Qarabağda, əsrarəngiz Azərbaycan muğamının beşiyi Şuşada, Cıdır düzündə, Isa bulağında yenə «Qarabağ şikəstəsi» səslənir, Gövhər ağa məscidində Azan səsi eşidilir. Şuşada bu gün üçrəngli ay-ulduzlu bayrağımız dalğalanır.

2020-ci il 27 sentyabr tarixində rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı azad etmək uğrunda əks hüçuma keçdi. Azərbay-

can Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdən hər gün işğaldan azad edilən bölgələrimizin adlarını eşidirdik. Vətən uğrunda ölüm-dirim savaşına başlayan şanlı Azərbaycan Ordusu hər gün arxa cəbhəyə qələbə müjdələri göndərirdi.



Hamı Şuşa xəbərini səbirsizliklə gözləyirdi. Qəlbimizin ən yaralı yerində bir arzu var idi. Qələbəmizin tamamı üçün Qarabağımızın tacı olan Şuşa işğaldan azad olunmalıdır.

Şanlı ordumuzun «dağlarda döyüş əməliyyatı» - Şuşa əməliyyatı bir qəhrəmanlıq abidəsi, igidlik rəmzidir. Hərbiçilər belə bunu möcüzə adlandırırlar. Xəritəyə baxdıqda da aydın görünür ki, uca dağlar qoynunda yerləşən Şuşanın təbii relyefi hərbi əməliyyatları mümkünsüz edir. Düşmənlə bərabər, həm də doğma Şuşamızın təbiəti ilə, sıldırım qayaları ilə mübarizə aparan peşəkar Azərbaycan döyüşçüləri ağır silahdan istifadə etmədən





məhz canları bahasına Şuşanı azad etdi. Sıldırım qayaları iplərlə dırmaşan ordumuz **düşmənlə** aslan kimi **əlbəyaxa** vuruşdu. Mübariz İbrahimov, Polad Həşimov, İlqar Mirzəyev, Şükür Həmidov kimi oğulların şücaətindən təcrübə götürmüş əsgərlərimizin döyüş qabiliyyəti ilə bərabər, yüksək vətənpərlik ruhu qarşısında heç bir maneə dayana bilməzdi.




Qarlı havada dağ keçidlərini aşaraq Şuşaya sıx Qarabağ meşələrindən daxil olmaq qərarı - 44 günlük müharibənin «şah» əməliyyatı Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ordusunun misli görünməmiş planı idi. Ordunun başında dayanan generallarımızın düzgün döyüş planları nəticəsində heç bir texnikadan istifadə etmədən əsgər və zabitlərimiz qala-şəhərini dəqiq hərbi taktika sayəsində erməni tapdağından təmizlədi. Qəhrəman igidlərimiz Şuşaya sıldırım qayalarla, yüngül silahlarla irəliləyib. Şuşa döyüşlərində vuruşan qazilərimiz də söyləyirlər ki, dərədən, meşələrdən, dağlardan keçərək qəfil pusquya düşən düşmənin müqavimətini qıraraq əlbəyaxa döyüşlərlə onları məhv etmişlər. Şəhid və yaralı hərbçi dostlarını da çiyinlərində özləri ilə daşımışlar. Azərbaycan dağ piyadalarının şücaəti isə düşmənə diz çökdürmüşdü.

28 il işğal altında olan musiqi beşiyimiz olan Şuşa belə azad edildi! 8 Noyabr tariximizə qızıl hərflərlə yazıldı. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi. Həmin günlər Azərbaycan xalqının, dövlətinin və ordusunun nümayiş etdirdiyi birlik Azərbaycan əsgərinin Vətən müharibəsində qalib gəlməsini təmin edən ən güclü silah oldu. «Dəmir yumruq» əməliyyatı altında Ordumuz Şuşada əsl qəhrəmanlıq göstərərək qalib gəldi.



2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən təntənəli Zəfər paradında 44 günlük Vətən savaşının dağ vüqarlı igidlərini və qazilərini böyük fəxrlə seyr etdik. Ana torpağımıza öz qanları ilə möhür vuraraq dastana dönən hər bir şəhidimiz də o paradda idi! I Qarabağ savaşında da, Vətən müharibəsində də canlarından keçən hər bir şəhidimizin! «Vətən yaxşıdır» deyib dolaşırdı hər birinin ruhu Vətən göylərində! Şaddır ruhları. Çünki qardaş Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın söylədiyi kimi, Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini





oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.



*Xurşidbanu Natəvanın heykəlinin Şuşaya qaytarılması*

39 il sonra eyni tarixdə - 14 yanvar 2021-ci ildə qalib Baş komandan kimi Şuşaya tarixi səfəri zamanı Dövlət başçımızın və birinci xanımın Şuşa məscidinə Qurani-Kərim kitabı hədiyyə etmələri bir daha dünyaya sübut etdi ki, müqəddəs İslam dinimiz ən yüksək mənəvi dəyərləri, dostluq və humanizm prinsiplərini özündə əks etdirir. Həmin gün Xan qızı Natavanın, Bülbülün, Üzeyirin abidələri yenidən doğma torpaqlarında öz yerini aldı. Bu gün Üzeyirin, Cabbarın, Bülbülün, Seyidin, Xanın, Niyazinin 28 il girov qalmış ruhları azaddır! Qarabağımıza tezliklə bahar nəfəsi veriləcək.



**LƏMAN HƏMZƏYEVA**
*Xəzər rayonu*
*125 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Elmira Rəhimova**

# İLHAM ƏLİYEV – MİLLİ HƏMRƏYLİK

Həyatda bəzi anlar vardır ki, həyatımız boyunca o an üçün çalışırıq. O anı, zəfər anını qazanmaq üçün, qələbə şərbətini dadmaq üçün nələrə hazır olduğumuzu təsdiqləmiş oluruq. Bu, Azərbaycan xalqının 200 ildən sonra şərəflə yazdığı əbədi tarix gerçəkliyidir. Qarabağ müharibəsində qalibiyyət İlham Əliyev və Milli həmrəyliyin, möhtəşəm birliyin gücü, təntənəsidir. Bir məktəbli kimi bu tarixi qələbə sevincini yaşadığıma görə çox qürurluyam.

Azərbaycan hər sahədə: siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə öz mövqeyini nümayiş etdirmişdir. Ulu öndər Heydər Əliyevin sözləri ilə desəm, "Azərbaycan dünyaya günəş tək nur saçacaq". Ağıllı siyasət, düzgün idarəetmə, hakimiyyət və xalq birliyi Azərbaycanın tərəqqisini, inkişafını təmin etmişdir. Mütərəqqi ideyalarla yaşayan, mayası xeyirxahlıqla yoğrulmuş Azərbaycan xalqı Qarabağ problemini sülh yolu ilə həll etmək üçün 30 il böyük səbrlə gözləmişdir. Lakin xain düşmən – erməni təcavüzkar niyyətindən, ölüm, fəlakət qoxan müharibədən əl çəkmirdi.







***Prezident İlham Əliyev azad olunmuş ərazilərdə hərbiçilərlə bir arada***

Nəhayət, 27 sentyabr 2020-ci il düşmənin üzərinə əks-hücuma keçən milli ordumuzun torpaqlarımızın müdafiəsi uğrunda apardığı 44 günlük müharibə qəhrəmanlıq salnaməsidir. Bu zəfəri müzəffər Ali Baş Komandan və xalq həmrəyliyinin gücü ilə, üçrəngli bayraq altında dəmir yumruq kimi son nəfəsədək vuruşmaq əzmi ilə "Güc birlikdədir!" şüarı ilə, "Qarabağ Azərbaycandır!" nərəsi ilə qazandıq. Qanlı düşmən iradəmizi sındıra, ruhumuza qaranlıq çökdürə bilmədi.

Azərbaycan əsgəri öz ləyaqət və şərəfi ilə layiq olduğu qələbəyə imza atdı. Bu qələbə bizə varlığımızı, mənliyimizi, özümüzü və ən əsası torpaqlarımızı geri qaytardı. Qədim tarixi mənbədə – Orxon-Yenisey abidələrində yazıldığı kimi: "Su kimi axıtdığın qanına, dağlar kimi yığdığın şəhidlərinə layiq ol! Ey ölümsüz türk milləti, silkin və özünə dön!"

Fəxr edirəm ki, bu tarixi dönəmi yaşadım və şahidi oldum. Bir məktəbli kimi yaşadığım hiss, həyəcan məni vətən üçün layiqli övlad olmaq hissi ilə böyütdü. Bu tarixi hadisələr, Qarabağ müharibəsi neçə-neçə məktəbliyə, o cümlədən mənə həyat dərsi keçdi. Rəssam olsaydım, rənglərin sehirli cazibəsi ilə azadlığın, zəfərin tablosunu yaradardım. Duyğularımın tərcümanı olan

bu qələm Prezidentimizin çıxışlarından ilham alan ordumuzun rəşadətini, arxa və ön cəbhənin birliyini, mətbuatdan, televiziyadan izlədiyimiz son xəbərlərin həyəcanını, millət, xalq olaraq özünədərkimizi yaza-yaza bitirə bilməz. Yaşananlar, təəssürat o qədər yüksəkdir ki... Kaş şair olub bütün bunları tərənnüm edə biləydim. Azərbaycan bu qələbəni çox arzulayıb, torpaq həsrəti ilə onu yaşadıb, "həyat bir yoldur" deyib əzmkarlıqla bu əlçatmaz zirvəyə doğru pillə-pillə addımlayıb.

Prezident İlham Əliyevin siyasi görüşləri, intelektual zəkası, məntiqli çıxışları, dünya mətbuatını dəqiq fakt və subutlarla cavablandırması xalqın ona olan rəğbətini, sevgisini daha da artıraraq qürurlandırmışdı. Ölkə başçısının səmimi, vətənpərvərlik hissi ilə köklənmiş nitqi, qətiyyətli qərarları ordunun, xalqın ilhamverici qüvvəsinə çevrildi. Müharibədə baş verən hər hadisəyə münasibəti, qayğısı o qədər səmimi idi ki...



**Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vətən müharibəsi qaziləri ilə görüşü**

O günləri xatırladıqca düşünürəm ki, əsgərinə, şəhidinə, şəhid ailələrinə minnətdarlığı və bu hissdən qaynaqlanan xalq etimadı, inamı, Vətən uğrunda, gələcək nəsillər üçün məsuliyyət hissi ilə yanaşması Prezident və xalq həmrəyliyinin açıq-aydın ifadəsi idi.







**Prezident İlham Əliyev Şuşada bayraq qaldırarkən**

İlham Əliyev bir ölkə başçısı kimi, sərkərdə kimi xalqın sevgisini qazanmış böyük şəxsiyyətdir. Bu şəxsiyyət bizə Ulu öndər Heydər Əliyevin əmanətidir. Azərbaycan xalqı üçün neçə-neçə dövlət əhəmiyyətli tarixi xidmətləri olmuş böyük lider Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" deməsi ilə ürəkləri fəth etmişdir. Televiziya ekranlarında tez-tez nümayiş etdirilən bir kadr mənim yaddaşımda əbədi iz qoyub. "El bilir ki, sən mənimsən..." – deyə, Azərbaycanı tərənnüm edən, qürurlandıran, həmçinin, kövrək notlarla səslənən "Azərbaycan, Azərbaycan!" kəlmələrini söylərkən Heydər Əliyevin nurlu simasında ifadə olunan sönməz şəfəq artıq Azərbaycan xalqının rəmzi kimi əbədidir. Eləcə də qəlbində xalqına olan sonsuz sevgini bu şərəfli vəzifəni ləyaqətlə yerinə yetirən İlham Əliyevin "Şuşa, sən azadsan!" deyərkən gözlərindəki fəxarət hissi xalq məhəbbətinin, vətən eşqinin ucalığından irəli gəlir.



*Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Xudafərin körpüsündə*

Prezidentimizin vətən sevgisi, xalqına olan hörməti və ehtiramı qanında, canındadır. Böyük dayaq, arxa xalqdır. Xalqdan güc alan Prezidentimiz Azərbaycana can olmağı, əsl övlad olmağı bacarmışdır. İlham Əliyev və xalq anlayışı ürəklərdə döyünür, gözlərdən oxunur, tarixə həkk olunur. Ata nəsihətini dinləyən, vəsiyyəti – Qarabağı erməni işğalından azad etməyi bacaran İlham Əliyev Heydər Əliyev yolunun layiqli davamçısı olaraq onun arzularını həyata keçirməklə həm atasına, həm də vətənə olan müqəddəs borcunu yerinə yetirdi. Bugünkü qələbəmizi, azadlığımızı qəlbimizdə daim əbədi yaşatdığımız şəhidlərə, qazilərə, Ali Baş Komandanımız, Prezident İlham Əliyevə borcluyuq. Ali Baş Komandan İlham Əliyevin mübariz ruhlu, ilhamverici müraciətləri, düzgün, ədalətli döyüş strategiyası vətən oğullarından könüllülər ordusu yaratdı, Qarabağı azadlığa qovuşdurdu. Xalq gücünü İlham Əliyevdən, prezidentimiz də qüdrətini xalqdan aldı. Heydər Əliyev yolunu inamla, layiqli davam etdirən xalqımızın ilhamverici oğlu, bizi yeni-yeni qələbələrə səsləyən Prezidentimiz İlham Əliyev xalqı, vətəni naminə





hakimiyyəti qətiyyətlə idarə edir. Xalqın tərəqqisini düşünən İlham Əliyev dövlətimizin gələcəyini məhz bu cür xarakterizə edir: "Müdrik Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti bundan sonra da güclənəcək, zənginləşəcək və hərtərəfli inkişaf edəcəkdir".

Hal-hazırda, xarıbülbülün vətənində, tarixi torpaqlarda, Xudafərin körpüsündə, Qubadlı, Laçın, Kəlbəcər, Cəbrayıl, Füzulidə, bir sözlə, Qarabağ və onun ətrafında həyat öz axarına düşmək üzrədir. Prezidentin bu torpaqlarda, müqəddəs yerlərdə – məsciddə olması, xalq ilə, ordu ilə səmimi söhbətləri, bu ərazilərlə bağlı quruculuq işlərinə start verməsi, xoşbəxt gələcəkdən xəbər verir.



*Prezident İlham Əliyev xalqla birarada*

Artıq əzəli-əbədi torpağımız olan Qarabağ azaddır. Ana vətənə – Azərbaycana bu qələbəni yaşadan Ali Baş Komandan Prezident İlham Əliyev, qəhrəmanlıq salnaməsi yazan Milli ordumuz, şəhidlik zirvəsi, xalqımızın sarsılmaz birliyi hamının qürur qaynağıdır.

Təhsil aldığım məktəbin məzunlarından Heybətov Ağa, Salamov Vüsal, Əliyev İbrahim də Qarabağ müharibəsində qəhrəmanacasına şəhidlik zirvəsinə ucaldılar. Onların ailələrinin, əzizlərinin qürur hissi ilə “Vətən sağ olsun!” deməsi, eləcə də neçə-neçə şəhid ailələrinin, qazilərimizin “hər şey vətən üçün!” söyləməsi vətən sevgisinin göstəricisidir.

Prezidentimizin şəhid adına, ailələrinə, qazilərə xüsusi qayğı və mərhəməti hər addımda hiss olunmaqdadır. Xalqın etibarını qazanmış, ürəklə, ədalətlə, işıqlı sabaha böyük inamla hərəkət edən Prezidentimiz İlham Əliyev müstəqilliyimizin əbədiliyi, torpaqlarımızın bütövlüyü üçün çalışır, xalqına sadiqliyini nümayiş etdirir.

Eli, yurdu vətəni olan Azərbaycanla fəxr edən bu şəxsiyyət xalqı ilə birdir, həmfikirdir. Tanrı da haqq işinə köməkdir. Ədalətli, şərəfli, məqsədi xalqının xoşbəxtliyi olan Prezidentimiz vətənə olan sonsuz məhəbbətini daim hərəkətləri ilə sübuta yetirir.

Nə xoşbəxt xalqıq ki, xalq və Prezident birliyimiz əbədidir. Zəfər paradında xalqına, ordusuna, qardaş türk xalqına minnətdarlığını bildirən İlham Əliyev öz mənəvi keyfiyyətləri, mərdliyi, qətiyyəti bir daha sübut etdi ki, xalqımızın qəhrəmanıdır. Ən xoş müjdələrlə, qələbələrlə nurlu sabahlara qətiyyətlə irələyən cənab İlham Əliyevə xalqımızın təşəkkür dolu sevgisi həmrəyliklə ifadə olunmuşdur:

***Şərəfimiz, şöhrətimiz, torpağımız sizinlədir,***
***Ucalarda dalğalanan bayrağımız sizinlədir,***
***Uğrunda tökülən qan, verilən can***
***Əbədiyaşar Azərbaycan sizinlədir.***

Cənab Ali Baş Komandan! Azərbaycanın xoş günləri qabaqdadır. Bu firavan həyatı birlikdə yaşayacağıq. Xalqımızın milli-mənəvi dəyərlərini yaşadaraq vətənə layiqli övlad olacağıma söz verirəm.

Qələbən mübarək, Azərbaycan!





**NASTYA QƏNİYEVA**
*Xətai rayonu*
*116 nömrəli tam orta məktəbin*
*IX sinif şagirdi*
**Elmi rəhbər: Könül Həsənli**



## ZƏFƏR PARADI, DÜŞMƏNƏ GÖZ DAĞI

Zəfər Paradı, sən dövlətimizin, millətimizin şah əsərinə, şeirlərinə çevrildin. Qürurumuza qürur qatdın. Şanımıza şan verdin. Sənin hesabına parçalanmış ruhumuz birləşdi. Qalib ruhumuz Zəfər Paradına çevrilib Qarabağı dolaşdı, Bakı küçələrində gəzdi. Hər evin, hər ürəyin sahibinə çevrildin Zəfər Paradı. Bayrağımızı yenidən ucalara qaldırdın. «Bir kərə yüksələn bayraq, bir daha enməz!» deyib- Səndən ötrü can verdik, qurban verdik, şəhid verdik .

Azərbaycan xalqı işğaldakı torpaqlarımızın azad ediləcəyi günü çoxdan gözləyirdi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm prezidentimiz İlham Əliyevin davam etdirdiyi bu siyasətin nəticəsində günlərin birində torpaqlarımızın azad ediləcəyinə hər bir azərbaycanlı əmin idi. Artıq torpaqlarımız azaddır və 2020-ci il dekabrın 10-da Bakı şəhərinin Azadlıq meydanında keçirilən ordumuzun Zəfər paradı şanlı qələbəmizi bütün dünyaya bəyan etdi. Bu gün hər bir azərbaycanlı özünü dünyanın ən xoşbəxt xalqının nümayəndəsi sayır, böyük sevinc hissləri keçiririk. Çünki, torpaqlarımızın azad edilməsi ilə böyük arzumuz, ən müqəddəs niyyətimiz çin oldu və Azadlıq meydanında Zəfər paradına şahidlik etdik.



Prezident İlham Əliyevin dediyi kimi, bu parad tarixi hadisədir: «Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. İkinci Qarabağ Müharibəsi qələbəsi şərəfinə, Bakıda keçirilən tarixi hərbi paradda 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri də iştirak edirdi. Müharibə zamanı qənimət kimi ələ keçirilmiş Ermənistan Silahlı qüvvələrinə məxsus hərbi texnikanın bir qismi nümayiş olundu. Azadlıq Meydanında keçirilən hərbi paradda 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri nümayiş etdirildi.

44 günlük Vətən müharibəsinin hər günü müasir döyüş imkanlarından istifadə edən Azərbaycan Ordusunun müzəffər yürüşü ilə yadda qaldı. Elə bir cəbhə, elə bir istiqamət olmadı ki, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın.

Paraddakı çıxışı zamanı Prezident İlham Əliyev bir daha əsgər və zabitlərimizin qəhrəmanlığı barədə danışaraq dedi: «Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi.

Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki,





Azərbaycan ordusu oradan keçə bilməsin. Eyni zamanda Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi.

Ancaq 27 sentyabr - 10 noyabr İkinci Qarabağ (Vətən müharibəsi) müharibəsi zamanı Azərbaycan Respublikasının əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi". Bu tarixi qələbənin qazanılmasında hərbçilərimizin yüksək vətənpərvərlik hisslərinə, döyüş əzminə malik olmaları böyük rol oynadı. Bəli, Azərbaycan əsgəri düşmənin üzərinə ölümdən belə çəkinmədən hünərlə, cəsarətlə yürüdü. Bu yolla şəhidlik zirvəsinə ucaldı.



Azərbaycan dövləti həmişə olduğu kimi, müharibə günlərində də öz yanında Türkiyə dövlətini gördü. Türkiyə, bu günlərdə öz qardaşlıq borcunu ləyaqətlə yerinə yetirdi. Azərbaycanı haqq savaşında sonadək dəstəkləyəcəklərini dəfələrlə bəyan etməklə hər bir azərbaycanlını qürurlandırdı. Odur ki, paradda iştirak etmək üçün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana gəlməsi, o cümlədən Türkiyə hərbçilərinin nümunəvi keçidi xalqımız tərəfindən sevinclə qarşılandı.




Zəfər paradı Vətən müharibəsinin növbəti şərəfli səhifəsi kimi tariximizi şərəfləndirdi, düşmənlərimizin isə bağrına, gözünə ox kimi batdı.

Qüdrətlənən Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməklə tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etdi.

***Başım üstdə məğrur-məğrur dalğalanan***
***Bayrağına canım qurban, Azərbaycan!***
***Ruhuma büt, cismim üçün vətən olan***
***Torpağına canım qurban, Azərbaycan!***





**FATİMƏ ƏSGƏROVA**
*Nəsimi rayon*
*35 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Zinaida Musayeva**



## İLHAM ƏLİYEV VƏ UĞURLU DİPLOMATİYA

Bu gün nəinki milyonlarla azərbaycanlının, eləcə də bütün Türk dünyasının görkəmli siyasi xadimi olan İlham Əliyev ötən 200 illik tariximizdə Azərbaycan torpaqlarını işğaldan azad edən ilk fateh dövlət başçısıdır. Bir il öncə «Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsini səsləndirən Ali Baş Komandanın taktiki strategiyası, müdrik qərarları, Müzəffər Ordu quruculuğu sayəsində hazırda "Qarabağ Azərbaycandır!" bəyanatı gerçək və real bir həqiqətdir.

Azərbaycanın böyük Qarabağ Zəfərinə nail olmasında üç əsas komponentin böyük əhəmiyyəti var. Birincisi, Azərbaycan iqtisadiyyatının inkişafıdır ki, bu konsepsiyanın əsasını Ümummilli lider Heydər Əliyev qoymuşdur. "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir" deyən Azərbaycanın dahi rəhbəri güclü ölkənin bünövrəsini qoyacaq iqtisadi islahatlara başlamış və böyük dövlətlərin Azərbaycanda iqtisadi maraqlarını balanslaşdıran "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuşdur. Beləliklə, Azərbaycan Avropanın, Qərbin enerji təhlükəsizliyində söz sahibinə çevrilmiş və iqtisadi inkişafın, dövlət müstəqilliyinin möhkəm təminatının bünövrəsi qoyulmuşdur. Azərbaycanın bu



uğurlarını davam etdirən İlham Əliyev peşəkar siyasətçi, diplomat kimi atası – Ulu öndər Heydər Əliyevin Qarabağı işğaldan azad etmək vəsiyyətini gerçəkləşdirmək üçün böyük daxili islahatlar apardı, ölkəmizin strateji müttəfiqi olan Türkiyə ilə bütün sahələrdə əlaqələri daha yüksəklərə daşıdı.

Unutmayaq ki, Qarabağdan, eləcə də Ermənistandakı öz doğma torpaqlarından qovulan 1 milyondan çox qaçqın və məcburi köçkünün olmasının yaratdığı əlavə iqtisadi çətinliklərə baxmayaraq İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi siyasət, institusional kadr dəyişiklikləri nəticəsində ciddi inkişaf əldə edildi, ölkənin büdcəsi artdı və valyuta rezervləri formalaşdı. Əhalinin gəlirlərinin ilbəil yüksəlməsi onların maddi vəziyyətinin yaxşılaşmasına, məşğulluq problemlərinin həllinə kömək etdi.

Azərbaycanın iqtisadi qüdrətinin analoji davamı olaraq ölkənin hərbi büdcəsi də artdı və burada ikinci komponent kimi məhz ordu quruculuğunu, Dəmir Yumruğumuzun formalaşmasını qeyd etməliyik. Azərbaycanın hərbi arsenalının müasir silahlarla təchiz olunması, Azərbaycan Ordusunun şəxsi heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması, onların təhsil almasına xüsusi diqqət yetirilməsi, xaricdə təhsil alan zabit heyətinin formalaşdırılması, birgə təlimlərin keçirilməsi Azərbaycanın Şanlı Ordusunu gücləndirdi. Nəticədə Azərbaycan ordu quruculuğunda böyük uğurlara nail oldu və beşinci nəsil döyüşə bilən, müasir silah arsenalına malik bir Milli Ordumuz formalaşdı.





Üçüncüsü, uğurlu xarici siyasət amilidir ki, güclü iqtisadiyyat və qüdrətli ordunun formalaşmasından sonra qarşıya qoyulan ali məqsədlərə çatmaq üçün bu, çox mühüm əhəmiyyət daşıyırdı. Burada biz təməli Ulu öndər tərəfindən qoyulan balanslaşdırılmış xarici siyasətin uğurla davam etdirilməsini qeyd edə bilərik. Biz yaxın qonşularımız Gürcüstan, Rusiya, İran ilə əməkdaşlığı inkişaf etdiririk, Türkiyə ilə isə münasibətlərimizi artıq strateji müttəfiqlik, qardaşlıq səviyyəsinə qaldırmışıq. Təsadüfi deyildir ki, «Can Azərbaycan" kəlməsi ilə Azərbaycan xalqına müraciət edən Türkiyənin dövlət başçısı Rəcəp Tayyib Ərdoğan Azərbaycan Prezidentinə «Dostum, qardaşım, şəxsinə böyük hörmətim



olan İlham Əliyev" deyə xitab edir. Bu, əlbəttə, Türkiyə-Azərbaycan münasibətlərində ən yüksək mərhələdir. Eyni zamanda İlham Əliyev Avropa Birliyi ilə güclü ticari əlaqələrimizin qurulmasına, xüsusilə də Avropanın Şərq ölkələri ilə münasibətlərinin daha möhkəm olmasına böyük töhfələr verdi, nəticədə onların enerji təhlükəsizliyində Azərbaycan müstəsna yer tutdu. Xatırladaq ki, həmin dövlətlərin bir çoxu Avropa Birliyinin, NATO-nun üzvüdür və bu qurumlarda tərəfdaşların olması Azərbaycana

əlavə siyasi manevr imkanları yaratdı. Diqqət yetirsəniz, Azərbaycan Qoşulmama Hərəkatından başqa, heç bir regional, hərbi birliklərə üzv olmur və öz baxışlarında daha çox ikitərəfli münasibətlərin qurulmasına tərəfdardır.

Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsi dövründə dünyanın böyük gücləri, həmçinin, türkdilli dövlətlər, eyni zamanda Ukrayna, İsrail, Pakistan kimi müttəfiqlər, eləcə də digər Şərqi Avropa ölkələri məhz uğurlu iqtisadi-siyasi münasibətlər nəticəsində bizə Qarabağın azad olunmasında siyasi və mənəvi dəstək verdilər. BMT-nin Təhlükəsizlik Şurasında Minsk qrupu ölkələrinin nümayəndələrinin Azərbaycanın haqq savaşına təzyiq vasitəsi kimi hazırladıqları bəyanat məhz Qoşulmama Hərəkatına daxil olan ölkələr, həmçinin, Böyük Britaniyanın etirazı ilə rədd olundu.



Yuxarıda sadaladığımız amillər sözsüz ki, bizim qələbəmizi şərtləndirən əsas faktorlardır. Ancaq bir nömrəli amil İqtidar-Xalq, İlham Əliyev-Xalq, Xalq-Ordu Birliyidir. Azərbaycan xalqı öz liderinin ətrafında bir yumruq kimi sıx birləşərək Qarabağımızın azad olunması uğrunda bütün səylərini ortaya qoydu və öz qəhrəmanlığı ilə dünyanı yaxşı mənada təəccübləndirdi.








Cənab Prezidentin özünün də dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan xalqının bu birliyinin təcəssümü olan "Dəmir Yumruq" düşmənin başına endirildi, 30 ilə yaxın müddətdə torpaqlarımızın 20 faizini işğalda saxlayan Ermənistan ordusunu darmadağın etdi. Vətənpərvər, rəşadətli Azərbaycan Silahlı Qüvvələri bir-birinin ardınca rayon və kəndlərimizi, eyni zamanda noyabrın 8-də Qarabağın ürəyi olan Şuşa şəhərini düşmən tapdağından qurtardı. Noyabrın 10-da düşmənin imzaladığı kapitulyasiya bəyanatına əsasən, ölkəmizin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı təmin edildi, bununla da doğma torpaqlarımızdan didərgin düşən məcburi köçkünlərimizin, ümumiyyətlə, bütövlükdə Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyuldu. Prezident İlham Əliyevin müdrik rəhbərliyi, mükəmməl siyasi bacarıqları sayəsində əldə edilən bu möhtəşəm qələbə tariximizə qızıl hərflərlə yazıldı.

Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasındakı tarixi nitqi yenə də bütün həqiqətlərin, qalib Azərbaycanın mesajlarının aidiyyəti kürsülərə çatdırılmasına

xidmət etdi. Şanlı Ordumuzun qəhrəmanlığı ilə Ermənistan ordusunun böyük hissəsinin məhv edildiyini diqqətə çatdıran Prezident bu münaqişənin artıq keçmişdə qaldığını vurğuladı. «Bu artıq tarixdir" dedi, həqiqətən də azərbaycanlıların "Dəmir Yumruğ"u ilə yazılan zəfər tarixidir. Və bu tarixin döyüş meydanında qəhrəmanları bizim unudulmaz şəhid və qazilərimiz, hərbi siyasi meydanda qəhrəmanı isə cənab Prezident İlham Əliyevdir.

Qətiyyətlə demək olar ki, İlham Əliyev islahatçı praqmatik rəhbər və idarəçilik səriştəsi olan, informativ hazırcavablığı ilə də terrorçu qonşu düşmənin istər dünənki, istərsə də hazırkı rəhbərlikləri ilə müqayisədə öz məharəti, dolğun və diplomatik məntiqi ilə qalib liderdir. Onun Ali Baş Komandanı olduğu müzəffər Azərbaycan Ordusu «Böyük Ermənistan" mifini darmadağın etdi. İlham Əliyev XIX əsrin əvvəllərindən başlayaraq Qarabağda köç salan (Türkmənçay müqaviləsi), tarixi-əzəli Azərbaycan torpaqlarının toponomiyasını dəyişən, erməniçilik-daşnakçılığın "dənizdən dənizə" xülyası ilə beyinləri yuyulan ermənilərə Azərbaycan torpaqlarında yaşadıqlarını və tarixi torpaqlarımız olan İrəvan xanlığında dövlət qurduqlarını bəyan edən böyük liderdir.

"Qarabağ tarixi Azərbaycandır" aksiomunu beynəlxalq kürsülərdən qürurla səsləndirən, qurucu, yaradıcı, torpağına azadlıq gətirən, Azərbaycan Ordusuna və xalqına arxalanan İlham Əliyev Azərbaycanın dövlət sərhədlərini bərpa edən, ermənilərin 30 illik işğal siyasətini pozan, Qarabağa azadlıq-sülh-rifah gətirən Ali Baş Komandandır. Bu yolda onun həm ön cəbhədə yoldaşı, həm də mənəvi sirdaşı olan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın da əməyi böyükdür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Ulu öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən bir dövlət xadimi olmaqla yanaşı, milli dəyərlərə böyük sevgisi, humanizmi, nəcib





xanımlığı ilə xalqımızın qəlbində dərin ehtiram qazanıb.

Məlumdur ki, hazırda bütün dünyada iqtisadi inkişaf zəifləyib və bəzi böyük dövlətlərdə durğunluğun şahidi oluruq. Buna baxmayaraq aparılan uğurlu diplomatiya və güclü siyasətə əsaslanaraq qeyd edirik ki, Azərbaycan 2021-ci ilə iqtisadi inkişaf hədəflərini açıqlayıb və qarşıda ölkə iqtisadiyyatını yenidən qaldırmaq, inkişaf etdirmək, 30 il ərzində məhv edilmiş Qarabağ torpaqlarını yenidən dirçəltmək kimi şanlı missiya dayanır.



*Möhtərəm Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Qubadlı rayonunda*

Azərbaycan Respublikasının Prezidenti, zəfərləri ilə tarix yazan, qalib Ali Baş Komandan, cənab İlham Əliyevin təbirincə desək: "İkinci Qarabağ müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan xalqının birliyi! Yaşasın Azərbaycan ordusu! Qarabağ Azərbaycandır!!!"



**İBADOVA NİLGÜN**
*Nərimanov rayonu*
*39 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*
**Elmi rəhbər: Gülşən Köçərli**

# AZAD EDİLMİŞ TORPAQLARIN GENİŞ POTENSİALINDAN İSTİFADƏNİN ÖLKƏMİZİN GƏLƏCƏK İNKİŞAFINA TƏSİRİ İMKANLARI

2020-ci il artıq geridə qaldı. Bu il bizim üçün həm xoş xatirələri, həm də kədərli anları ilə yaddaşımızda qaldı. Kədərli tərəfi Qarabağ uğrunda döyüşlərdə 2881 şəhidimizin olması, sevindirici tərəfi isə torpaqlarımızın erməni işğalçılarından azad olunması xəbəri oldu. 10 noyabr 2020 - ci il tarixə qızıl hərflərlə yazıldı , məhz bu gün biz qələbə çaldıq. Biz bu şanlı qələbəni igid oğullarımızın sayəsində qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə isə şəfa versin!

Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan ordusunun şücaəti nəticəsində, nəhayət ki, 30 ilə yaxın ayrılıqdan sonra, Qarabağ torpaqları işğal altından azad olundu. 10 dekabr 2020 – ci ildə biz bu şanlı Zəfər Qələbəmizi qardaş Türkiyə Respublikası ilə birlikdə qeyd etdik.

Bəs işğal altından azad olunmuş torpaqlarımız ölkəmizin iqtisadiyyatının gələcək inkişafına nə vəd edir?





Hal-hazırda, bu bölgələrin iqtisadiyyat potensialından danışmaq bir az çətindir. Məlumdur ki, başdan-başa viran qoyulmuş o yerlərdə insanlar yalnız köklü quruculuq işləri aparıldıqdan sonra yaşaya bilərlər. Ölkə başçısının dediyi kimi: «Ərazilərin minalanması ilə bərabər, burada hər şey, bütün infrastruktur tamamilə dağıdılıb, şəhərlər yoxdur, qayıdası yer yoxdur. Praktiki olaraq bütün kəndlər dağıdılıb."



Çünki, ilk növbədə, bu torpaqlar yararlı vəziyyətə salınmalı və ilkin şəraitin qurulmasına başlanmalıdır. Sonrakı mərhələdə isə iqtisadi inkişaf layihəsi keçirilməlidir.

Bu zaman belə bir sual yaranır : "Azad edilmiş torpaqların iqtisadi potensialı nədən ibarətdir və biz bu potensialdan necə istifadə etməliyik? "

İqtisadi potensial, əsasən, təbii landşaft və turizm, sənaye, su təchizatı, elektrik enerjisi, yeyinti sənayesi, faydalı qazıntı və xammal , eləcə də, kənd təsərrüfatından ibarətdir.

Azad edilmiş bölgələrin güclü iqtisadi potensialı ölkəmizin yüksəlişinə böyük təkan verəcəkdir. Qarabağ regionu zəngin təbii sərvətləri ilə seçilən bir ərazidir.

Bu ərazilərdə 155 növ müxtəlif faydalı qazıntı yataqları mövcuddur. Bunlara : 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü , 10 gil, 9 qum – çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 9 vermikulit , 14 əlvan və bəzək daşları və bu kimi yataqlar aiddir.



*Suqovuşan su anbarı*

Bundan əlavə, bu ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120 - dək müxtəlif tərkibli mineral su yataqları vardır. Kəlbəcər İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə dünyada tanınıb.

Qarabağda azad olunan ərazilərin zəgin su ehtiyatları ölkənin sənaye və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir.

Suqovuşan kəndi 2020-ci il oktyabrın 3-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad olunub. Hazırda su anbarından buraxılan suyun nizamlanması nəticəsində Tərtər, Goranboy və Yevlax rayonlarına suyun verilməsi, eyni zamanda ekoloji tarazlıq təmin olunub.

Hal-hazırda bu istiqamətdə bu və digər işlər davam etdirilir, bununla bərabər, Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən 29 km-lik avtomobil yollarının bərpası da başa çatmaq üzrədir.







Qarabağda iqtisadiyyatın əsasını kənd təsərrüfatı olan üzümçülük, taxılçılıq, meyvəçilik, pambıqçılıq, baramaçılıq, bostan və tərəvəz məhsulları təşkil edir.

Qarabağın bütün torpaqları bir incidir və bu ərazilərin bərpasından sonra burada turizmi inkişaf etdirmək vacibdir. Bu istiqamətdə səylərimizi artırmaq respublikamız üçün son dərəcədə vacib məqamdır.

Qarabağın bərpa olunmasında xarici şirkətlər də sərmaye qoyuluşuna maraqlıdır və bu da bizim maraqlarla üst-üstə düşür. Belə olduğu halda respublikamızın iqtisadiyyatı sürətlə inkişaf edəcəkdir.

Bunu da qeyd etmək lazımdır ki, möhtərəm Prezident cənab İlham Əliyev 5 yanvar 2021 - ci ildə Şuşa şəhərini Azərbaycanın Mədəniyyət paytaxtı elan edib. Mənim fikrimcə,həm qələbə simvolumuz, həm də Qarabağın nadir çiçəyi olan xarı bülbülü yadda qalan bir abidə kimi şəhərin girəcəyində görmək çox xoş olar. Bununla bərabər, bu rəmzi və tarixi abidələri, görməli məkanları özündə əks etdirən kitabçaların şəhərə gələn qonaqlara paylanması,onların diqqətini daha da cəlb edə bilər.

İşğal altından azad olunmuş Qarabağ torpaqlarının hər bir bölgəsində canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş abidələrin ucaldılmasını istərdim.

Biz şagirdlər əminik ki, Ali Baş Komandanımız İlham Heydər oğlu Əliyev Cənablarının işğaldan azad olunmuş Qarabağ torpaqlarına qətiyyətli səfərləri Qarabağın gələcəkdə yüksək dərəcədə inkişafına səbəb olacaqdır.



**NURAY NAMAZLI**
*Binəqədi rayonu*
*3 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*
**Elmi rəhbər: Kəmalə Həsənova**

# QARABAĞ ZƏFƏRİ VƏ ONUN TARİXİ ƏHƏMİYYƏTİ

13 yaşımı tamamladım. Yaddaşıma əbədi həkk olunacaq yaşım. Məhz bu yaşımda vətənin bizim üçün, biz azərbaycanlılar üçün nə demək olduğunu anladım, dərk etdim. Anladım ki, bu 27 ildə "vətən" adlandırdığımız Qarabağımız, əslində, tapdalanmış, yağmalanmış, sinəsində sağalmayacaq yaralar açılmış bir məkan olub. Uğrunda on minlərlə igid oğulların qanı tökülmüş bir yurd yeri olub. Bağrında yetişdirdiyi yüz minlərlə övladına həsrət qalan, gözü yollarda olan tənha torpaq olub Qarabağ.

Bəs biz azərbaycanlıların arzusu, amalı nə olub bu 27 ildə?

Qarabağımıza yenidən qürurla, azad vətənimiz olaraq ayaq basmaq. Çünki o elə bir yağının tapdağı altında idi ki, bəşəriyyət hələ belə murdar xislətli, xəstə ideologiyalı, saxta tarixli düşmən görməyib. Qoca, cavan, körpə demədən vəhşiliklə qətlə yetirən, etdikləri işgəncələrdən zövq alan, xalqımızı qıcıqlandırmaq üçün əlindən gələni əsirgəməyən vəhşi varlıqlar.

27 il ərzində atılan bütün sülhməramlı addımları geri çevirərək bizim humanistliyimizə arxayın olan azğın ermənilər







öz çirkin əməllərindən əl çəkmir, qan yaddaşımıza yeni tarixlər əlavə etməyə davam edirdilər. 12 iyul 2020-ci ildə başlayan Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimov və digər igid hərbçilərimizin Vətən uğrunda şəhid olması Azərbaycan xalqı üçün bardağı daşıran son damla oldu. Sanki şəhid generalımız bu neçə ildə üzərimizə səpilmiş, gözümüzü bağlamış, qanımızı dondurmuş torpağı sovuraraq özü ilə soyuq məzara apardı, xalqını ayağa qaldırdı.

Güclü siyasəti, uzaqgörənliyi, vətənpərvərliyi və səmimiyyəti ilə xalqını bir yumruq kimi birləşdirən möhtərəm Prezident cənab İlham Əliyev səfərbərlik elan edərək xalqı Vətən savaşına səslədi. O yumruq ki, düşmənin saxta tarixinə bir zərbə vurdu. Dünyanın şahidliyi ilə 27 illik vətən həsrətinə 27 sentyabr 2020-ci ildə son qoyulmasına başlandı. Qisas üçün alışıb yanan vətəndaşların arzusu gerçəkləşdi. Sözün əsl mənasında azərbaycanlıların vətən naminə cihadı başlandı. Ağıla gəlməyəcək qəhrəmanlıqlarla yadda qaldı bu cihad. O qəhrəmanlıqlar ki, mən onlar haqqında yalnız kitablardan oxumuşdum, böyüklərimdən eşitmişdim. Birinci Qarabağ müharibəsindəki qeyri-bərabər döyüşlərdə sərgilənən unudulmaz igidliklərin davamı idi sanki.

İndi isə mən gələcəkdə tarix kitablarına yazılacaq qəhrəmanlıqların canlı şahidiyəm. Qürurluyam, eyni zamanda çox qarışıq hisslər yaşayıram. Gözümün önündə rütbə, yaş ayrıcalığı etmədən bir cərgədə düzülür igidlər. «Vətən sağ olsun!» deyib ailələ-

ri ilə vidalaşaraq onları bir-birinə əmanət edib döyüşə yollanır igidlər.

*"Çəkil yağı düşmən Qarabağımdan,*
*Şuşa qalasından, uca dağımdan.*
*Çəkil qabağımdan, keç qabağımdan,*
*Mən əsgər andını içib gəlmişəm.*
*Xocalı, Xocavənd, Xankəndi mənim,*
*Zəngilan, Cəbrayıl başımda çənim,*
*Ağdərə, Qubadlı yuxuma qənim,*
*Mən əsgər andını içib gəlmişəm" –*

– deyərək döyüşə atıldı igidlərimiz. 44 günün hər dəqiqəsi bir tarix oldu. Söyləməklə, yazmaqla o anları təqdim edərkən heç cür o hissləri çatdırmağa yetməyən bir tarix.

***Hansı qəhrəmanlıqları əlavə etdik bu tarixə? Kimlərlə fəxr etdik bu tarixdə?***

Ard-arda gələn qələbə xəbərlərini xalqına həyəcanla, sevinclə çatdıran, hər bir şəhidi üçün üzülüb qəhrəmanları ilə qürur duyan Prezidentimizlə fəxr etdik. Müzəffər Azərbaycan ordusunun qəhrəmanlıqlarını yazdıq tarixə. əsgəri ilə çiyin-çiyinə vuruşan Mais Bərxudarov, Hikmət Mirzəyev, Hikmət Həsənov kimi neçə-neçə generallarımızın adını yazdıq tarixə. Xarici hərbi mütəxəssislərin iştirakı ilə 27 il ərzində yaradılan, "sarsılmaz Ohanyan səddi" adı verilən, düşmənin çox güvəndiyi istehkamı qısa müddət ərzində məhv edən güclü hərbçilərimizlə fəxr etdik.

Alınmaz qalamız olan Şuşanın azad olunması üçün Hikmət Mirzəyevin hazırladığı döyüş planı dünya hərb tarixində unudulmaz iz qoydu. O qədər mütəşəkkil şəkildə hazırlanmış bir plan idi ki, hətta düşmənin təşvişə düşüb bir-birini öldürəcəyi saniyəyə qədər hesablanmışdı. Belə ağır bir əməliyyatın öhdəsindən ancaq özünə güvənən, gücə, qüdrətə malik olan Azərbaycan əsgəri gələ bilərdi. Dörd-beş gün yol gedərək sıldırım qayalara dırmaşıb düşmənin üzərinə şahin kimi şığıyan Azərbaycan əsgə-







ri. Hərbi texnika olmadan, əlbəyaxa döyüşdə yüzlərlə erməni əsgərini məhv edən, Şuşaya üçrəngli bayrağını sancan Azərbaycan əsgəri. Həmin dövrdə Azərbaycana düşmən gözü ilə baxan Fransa kimi bir dövlətin jurnalistinin Şuşa haqqında yazdığı məqalə məni o qədər qürurlandırdı ki, onu sizinlə də bölüşmək istərdim. Məqalədə deyilirdi: "Şuşaya bir gecədə necə girdilərsə, jurnalist kimi peşəmizi unutduq, epizod götürmədən çıxdıq oradan. Azərbaycan əsgərinin döyüşünü görməsəm də, Xankəndi, Yerəvan xəstəxanalarında Şuşadan yaralı gətirilən əsgər, zabit, özəl qüvvələr çoxu bıçaq yarası ilə gətirilmiş, boğazlarından şah damarı kəsilənlər idi... Mən bir jurnalist kimi Azərbaycan əsgərini Tanrının əsgərləri adlandırıram. Çünki əlbəyaxa döyüşərək edilən müharibələr qılıncla olan zamanlarda idi. Bu əsgərlər silahın tətiyinə, güllənin gözünə baxırdılar".

Bəli! Budur Azərbaycan əsgəri! Yaralanmasına baxmayaraq döyüş yoldaşlarını tək qoymamaq üçün şəhid olmağı özünə şərəf bilərək onlarla ermənini məhv edən Azərbaycan əsgəri. 2800-dən çox şəhidi, minlərlə qazisi və onların yolunu davam etdirən mərd oğulları ilə tarixə yazıldı Azərbaycan əsgəri. Başını dik tutan şəhid anası ilə, şəhid olduğu üçün oğluna təşəkkür edən şəhid atası ilə, gözüyaşlı "Vətən" şeiri səsləndirən şəhid balaları ilə fəxr etdi Azərbaycan xalqı.

44 günlük müharibə bizə 44 ilin təcrübəsini yaşatdı. Biz 10 milyonluq bir cəmiyyətin siyasi baxışlarından, milliyyətindən, dinindən asılı olmayaraq vahid can olduğunu – Can Azərbaycan olduğunu gördük.



Beynəlxalq aləmdə dostumuzu və düşmənimizi yaxşı bəlirlədik. Azərbaycanın olmadığı beynəlxalq kürsülərdə bizim sözümüzü deyən, davamızı dəstəkləyən, vicdan və ədalət uğrunda hayqıran qardaşlarımızı gördük. Türkiyə, Pakistan və digər dostlarımız bu davada bizi tək buraxmadı, sağımızda, solumuzda, arxamızda bizə çiyin verdi, "arxayın olun ki, tək deyilsiniz" – dedi.

*Neçə sirdaşın var, silahdaşın var,*
*Yeni tarix yazan ər savaşın var.*
*Sən yalnız deyilsən, Türk qardaşın var,*
*Müzəffər Ordumuz, qalib Ordumuz.*

"Vətəndaşlıq borcu təkcə ön cəbhədə döyüşmək deyil, vətəndaşlıq borcu həm də arxa cəbhədə hər kəsin öz işini layiqincə yerinə yetirməsidir". Yaddaşıma həkk olunan bu ifadəni tarix müəllimimdən eşitmişdim. Çox sevinirəm ki, müəllimimin bu sözlərini Azərbaycan vətəndaşı layiqincə doğrultdu. Sökülüb-yırtılmış ayaqqabı ilə "ASAN" Xidmət Mərkəzinə gələrək əlindəki bütün pulunu ordumuza bağışlayan Hikmət babamız, böyük tırlarla döyüş bölgəsinə ərzaq, isti geyim, yataq göndərən oğullarımız, övladlarının boğazından kəsib qazanlarla isti





yeməklər, çörəklər bişirib əsgərlərimizə yollayan analarımız, bütün sosial mediada gecə-gündüz demədən haqq səsimizi dünyaya çatdıran bacı-qardaşlarımız, Ali Baş Komandanı – yenilməz sərkərdəsi ətrafında vətəni üçün bir yumruqda birləşən xalqımız sübut etdi bunu. Sübut etdi və əsl dövlət-xalq birliyinin əyani nümunəsini bütün dünyaya göstərdi.

Nəhayət, qələbə günü yetişdi. 10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış bəyanata görə, 10 noyabrdan etibarən Qarabağda döyüşlər dayandırıldı və atəşkəs barədə razılığa gəlindi. Bu razılıq Ermənistan üçün kapitulyasiya aktı, Azərbaycan Respublikasının isə möhtəşəm qələbəsi idi.

44 günlük II Qarabağ müharibəsində əldə etdiyimiz qələbənin şərəfinə 10 dekabr 2020-ci ildə Zəfər Paradı keçirildi. Milliyyətindən asılı olmayaraq özünü Azərbaycan vətəndaşı sayan hər kəs qələbə sevincini bir yerdə yaşadı.

Hər bir vətənpərvər azərbaycanlı kimi mənim də arzum Qarabağda olmaq, qurub-yaratmaq, gəzib-dolanmaqdır. Mənə elə gəlir ki, igidlərimizin qanı ilə yuyulan o müqəddəs torpağa ayaq basmadan öncə göylərdən bizi izləyən şəhidlərimizin ruhundan, onların gözü yolda qalan valideynlərindən, "ata" deyə fəryad edən balalarından halallıq almalıyıq.

Mən I Qarabağ müharibəsi veteranının – bir hərbçinin qızı olaraq üzümü sizə tuturam, ey şəhidim, ey qazim, ey vətən oğlum, Şuşada gəzəcəyəm sənin ayaqlarınla, Cıdır düzünü seyr edəcəyəm sənin gözlərinlə, Xarıbülbülü dərəcəyəm sənin əllərinlə. Hər bir anımda sizi xatırlayacağam, Azərbaycan igidləri! Bütün varlığımla söz verirəm! And içirəm!



**AYAN HƏSƏNLİ**
*Səbail rayonu*
*132-134 nömrəli təhsil kompleksinin*
*IX sinif şagirdi*
**Elmi rəhbər: Tünzalə Səmədova**

## İLHAM ƏLİYEV – BEYNƏLXALQ MEDİA

Tarixin çətin sınaqlarından çıxmış Azərbaycan xalqı bu dəfə də böyük əzmkarlıq və birlik nümayiş etdirərək haqq və ədaləti bərqərar etdi. Xalqımızın 44 günlük ölüm-dirim mübarizəsi böyük zəfərlə nəticələndi. Bu gün mən bu yazımda cənab Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin Vətən müharibəsi dövründə informasiya və diplomatiya sahəsində fəaliyyətindən söz açmaq istəyirəm. Axı biz şagirdlər də bu Vətən müharibəsinin şahidləriyik.

1988-ci ildən bəri mənfur düşmənlərimiz – ermənilər tərəfindən davam edən torpaqlarımızın işğalına, təxribat və vandalizminə qarşı başladılan "Dəmir yumruq" əməliyyatı tarix boyu yaddaşlarda qalacaq. Hərbi əməliyyatlar başlayandan İlham Əliyev Ali Baş Komandan kimi cəbhədə, dövlət başçısı kimi isə diplomatiya və informasiya sahəsində gərgin və məhsuldar fəaliyyətə başladı. Tarix boyu yalan danışıb bütün dünyanı bu yalanlara inandırmağa çalışan ermənilərlə nəinki ön cəbhədə, eyni zamanda informasiya cəbhəsində də mübarizə aparırdıq. Bu cəbhədə yenə də bütün yükün ən ağırını öz üzərinə götürən xalqımızın lideri İlham Əliyev idi. Dünyanın sanballı media





nümayəndələrinə tarixi faktlarla haqq işimizi sübut edən, qələbə çalmaq və torpaqlarımızı geri qaytarmaq uğrunda qətiyyət nümayiş etdirən, bu yolda geri çəkilməyəcəyini bəyan edən Prezidentimiz hər bir azərbaycanlının ürəyindən xəbər verirdi. İlham Əliyev sözünü Rusiyada "Valday" Diskussiya Klubunun tribunasından dedi: "Qarabağ Azərbaycandır!" Mötəbər tribunada, canlı efirdə deyilən bu sözü bütün dünya eşitdi. Hamıya bir daha agah oldu ki, Qarabağ Azərbaycanındır və Azərbaycanın lideri münaqişə ilə bağlı haqlı mövqeyindən bir addım da geri çəkilən deyil.



*Prezidentin xalqa müraciəti*

Daim mətbuata açıq, jurnalistlərin istənilən suallarına cavab verməyə hazır olan İlham Əliyev çox qısa bir müddətdə 30-dan artıq televiziya, informasiya agentliyinə və qəzetə müsahibə ver-

di. Bunların sırasında "Əl-Cəzirə", "Euronews", "Sky News", habelə "Figaro" və "France-24", Rusiyanın İnterfaks Agentliyi,



*Prezident İlham Əliyevin Əl-Cəzirə telekanalına müsahibəsi*

RBK, ABŞ-ın "Fox News", Almaniyanın ARD televiziya kanallarını qeyd etmək olar. Sonuncu müsahibə İtaliyanın "La Republica" qəzetinə verilmişdir. İ.Əliyevin bəzi muxbirlərin qərəzli suallarına məntiqi və müdrik cavabları onları mat qoyur, xalqımızın dilində isə şüara çevrilirdi. Azərbaycan Respublikasının dövlət başçısı bu sualların hər birinə son dərəcə təmkinlə, soyuqqanlılıqla cavab verir, məsələnin mahiyyətini səbrlə izah edir, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini və dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirirdi. Almaniyanın ARD televiziya kanalına müsahibədə muxbirin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu bir rəmzi məna daşıyır?" sualına da İlham Əliyev təmkinini pozmadan cavab verir: "Elzas və Lotaringiya sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Ba-








kıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Dinlədiyimiz müsahibələrdə maraqlı məqamlar çox idi. Bəzən muxbirlər mövzudan kənara çıxır, hətta etik normaları unudurdular, nələri isə isbat etmək üçün inad göstərirdilər, müsahibin sözünü belə kəsirdilər. Aydın görünürdü ki, bütün bunlar ermənilərin sifarişidir. Bunu dərhal hiss edirdik. Lakin Prezidentimiz İlham Əliyev dəmir məntiqi, gətirdiyi təkzibolunmaz faktları, yüksək mədəniyyəti və intelekti ilə daim ucalıqda dayanır, səbir və təmkinlə Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı. Ermənilərin canfəşanlığının heç bir faydası olmadı. Azərbaycan mediası da döyüşən əsgər idi. Məhz Prezidentimizin bu uğurlu siyasətinin nəticəsidir ki, dünyanın aparıcı dövlətləri Azərbaycanı dəstəklədilər və haqq işinə səs verdilər. Birinci Qarabağ müharibəsində hərbi üstünlük əldə edən Ermənistan Vətən müharibəsində siyasi, hərbi, informasiya cəbhələrində məğlub oldu. Beləliklə, Azərbaycanımız, haqq işimiz qələbə çaldı.

Yaşasın Azərbaycan!

Qarabağ Azərbaycandır!



**FİDAN MƏMMƏDOVA**
*Qaradağ rayonu*
*166 nömrəli məktəb-liseyin*
*X sinif şagirdi*
**Elmi rəhbər: İlhamə Mehdiyeva**

# VƏTƏN MÜHARİBƏSİ – QARABAĞIN AZAD OLUNMASI

***Bir əlimdə bayrağım, bir əlimdə silahım,***
***Dilimdə yurd nəğməsi, başım üstə Allahım.***
***O mənim qibləgahım, o mənim səcdəgahım,***
***Çox uzaqdan gəlirəm, çox uzağa gedirəm,***
***Qarabağa gedirəm!***

Bu sözü illərdir ki, gözləyirdik, illərdir ki, bu sözün həsrətini çəkirdik. Bəlkə də, bu həsrəti, bu ahları toplasan, dağları-daşları yandırıb külə çevirərdi. Dağları-daşları bilmirəm, amma çox-çox ürəkləri yandırıb külə çevirmişdi.

Ümidlər tükənmişdi, gözlərdəki ümid işığı ağrıya, kədərə, utanca nifrətə çevrilmişdi. Bir gün tale üzümüzə gülməyə başladı. O şərəfli gün 27 sentyabr günü idi. Məncə, bu günü seçmək də təsadüfü deyildi. Axı 27 ildir ki, biz Qarabağsız, Qarabağ isə bizsiz qalmışdı. Bəli 27 sentyabr!

Bu müharibə 27.09.2020-ci ildə başladı və 10.11.2020-ci il tarixinədək davam etdi. I Qarabağ müharibəsi 20 fevral 1988-ci ildən 12 may 1994-cü ilədək davam etmişdi. Bu müharibənin sonu





torpaqlarımızın itirilməsi ilə nəticələnmişdi.



Ancaq 27 sentyabr 2020-ci il tarixi bütün dünya azərbaycanlılarının həyatında tam bir dönüş nöqtəsi oldu.

27 sentyabr – Azərbaycan türklərinin oyanışı, xalqımın özünə qayıdışı, dünyaya özünü sübutu, nəhayət, Türk dünyasının özünüdərki günü kimi tarixə yazıldı!!!

27 sentyabr – mənim öz xalqımı tanıyışım! Xalqımı bu zamana qədər oxuduğum kitablardan tanımağa çalışırdım. Bu şanlı tarix həyatımda dönüş nöqtəsi oldu: artıq xalqımı kitablardan yox, real həyatda tanıdım.

Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin düşmən əsarətindən xilas edilməsinin ilkin təməli xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının rəhbəri kimi iştirak etdiyi bütün beynəlxalq tədbirlərdəki çıxışlarında Dağlıq Qarabağın xalqımıza məxsus olmasını bəyan etmiş, bu münaqişənin ilk növbədə sülh yolu ilə, danışıqlar vasitəsilə həll olunmasına tərəfdar olduğunu, dialoqla tarixi ədaləti bərpa etməyə səy göstərdiyini bildirsə də, müharibə yolu ilə də qələbəyə nail olmaq variantını nəzərə çatdırmışdı.

Bütün bunlarla bərabər, Azərbaycan xalqının Dağlıq Qarabağda və ətraf ərazilərdə tam və qəti qələbəyə nail olması kimi tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həyata keçirmişdir. Bu məqsədlə Prezident İlham Əliyev, ilk növbədə, Azərbaycan Respublikasını iqtisadi cəhətdən inkişaf etmiş ölkə səviyyəsinə çatdırmaq vəzifə-

sini uğurla yerinə yetirdi. Ölkəmizə rəhbərlik etdiyi 17 il ərzində İlham Əliyev Azərbaycan Respublikasında iqtisadi cəhətdən bütün sahələrdə şaxələnmiş böyük inkişafa nail olmağı təmin etmişdir. Davos İqtisadi Forumu və bir çox nüfuzlu beynəlxalq maliyyə qurumu müstəqil Azərbaycan Respublikasının iqtisadi göstəricilərinə görə regionda və dünyada ən yüksək reytinqə malik olan dövlətlərdən birinə çevrildiyini dönə-dönə, dəfələrlə bəyan etmişlər.



İkincisi, Prezident İlham Əliyevin Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl olaraq həyata keçirdiyi davamlı və məqsədyönlü siyasət Dağlıq Qarabağda böyük Qələbəyə aparan yolun ən mühüm hadisələrindəndir.

Ordu quruculuğu sahəsində həyata keçirilmiş böyük islahatlar: şəxsi heyət arasında azərbaycançılıq, hərbi-vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsi, ordumuzun ən müasir hərbi texnika ilə silahlandırılması, yüksək ixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması Azərbaycana regionda ən güclü orduya sahib olmaq imkanı qazandırmışdır.

Bununla da hərbi qələbələrimiz, zəfərlərimiz üçün zəmin hazırlandı. İlk Böyük Qələbə 2016-cı ilin Aprel döyüşlərində qaza-





nılmışdı. Ordumuz nəyə qadir olduğunu bir neçə günün içində əyani şəkildə sübuta yetirə bilmişdi. Sonra uğurlu Naxçıvan əməliyyatı həyata keçirildi. Tovuz döyüşləri də unudulmaz oldu. Nəhayət, gözlənilən zaman, vaxt yetişdi. Möhtərəm Prezidentimizin dediyi kimi, bu vaxtı, məqamı yalnız o bilirdi və lazımi məqamda, zamanında da Silahlı Qüvvələrimizə həddini aşmış düşmənə həddini bildirmək üçün döyüş əmri verdi. Ali Baş Komandanın əmrini yerinə yetirmək üçün hücuma keçən ordumuz elə ilk gündən özünün dəyanətli baş sərkərdəsinə layiq, sadiq olduğunu sübut etdi. İllərlə torpaqlarımızda ləyaqətsiz hərəkətlər edən, özünü hamıdan güclü sayan ermənilər igidlərimizin ilk cəsarətli həmlələri qarşısında çaş-baş qaldılar.



Bəli, bu bizim əsgər idi, möhtərəm Prezidentimizin, Ali Baş Komandanımızın rəhbərliyi altında yetişən, müasir döyüş üsullarına yiyələnən, müasir silahlarla silahlanan Azərbaycan əsgəri. Dövlətimizin başçısının dediyi kimi, düşmənin başından elə vurduq ki, indiyə kimi özlərinə gələ bilmirlər. İnana bilmirlər ki, onların illərlə qurduqları, möhkəmləndirdikləri istehkamları dağıdan Azərbaycan əsgəridir.

Vətən müharibəsi 44 gün davam etdi. Çox ağır və çətin bir müharibə. Qarış-qarış, addım-addım irəlilədi ordumuz. 44 gün sonra isə qələbə çaldıq. Tarixə həkk olunacaq bir qələbə.

Yuxarıda yazmışdım ki, bu müharibə mənə xalqımı tanıtdı. Bəli, xalqımı tanıdım. Ali Baş Komandanın ətrafında elə birləşib elə dəstək verdilər ki, həm orduya, həm dövlətə, həm də bir-birinə. Hər şey Vətənə olan sevgidən irəli gəlirdi. Vətən qədər əziz, doğma bir şey varmıdır həyatda?



Yox, məncə. Vətən təkcə torpaq deyil. Onu bu qədər sevdirən şeylər vardır. Məsələn: mən kitablarımı, evimi, ailəmi, anamı, atamı (həyatda olmasa da) müəllimlərimi, dostlarımı sevirəm. Sizcə, bunlar olmasa, Vətən Vətən olardımı? Vətən ən kiçik şeydən başlayır. Sevdiyim hər şey bu yurdu mənə daha mənalı, ayrılmaz edir.

Mən zəfər alovunun işartılarını xalqımın gözündə gördüm. Birləşmiş, bütöv bir Azərbaycan gördüm. Kiçik ürəyimə bunları sığdırmaq, bu şərəfi yaşamaq, bu qüdrəti görmək, bu qələbə şirinliyini dadmaq nəsib oldu.





Ali Baş Komandanın ətrafında birləşdik, dünya belə birlik görməmişdi. Güclü dövlətimizin və rəşadətli, cəsur ordumuzun sayəsində Qarabağımızı azad etdik. Düzdür, itkilərimiz oldu. Amma türk və dünya tarixinə elə bir qəhrəmanlıq səlnaməsi yazdılar ki, sözlə vəsf etmək olmur. İgid oğullarımız:

***Bayraq olub enmədilər,***
***Şəhid olub ölmədilər,***
***Günəş olub sönmədilər***

Qarabağı aldılar və əbədiyyət göylərinə ucalardan-uca taxtlarını qurdular.

Eyni amal uğrunda birləşmək, eyni amal uğrunda şəhadət şərbətini içmək hər xalqa məxsus olmur.

Qarabağ Azərbaycanın əzəli və əbədi torpağıdır. Bu torpaq babalarımızdan qalan çox qiymətli əmanətdir. Əmanəti qorumaq isə bizim ən müqəddəs borcumuzdur. Azərbaycan əsgəri bu müqəddəs yolda canını belə əsirgəmirsə, eşq olsun belə qəhrəman əsgərə, onu böyüdən, yetişdirən! Elə buna görə öz xalqına arxalanan möhtərəm Prezidentimiz, Ali Baş Komandan qürurla və inamla deyir: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!.



**ARZU ƏLİYEVA**
*Nizami rayonu*
*238 nömrəli tam orta məktəbin*
*X sinif şagirdi*
**Elmi rəhbər: Könül Eyvazova**

# MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN VƏ AZƏRBAYCAN ORDUSU

Qəhrəmanlar elə bir tarix yaradır ki, o sadəcə dövrün ziyalılarının qələminə həkk olunmur. Bu mübarizlik tarixi xalqın vətən sevgisini alovlandırır, onun yaddaşına əbədi hopur. Və bu tarix ümumxalq səviyyəsində dastanlaşır. Elə Vətən müharibəsi qəhrəmanımız, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının işğaldan azad olunması uğrundakı döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Xudayar Yusifzadənin oxuduğu mahnıda deyildiyi kimi:

***Vətən arzusuyla nəğmələr qoşdum***
***Tufanlar qarşında dastana döndü...***

O ordu yenilməz və güclüdür ki, əsgəri düşünmədən Vətən naminə ölümə hazırdır. Təsadüfi deyil ki, hər bir ölkənin qüdrətini göstərən əsas amillərdən biri onun ordusu, əsgərinin vətənpərvərlik ruhudur. Əgər bu ruh yoxdursa, qüdrətdən, Vətənin etibarlı müdafiəsindən danışmağa dəyməz. Qəlbində vətənpərvərlik ruhu hakim olan əsgərin, döyüşçünün qarşısında isə ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz. Biz bunun ən bariz nümunəsini Vətən müharibəsində müzəffər Azərbaycan ordusunun timsalında gördük.







*Şəhid Xudayar Yusifzadə*

Böyük dahilər və igidlər yetişdirmiş yurdumuzun son bir əsrdə məruz qaldığı işğallar, faciələr və soyqırımlar bizə yenidən tarix yazan qəhrəmanlar qazandırdı. Babək, Cavanşir, Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Şah İsmayıl Xətai kimi sərkərdə, dövlət başçılarından sonra millətimizin taleyinə yenidən müdrik rəhbər – Ali Baş Komandan yazıldı. Xalqımızın ümummili qəhrəmanı – yeniləşən Azərbaycanın yeni memarı İlham Əliyevin simasında millətimiz daha qüdrətli bir sərkərdəsi ilə dünya tarixində parlaq səhifə açdı.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dünyanın ən güclü 50 ordusu sırasında yer alan ordumuz öz Komandanının rəhbərliyi ilə Ermənistanın qoruyub saxladığı status-kvo və təmas xəttini tamamilə dağıtdı. Ordumuz əks-həmlə əməliyyatları zamanı müasir texnologiyalı silahlarla düşmənin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxararaq onu faktiki olaraq iflic vəziyyətinə gətirdi. Müasir silahlar Silahlı Qüvvələrimizin güc alətlərindən yalnız biri idi. Müharibənin taleyini müəy-



*Müzəffər Ali Baş Komandan İlham Əliyev Xudafərin körpüsündə bayraq qaldırarkən*

yönləşdirən başda möhtərəm Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi.

Cənab İlham Əliyevin daim mötəbər beynəlxalq kürsülərdən dünya ictimaiyyətinə etdiyi "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" çağırışı, çıxışlarında və müsahibələrindəki qətiyyətli mövqeyi, dərin məntiqə söykənən arqumentləri, televiziya vasitəsilə etdiyi müraciətlər, ədalətin bərpa olunması uğrunda atdığı faktiki addımlar xalqımızın vətən, torpaq sevgisini, xüsusilə intiqam hissini daha da alovlandırmış, bizi bu şanlı mübarizənin ön sıralarında dayanmağa səsləmiş, millətimizə şanlı Zəfər qazandırmışdır.

Ölkəmizin siyasi arenadakı yüksək diplomatik nüfuzu, ordu quruculuğu sahəsində, xüsusilə hərb meydanında əldə olunmuş parlaq tarixi qələbə müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin uzun illər yürütdüyü müdrik siyasətin nəticəsidir. Ali Baş Komandan ölkəmizin daxili və xarici düşmənlərinin riyakar, xain əməllərinə qarşı gərgin mübarizə aparmaqla gənc ölkəmizin parlaq gələcəyi





naminə bütün gücünü səfərbər etmiş və xalqı öz ətrafında birləşdirməyə nail olmuşdur.

Müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı cənab Prezidentin müqəddəs amal uğrundakı gərgin və yorulmaz fəaliyyətləri sayəsində ölkəmiz sürətlə inkişaf etmiş, özünün qüdrətli, müzəffər ordusunu yaratmağa müvəffəq olmuşdur. Bu uğurlu addımların nəticəsidir ki, bu gün Azərbaycan dünyada öz mövqeyi, öz dəst-xətti və öz imzası ilə seçilən ölkədir. Və əldə olunan tarixi Zəfər də onu göstərdi ki, Azərbaycan heç kimdən asılı olmadan öz taleyini öz gücü ilə həll etməyə qadirdir, yeri gəlsə, düşmənlərinin başını "dəmir yumruq"la əzərək öz müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumaq iqtidarına sahibdir.



*Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşada şanlı bayrağımızı qaldırarkən*

İlham Əliyev son bir əsrdə itirdiyimiz torpaqların öz hərbi qüdrətimizlə azad olunmasının altına imza atmış ilk Lider kimi xalqımızın qəhrəmanlıq tarixini yazdı. 44 günlük Vətən müharibəsi xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu. Bu qalibiyyət Azərbaycanda

Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan, ötən 17 ildə isə Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixin yaddaşına həkk olundu.

Fikirlərimi Ali Baş Komandanın dekabrın 10-da keçirilən Azərbaycan Ordusunun Zəfər paradında dediyi qiymətli sözlərlə yekunlaşdırmaq istərdim: *"Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir"*.





**FİDAN DAŞDƏMİROVA**
*Suraxanı rayonu*
*114 nömrəli tam orta məktəbin*
*VIII sinif şagirdi*
**Elmi rəhbər: Fatimə Zülfiqarova**



## İLHAM ƏLİYEV – BEYNƏLXALQ MEDİA

Özümü xoşbəxt şagird, xoşbəxt övlad və xoşbəxt vətəndaş hesab edirəm. Çünki geniş təbii sərvətləri, ecazkar gözəllikləri ilə bütün dövlətləri qısqandıran və heç bir ölkənin prezidenti ilə müqayisə olunmayan bir Prezidenti olan ölkədə yaşayıram. Bəlkə də, yeganə xalqıq ki, dövlətimiz, vətənimiz və Prezidentimiz uğrunda canımızdan belə keçməyə hazırıq. Kiçikdən-böyüyə hər birimiz Ali Baş Komandanımızın siyasətini dəstəkləyirik və bir əsgər kimi onun əmrinə hazırıq.

Yaşadığımız 44 günlük Vətən müharibəsi cənab Prezidentin qorxmazlığını, iradəsini, daxili zənginliyini və məntiqli siyasətini bir daha bütün dünyaya aşkar etdi. Vətən müharibəsi zamanı bir sıra xarici ölkələrdən jurnalistlər Prezident İlham Əliyevdən müsahibə almaq üçün ölkəmizə səfər etmişdilər. Təəssüflər olsun ki, bu jurnalistlərin əksəriyyətinin ya tarixdən xəbərləri yox idi, ya da özləri bilərəkdən ermənipərəstlik edirdilər. Ümumiyyətlə, cənab Prezident bu 44 gün ərzində xeyli sayda jurnalistə müsahibə verdi və hər birini layiqli cavablarla susdurdu. Tarixdən anlamayanlara birbaşa tarix dərsi keçdi. Əsasən də Almaniya və Fransa

kimi erməniპərəst ölkələrin jurnalistləri öz təxribatçı sualları ilə vandallığın, barbarlığın, haqsızlığın, ədalətsizliyin yanında olduqlarını göstərdilər. Bir alman jurnalistin prezidentimizə verdiyi sual isə onu bütün dünyada rəzil etdi. Sual belə idi:



*İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi*

"Nəyə görə Qarabağ sizin üçün bu qədər önəmlidir? Orda təbii resurslar var, yoxsa bu bir rəmzi məna daşıyır?"

Ya jurnalist, həqiqətən, sualın cavabını bilmirdi, ya da bir jurnalist qanunlarına zidd olaraq həqiqətləri dilə gətirmək istəmirdi.

Prezidentimiz isə ona cavab olaraq dedi:

"Elzas və Lotaringiya sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu bizim torpaqdır. Bu, bizim beynəlxalq səviyyədə tanınan ərazimizdir. Bu, milli qürur, beynəlxalq hüquq məsələsidir".

Jurnalist isə bu cavabın qarşısında söz tapa bilmədi. Bu müsahibəni dinlədikdən sonra düşündüm ki, görəsən, gələcək həyatımda elə bir şansım ola bilərmi ki, belə jurnalistlərə sual verərək deyim ki:





"Bəs Ermənistan üçün öz torpağı olmaya-olmaya digər bir ölkənin ərazisindən oğurladığı Qarabağın nə kimi önəmi var?"

Belə jurnalistlərdən biri də "BBC News" telekanalının əməkdaşı idi. Bu jurnalist isə Azərbaycanda söz azadlığının olmadığını iddia etdi və Prezidentimiz tərəfindən layiqli cavabını aldı. Bununla susmayan jurnalist yenidən sual verərək dedi:

– Biz jurnalistlər cəbhə bölgəsində rahat şəkildə hərəkət etmək istəyirik. Lakin bunun üçün icazə yoxdur.

Prezidentimiz isə bildirdi ki:



*İlham Əliyevin "BBC News" kanalına müsahibəsi*

– Əcnəbi jurnalistləri müşahidə edənlərin yalnız bir məqsədi var: onları baş verə biləcək təhlükələrdən qorumaq.

Amma nədənsə heç bir fransız və alman jurnalistin dilindən erməni terrorizminə qarşı fikir eşitmədim. Bu da dünya ölkələrinin Azərbaycana qarşı qısqanclığının daha bir nümunəsidir. Vətən müharibəsi zamanı nəinki jurnalistlər, hətta bəzi ölkələrin prezidentləri də erməniპərəst düşüncələrini gizlədə bilmədilər. Belə prezidentlərdən biri də Fransa Prezidenti Emmanuel Makrondur. Makron Qarabağda ermənilər üçün 2-ci qondarma dövlətin yaradılmasının tərəfdarı idi və bunu açıq-aydın şəkildə bildirmişdi. Prezidentimiz isə ona cavab olaraq belə söylədi:




– Fransada ermənilər çox yaşayır. Əsasən də Marsel şəhərində. Əgər ermənilər sizin üçün bu qədər dəyərlidirsə, Marseli verin ermənilərə və müstəqillik də elan edin.

Prezidentimizin qarşısında aciz qalan jurnalistlərin sırasına Prezident Emmanuel Makronda daxil oldu. Vətən müharibəsi zamanı bir xalq olaraq belə nəticəyə gəldik ki, Prezidentimizin dəmir yumruğu təkcə oğurlanmış torpaqlardan yaranan "dövlət"in qondarma siyasətçilərinin başına yox, həmçinin, bu dövləti dəstəkləyənlərin də başına dəydi və yeni qondarma dövlət yaratmaq xəyalları puç edildi. Ali Baş Komandanımızın doğru, dürüst siyasəti bütün dünya ölkələrini susdurdu. Onun əlçatmaz, əvəzedilməz fikirləri və şücaəti bütün dünya ölkələrinə əsrlər boyu nümunə olacaq. Beləliklə, Azərbaycan Respublikasının dövlət başçısı qələbəmizlə Qarabağın Azərbaycan torpağı olduğunu həm ermənilərə, həm də bütün dünya ölkələrinə bir daha sübut etdi. QARABAĞ AZƏRBAYCANDIR!!!















Müdrik Siyasət və Qarabağ Zəfəri
























8 NOYABR
ZƏFƏR
GÜNÜ
Hilton
AZƏRBAYCAN XALQI
YENİLMƏZ XALQDIR!
AZƏRBAYCAN ORDUSU
MÜZƏFFƏR ORDUDUR!




























ŞUŞA












Şuşa


Şuşa
ŞUŞA






















ŞUŞA



# MÜNDƏRİCAT


Ön söz ........ 5
Uğurlu siyasətin davamı – İlham Əliyevin hakimiyyətə gəlməsi ........ 7
Vətən müharibəsi – Qarabağın azad olunması ........ 13
Qarabağ zəfəri və onun tarixi əhəmiyyəti ........ 20
İlham Əliyev – Uğurlu diplomatiya ........ 26
Vətən müharibəsi – Qarabağın azad olunması ........ 33
Böyük zəfərin qazanılmasında Ali Baş Komandanın həyata keçirdiyi hərbi strategiya ........ 38
Şuşa şəhəri – Azərbaycanın Mədəniyyət paytaxtı ........ 43
Vətən müharibəsində böyük qələbənin əldə edilməsində iqtisadi və siyasi amilin rolu ........ 49
Azad edilmiş torpaqlarda erməni vandalizminin izləri ........ 54
Şuşa əməliyyatı – Musiqi beşiyinin azad olunması ........ 59
Müzəffər Ali Baş Komandan və Azərbaycan ordusu ........ 64
Vətən müharibəsi qəhrəmanları ........ 72
Müzəffər Ali Baş Komandan və Azərbaycan ordusu ........ 80
İlham Əliyevin xalqa müraciətləri ........ 86
Qarabağ zəfəri və onun tarixi əhəmiyyəti ........ 94
Vətən müharibəsi – Qarabağın azad olunması ........ 100
Şuşa əməliyyatı – Musiqi beşiyinin azad olunması ........ 105
Azad edilmiş torpaqların geniş potensialından istifadənin ölkəmizin gələcək inkişafına təsiri imkanları ........ 111
Vətən müharibəsi qəhrəmanları ........ 116
İlham Əliyev – Müasir Azərbaycan ........ 123
Müzəffər Ali Baş Komandan və Azərbaycan ordusu ........ 129
Vətən müharibəsi – Qarabağın azad olunması ........ 135
Şuşa əməliyyatı – Musiqi beşiyinin azad olunması ........ 139
Azad edilmiş torpaqlarda erməni vandalizminin izləri ........ 145
Şuşa əməliyyatı – Musiqi beşiyinin azad olunması ........ 152
İlham Əliyev – Milli həmrəylik ........ 158
Zəfər paradı, düşmənə göz dağı ........ 165
İlham Əliyev və uğurlu diplomatiya ........ 169
Azad edilmiş torpaqların geniş potensialından istifadənin ölkəmizin gələcək inkişafına təsiri imkanları ........ 176
Qarabağ zəfəri və onun tarixi əhəmiyyəti ........ 180
İlham Əliyev – Beynəlxalq media ........ 186
Vətən müharibəsi – Qarabağın azad olunması ........ 190
Müzəffər Ali Baş Komandan və Azərbaycan ordusu ........ 196
İlham Əliyev – Beynəlxalq media ........ 201